Xalqın qəzeti!

# Xalq qəzeti

№ 75 (30769) 17 aprel 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Azərbaycan–Gürcüstan: Cənubi Qafqazda dostluq və tərəfdaşlıq örnəyi

### Gürcüstanın Prezidenti Mixeil Kavelaşvilinin Azərbaycana rəsmi səfəri

### Prezident İlham Əliyevlə təkbətək görüş



Aprelin 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə ölkəmizdə rəsmi səfərdə olan Gürcüstanın Prezidenti Mixeil Kavelaşvilinin təkbətək görüşü keçirilib.

## Ermənipərəstlikdə "dini təəssübkeşlik"

*Yaxud erməni lobbisinin Xristian aləmini Azərbaycana qarşı körükləmək cəhdi*




**ABŞ-dakı bəzi media vasitələrinin Azərbaycana qarşı qərəzli mövqe tutduqlarını bilirik. Bu cür yarıtmaz fəaliyyəti ilə seçilənlər içərisində ölkənin tanınmış nəşrlərinin mövcudluğunu da həmçinin. İndi, onların sırasına "Christian Post" onlayn qəzeti də qoşulub. Hərçənd, nəşrin fəaliyyətində, bu, yenilik sayılmamalıdır. Çünki media orqanının anti-Azərbaycan fəaliyyətinə dair başqa faktlar da var və yazımıza onları diqqətə çatdırmaqla başlayaq.**

(ardı 6-cı səhifədə)

## Manatın məzənnəsi 2030-cu ilədək sabit qalacaq



Səhifə ⇨ 8

## Bakı–İrəvan sülhü kontekstində konstitusiya manipulyasiyası

**Baş nazir Nikol Paşinyan ölkə parlamentindəki çıxışında yenə Azərbaycanın sülh müqaviləsinin imzalanması üçün irəli sürdüyü şərtlərdən söz açarkən, Bakının Ermənistan konstitusiyasına dəyişiklik edilməsi tələbi üzərində xüsusi dayanıb. Bəri başdan deyək ki, Nikolun dedikləri, həmişəki kimi, hiylələrlikdir.**

Arayış üçün bildirək ki, Ermənistan konstitusiyası ölkənin İstiqlaliyyət bəyannaməsinə istinad edir. Bəyannamədə isə vurğulanır ki, Ermənistan Respublikasının yaranması həm də keçmiş Dağlıq Qarabağ muxtar vilayətinin milli şurası (?) deyilən separatçıların birləşdiyi saxta qurumun qərarına əsaslanır. Bir sözlə, bəyannamədə Ermənistanın olmayan, daha dəqiq desək, Azərbaycana məxsus ərazinin adı çəkilir. O ərazinin ki, onun uğrunda iki müharibə olub. O ərazi ki, onun timsalında erməni millətçilərinin Azərbaycanın əzəli torpaqları-



na iddia mərəzi yekunda işğal faktını və bir milyona yaxın vətəndaşımızın doğma yurd-yuvalarından didərgin düşməsi kimi acı reallığı doğurmuşdu. Bu səbəbdən ölkəmizin Ermənistan konstitusiyası ilə bağlı narahatlığı anlaşılandır.

N.Paşinyan detallara getməsə də, parlamentdəki çıxışında Azərbaycanın narahatlığının əsaslı olduğunu vurğulayıb. O deyib ki, rəsmi Bakı Ermənistan konstitusiyasına dəyişiklik şərtini səsləndirəndə səmimidir və bu tələb bir çox ekspertlərin iddialarının əksinə olaraq, heç də sülh müqaviləsini imzalamaqdan yayınmaq bəhanəsi deyil. Hesab edirik ki, erməni baş nazirin belə yanaşması müsbət hal kimi qiymətləndirilə bilər. Amma...

(ardı 6-cı səhifədə)

## Gürcüstan–Azərbaycan əməkdaşlığı yüksələn xətlə inkişaf edir

*Logistik zəncirin əsas halqaları olan bu ölkələrin gələcəyə aydın "yol xəritəsi" var*

**Gürcüstanın yeni Prezidenti Mixeil Kavelaşvilinin ilk rəsmi səfərinin ünvanı kimi Azərbaycanı seçməsini simvlizə edən əsas amil iki dost, qonşu ölkənin münasibətlərində keyfiyyətcə yeni mərhələnin başlanğıcıdır – deyə bilərik. Bu səfəri, sadəcə, diplomatik mesaj olmayıb, daha böyük məna kəsb edən siyasi qərar, iki ölkə arasında strateji tərəfdaşlığın davamlılığına verilən önəmin göstəricisi kimi qiymətləndirmək lazımdır. Məhz bu baxımdan Gürcüstan Prezidentinin Bakı səfəri həm regiondaxili inteqrasiyanın, həm də Cənubi Qafqazda sabitliyin qorunması baxımından siyasi əhəmiyyət daşıyır.**

(ardı 5-ci səhifədə)



## Daşkəsən də xəzinəmizə qızıl verir



Səhifə ⇨ 8

## Elmlər Akademiyası XX əsrdə tarixi zərurətdən yarandı



Səhifə ⇨ 9

## "Leytmotivsizlik" sindromu

Səhifə ⇨ 7

## BP-nin ölkəmizdə sosial missiyası

*Şirkət və tərəfdaşları ixrac kəmərləri boyunca 3 layihəni başa çatdırıb*



**BP şirkəti "Azəri-Çıraq-Günəşli", "Bakı-Tbilisi-Ceyhan", "Şahdəniz" və "Cənubi Qafqaz boru kəməri" layihələrindəki tərəfdaşları olan "SOCAR", "TPAO", "LUKOİL", "SGC", "NİCO", "MOL", "İNPEX", "ExxonMobil", "İTOCHU", "ONGC Videsh", "Eni", "MVM" və "TotalEnergies" adından əməliyyatçısı olduğu ixrac boru kəmərləri boyunca yerləşən icmaların inkişafına yönəlmiş daha 3 sosial layihənin uğurla başa çatdığını elan edib.**

(ardı 8-ci səhifədə)

## İrəvan hərbi xərclərimizin artımından niyə əndişələnir?

*Axı bunun səbəbi özlərinin silahlanmasıdır*

**Ölkəmizin gələnilki hərbi xərcləri, deyəsən, Ermənistanı bərk qorxuya salıb. Bununla bağlı Hayastan mediasında dərc olunan yazılar belə deməyə əsas verir.**

Məsələn, aprelin 16-da "ArmenianReport"da yerləşdirilmiş "Ermənistanı kim qoruyacaq?!" sərlövhəli məqalədə bildirilib: "Bizə dost olmayan qonşu ölkədə büdcədən danışırlar. Azərbaycanın gələn il üçün proqnozlaşdırılan müdafiə və milli təhlükəsizlik xərcləri məlum olub. Bu, ölkənin 2026-cı il və sonrakı üç il üzrə dövlət büdcəsi layihəsinin xərc göstəricilərinin funksional təsnifat səviyyəsində öz əksini tapıb. Gələn il bu sahəyə 8 milyard 110 milyon 642,2 min manat vəsaitin ayrılması proqnozlaşdırılır. Bu, indiki məzənnə ilə təxminən 4,8 milyard dollar dəyərindədir. Qonşu ölkənin müdafiə və milli təhlükəsizlik xərcləri 2027-ci ildə 7 milyard 345 milyon 473,2 min manat, 2028-ci ildə 6 milyard 979 milyon 393,1 min manat, 2029-cu ildə 7 milyard 402 milyon 393,9 min manat olacaq".

(ardı 7-ci səhifədə)

## Azərbaycan süni intellekt məkanında qlobal rəqabət qabiliyyətini gücləndirir



Səhifə ⇨ 10

# Azərbaycan və Gürcüstan prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər

**Aprelin 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Prezidenti Mixeil Kavelaşvili mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.**



## Prezident İlham Əliyevin bəyanatı

**– Hörmətli cənab Prezident!**
**Hörmətli qonaqlar, xanımlar və cənablar!**

Hörmətli cənab Prezident, Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Sizi prezident vəzifəsinə seçilməyiniz münasibətilə bir daha ürəkdən təbrik edirəm, Sizə uğurlar arzulayıram. Mən çox şadam ki, prezident vəzifəsinə seçiləndən sonra Siz ilk rəsmi səfəri Azərbaycana edirsiniz. Biz bunu Azərbaycanda çox yüksək qiymətləndiririk. Bu, bir daha Gürcüstan–Azərbaycan əlaqələrinin mahiyyətini, xalqlarımızın dostluğunu, qardaşlığını göstərir.

Əsrlər boyu bizim xalqlarımız sülh, mehribanlıq, qardaşlıq şəraitində yaşamışlar. Bu gün də bu, belədir. Dövlətlərarası münasibətlər də yüksək səviyyədədir. Gürcüstan və Azərbaycan birgə bir çox önəmli layihələri icra ediblər və bu layihələr həm ölkələrimiz üçün, xalqlarımız üçün, həm də daha geniş coğrafiya üçün böyük önəm daşıyır. Təbii olaraq siyasi əlaqələr inkişaf edir. Yüksəksəviyyəli təmaslar müntəzəm xarakter daşıyır, siyasi dialoq fəaldır. Yəni iki dost, qardaş ölkə, sözün əsl mənasında, bir-birinə çox bağlıdır və beynəlxalq təşkilatlarda da daim bir-birini dəstəkləyir. Bizi birləşdirən bir çox sərmayə layihələri qeyd etdiyim kimi, böyük coğrafiya üçün önəmlidir. Azərbaycanın və Gürcüstanın birgə həyata keçirdiyi neft-qaz layihələri, neft-qaz kəmərləri, nəqliyyat, kommunikasiya layihələri, sözün əsl mənasında, böyük əhəmiyyət daşıyan layihələrdir və nəinki Cənubi Qafqazın, Avrasiya regionunun nəqliyyat və enerji xəritəsini yenidən tərtib edən layihələrdir. Əgər biz bu gün Avropanın enerji təhlükəsizliyi haqqında danışırıqsa, bunu Azərbaycansız, Gürcüstansız təsəvvür etmək mümkün deyil. Hazırda Gürcüstan daxil olmaqla Azərbaycan 12 ölkəyə təbii qaz ixrac edir və bu ixrac Gürcüstan vasitəsilə həyata keçirilir. Nəqliyyat-kommunikasiya sahəsində əldə olunmuş nailiyyətlər, yeni inşa edilmiş dəmir yolları, limanlar həm Azərbaycanda, həm də Gürcüstanda böyük sinergiya yaratmış və əslində, Orta dəhlizin ayrılmaz hissəsinə çevrilmişdir. Əgər bu gün biz Cənubi Qafqazda Orta dəhliz layihəsindən danışırıqsa, bu, Azərbaycandan və Gürcüstandan keçən dəhlizdir. İlldən-ilə ölkələrimizin ərazisindən keçən yüklərin həcmi artır və bu yüklərin həcminin artırılması üçün əlavə addımlar atılır.

Cənubi Qafqazda sülhün, əmin-amanlığın bərqərar edilməsi də bizim birgə maraqlarımızda olan məsələdir və burada həm Gürcüstan, həm Azərbaycan öz töhfəsini verir. Əfsuslar olsun ki, uzun illər ərzində Cənubi Qafqaz münaqişə, müharibə arenasına çevrilmişdi. Ümid edirəm ki, bundan sonra Cənubi Qafqazın qara səhifələri bağlanacaq və tarixdə qalacaq.

Gürcüstan–Azərbaycan əlaqələri haqqında çox danışmaq olar. Sadəcə, onu bildirmək istəyirəm ki, bundan sonra da bizim əlaqələrimiz yüksələn xətlə inkişaf edəcək.

Mən bir daha cənab Prezidentə təşəkkürümü bildirirəm. Əminəm ki, Azərbaycan xalqı da onun qərarını yüksək qiymətləndirəcək. Çünki, adətən, seçkilərdən sonra birinci səfər rəmzi xarakter daşıyır və bu səfər Azərbaycana edilib. Eyni zamanda, Gürcüstanın Baş naziri də seçkilərdən sonra ilk rəsmi səfərini Azərbaycana edib. Yəni bu, artıq gözəl ənənəyə çevrilib. Buna görə bir daha Sizə təşəkkürümü bildirirəm və fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

Sonra Gürcüstanın Prezidenti bəyanatla çıxış etdi.

## Prezident Mixeil Kavelaşvilinin bəyanatı

**– Zati-aliləri cənab Prezident!**
**Nümayəndə heyətinin üzvləri!**
**Media nümayəndələri, xanımlar və cənablar!**

İlk növbədə, səmimi qəbula və qonaqpərvərliyə görə Prezident İlham Əliyevə xüsusi minnətdarlığımı bildirmək istəyirəm. Bu, mənim Gürcüstan Prezidenti kimi ilk xarici səfərimdir. Bu səfərdə Gürcüstanla Azərbaycan arasında strateji və xüsusi mehriban qonşuluq münasibətləri vurğulanır. Bu vəzifəyə seçildikdən sonra tezliklə Azərbaycana səfər etmək mənim üçün vacib idi.

Şadam ki, artıq cənab İlham Əliyevlə görüşmək imkanım olub. Biz Gürcüstanla Azərbaycan arasında çoxşaxəli nümunəvi əlaqələr, Cənubi Qafqaz regionunun çağırışları, dünyada gedən cari proseslər barədə düşüncələrimizi və fikirlərimizi bölüşdük.

Əsrlər boyu xalqlarımız arasında bənzərsiz dostluq inkişaf edərək əməkdaşlığın gələcəkdə daha da möhkəmlənməsi üçün etibarlı zəmin yaradıb. Milli özünəməxsusluğu qoruyub saxlamaq, adət-ənənələrə, mədəniyyətə, tariximizə hörmət xalqlarımızın xüsusi diqqət yetirdiyi təməl prinsiplərdir.

Bizim dostluğumuz qarşılıqlı hörmətə və bir-birimizin milli maraqlarının nəzərə alınmasına əsaslanır. Biz münasibətlərdə güvənməyin nə qədər vacib olduğunu başa düşürük və sözümüzün dəyərini bilirik. Bizi xilas edən və bu günə çatdıran bir sıra yazılmamış qanunlarımız, dəyərlərimiz var. Ona görə də Gürcüstan–Azərbaycan dostluğu və strateji tərəfdaşlığı bu qədər xüsusi və nümunəvidir.

Çağırışlar və təhlükələrlə dolu bugünkü qloballaşma dövrü bir çox fundamental dəyərləri təhdid edir. Ona görə də biz bu prinsipləri qorumaq üçün xüsusi diqqət və səy göstərməliyik. Gürcü və Azərbaycan xalqları millətlərimiz üçün həyati əhəmiyyət kəsb edən dəyərlərin qorunması uğrunda mübarizədə bir yerdədir və bundan sonra da birlikdə olacaqlar.

Mən qəti əminəm ki, zamanın sınağından çıxmış yüksəksəviyyəli strateji və mehriban qonşuluq münasibətləri daha da möhkəmlənəcək, Gürcüstanın və Azərbaycanın milli maraqlarının həyata keçirilməsində yeni müstəviyə keçəcək. Regionun və dünyanın qarşısında duran vəzifələrin səmərəli həlli üçün ölkələrimiz arasında bütün sahələrdə sıx əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir.

Biz bir sıra ümumi, qarşılıqlı faydalı layihələr həyata keçiririk ki, bu da bütün dünya üçün regionumuzu daha da cəlbedici edir. Cənubi Qafqaz regionunun daha da rəqabətədavamlı, etibarlı və perspektivli olması üçün davamlı sülhün və sabitliyin təmin edilməsi vacibdir.

Vurğulamaq istərdim ki, Gürcüstanla Azərbaycan bir-birinin suverenliyini və ərazi bütövlüyünü qətiyyətlə dəstəkləyir. Buna görə cənab Prezidentə bir daha təşəkkür etmək istərdim. Gürcüstan həmişə Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin güclü tərəfdarı olub.

Gürcüstan Azərbaycan və Ermənistan arasında sülh sazişinin bütün bəndləri üzrə danışıqlar prosesinin bu yaxınlarda başa çatmasını alqışlayır. Bu, şübhəsiz ki, regionun potensialının, imkanlarının nümayişində və istifadəsində irəliyə doğru atılmış addımdır. Ümid edirik ki, yaxın gələcəkdə tarixi saziş imzalanacaq və regionda uzunmüddətli, davamlı sülhün təmin edilməsi üçün həlledici təkan olacaq.

Gürcüstanın bəyan etdiyi sülh siyasətini və regionda sülhün təmin olunmasına töhfə verməyə hazır olduğunu bir daha vurğulamaq istərdim. Sizi əmin etmək istərdim ki, Gürcüstan həmişə Cənubi Qafqazda dialoqun, diplomatiyanın, dinc yanaşı yaşamağın tərəfdarı olub və bu kurs gələcəkdə də davam edəcək.

Ölkələrimiz arasında mövcud olan xüsusi, çoxəsrlik dostluq və ümumi düşünülmüş siyasət bizə regionumuzun rolunu düzgün müəyyənləşdirməyə imkan verib. Əminəm, bizim ümumi gələcəyimizə uğurlu, iqtisadi cəhətdən güclü və firavan Cənubi Qafqaz regionu daxildir ki, burada xalqlarımız öz adət və ənənələri ilə birgə yaşaya biləcəklər, dırnaqarası liberal dəyərlərlə yox.

Təəssüf ki, son vaxtlar ölkələrimiz dəfələrlə ikili standartların və xarici qüvvələrin daxili işlərə müdaxiləsinin obyektinə çevrilib. Çoxsaylı səylərə baxmayaraq, biz bu təhlükələri qətiyyətlə aradan qaldırırıq, regionun təhlükəsizliyini və sabitliyini təmin edirik.

Heç bir üçüncü ölkə və ya təşkilatın xalqlarımız üçün nəyin yaxşı olduğunu bizdən yaxşı bilməsi mümkün deyil. Şadam ki, Azərbaycan ilə Gürcüstan arasında ümumi maraqların müdafiəsi sahəsində əməkdaşlıq intensivləşib və cənab Prezident, buna görə Sizə bir daha təşəkkür edirəm.

Düzgün və ardıcıl siyasətlə biz regionun potensialından tam istifadə etməli, dünyanın geosiyasi xəritəsində güclü, etibarlı, birləşdirici körpü funksiyasını yerinə yetirməliyik. Əminəm ki, ölkələrimizin və xalqlarımızın mənafeyi naminə bir-birimizin maraqlarını nəzərə alaraq əlaqələrimiz daha da sürətlə inkişaf edəcək.

Hörmətli həmkarım, cənab Prezident, səmimi qonaqpərvərliyinizə görə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Əminəm ki, yaxın gələcəkdə Sizi Gürcüstanda qəbul etmək şərəfinə nail olacağam.

Təşəkkür edirəm.

## Azərbaycan və Gürcüstan prezidentlərinin nahar əsnasında geniş tərkibdə görüşü



**Aprelin 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstanın Prezidenti Mixeil Kavelaşvili ilə nahar əsnasında geniş tərkibdə görüşü olub.**

## "III MDB Oyunlarının 2025-ci ildə Azərbaycanda keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 10 iyul tarixli 198 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"III MDB Oyunlarının 2025-ci ildə Azərbaycanda keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 10 iyul tarixli 198 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 847; 2025, № 1, maddə 69) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini".

**2.** "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi sədrinin müavini" abzasından sonra aşağıdakı məzmunda yeni abzaslar əlavə edilsin:

"Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi sədrinin müavini

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi sədrinin müavini

Azərbaycan Respublikası Mənzil İnşaatı Dövlət Agentliyi İdarə Heyəti sədrinin müavini".

**3.** "Oğuz Rayon İcra Hakimiyyətinin başçısı", "Bərdə Rayon İcra Hakimiyyəti başçısının müavini", "Goranboy Rayon İcra Hakimiyyəti başçısının müavini", "İsmayıllı Rayon İcra Hakimiyyəti başçısının müavini", "Qazax Rayon İcra Hakimiyyəti başçısının müavini", "Şəmkir Rayon İcra Hakimiyyəti başçısının müavini", "Tərtər Rayon İcra Hakimiyyəti başçısının müavini" və "Tovuz Rayon İcra Hakimiyyəti başçısının müavini" abzasları ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 aprel 2025-ci il**

## Riçard Armitacın ailəsinə

**Görkəmli dövlət xadimi, diplomat və ictimai-siyasi xadim, Azərbaycanın böyük dostu Riçard Armitacın vəfatı xəbəri bizi olduqca kədərləndirdi.**

Riçard Armitac uzun illərdən bəri beynəlxalq siyasət və diplomatiya sahəsində davamlı və səmərəli fəaliyyəti, zəngin təcrübəsi və yüksək peşəkarlığı ilə həm ABŞ-da, həm də ondan kənarda böyük nüfuz qazanmışdır. O, dünyada sülhün, təhlükəsizliyin və sabitliyin bərqərar olması, münaqişələrin və gərginlik ocaqlarının aradan qaldırılması, qlobal təhdidlərin qarşısının alınması işinə mühüm töhfələr vermişdir.

Riçard Armitac Azərbaycanın dostu idi. Ona Azərbaycanda hər zaman hörmət və rəğbətlə yanaşmışlar. Azərbaycan Respublikası ilə Birləşmiş Ştatlar arasında münasibətlərin inkişafında, dostluq əlaqələrimizin möhkəmlənməsində Riçard Armitacın xidmətlərini xüsusi qeyd etmək istərdim. Onunla görüşlərimi ən xoş təəssüratlarla xatırlayıram.

Riçard Armitacın əziz xatirəsi qəlbimizdə daim yaşayacaqdır.

Bu ağır anlarda dərdinizi bölüşür və ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 aprel 2025-ci il**

## Şəhidlərin xatirəsinə ehtiram

**Azərbaycanda rəsmi səfərdə olan Gürcüstanın Prezidenti Mixeil Kavelaşvili aprelin 16-da Şəhidlər xiyabanını ziyarət edib.**

Mixeil Kavelaşvili Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Sonra Bakının ən hündür nöqtəsindən paytaxtın mənzərəsini seyr edən ali qonağa Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.



# Gürcüstan Prezidenti Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib



**Gürcüstanın Prezidenti Mixeil Kavelaşvili aprelin 16-da Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.**

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb.

# Gürcüstan Prezidenti ilə Milli Məclisdə görüş



**Azərbaycana rəsmi səfərə gələn Gürcüstan Prezidenti Mixeil Kavelaşvilinin başçılıq etdiyi nümayəndə heyəti aprelin 16-da Milli Məclisdə olub.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Gürcüstan Prezidenti əvvəlcə parlamentin plenar iclas zalında olub. Sonra qonaq Heydər Əliyev xatirə zalındakı eksponatlarla tanış olaraq, buradakı Xatirə kitabına ürək sözlərini yazıb. Daha sonra tərəflər arasında geniş tərkibdə görüş keçirilib.

Parlamentin sədri Sahibə Qafarova Mixeil Kavelaşvilinin Gürcüstan Prezidenti kimi ilk xarici səfərini Azərbaycana etməsini xalqlarımız arasında dostluğun, qardaşlığın növbəti təzahürü kimi dəyərləndirib. Bildirib ki, bu, eyni zamanda, Azərbaycan–Gürcüstan strateji tərəfdaşlığının göstəricisidir. O, bu səfərin ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsinə və genişlənməsinə öz töhfəsini verəcəyinə əminliyini ifadə edib.

İki ölkə arasında parlamentlərarası əlaqələrin yüksək səviyyədə olduğunu söyləyən Milli Məclisin sədri bu sahədə qarşılıqlı dostluq qruplarının rolunu xüsusi qeyd edib, parlament komitələrinin əməkdaşlığının vacibliyindən danışıb, deputatlarımızın beynəlxalq parlament təşkilatlarında da sıx əməkdaşlıq etdiklərini vurğulayıb. O, bəzi beynəlxalq qurumların ölkələrimizə qarşı qərəzli münasibəti fonunda parlamentlərimizin beynəlxalq səviyyədə əməkdaşlığının xüsusilə aktual olduğunu qeyd edib.

Səmimi görüş üçün təşəkkürünü bildirən Mixeil Kavelaşvili Gürcüstan Prezidenti kimi ilk xarici səfərini Azərbaycana etməsinin önəmini vurğulayıb. O, Prezident İlham Əliyevlə bu gün keçirdiyi görüşlər barədə təəssüratlarını bölüşüb. Bildirib ki, bu görüşlər qarşılıqlı əlaqələrin daha da dərinləşdirilməsi baxımından faydalı idi. Prezident Mixeil Kavelaşvili Gürcüstan-Azərbaycan əlaqələrinin və strateji tərəfdaşlığının digər ölkələrə nümunə olduğunu diqqətə çatdırıb.

İki ölkənin parlamentlərarası əlaqələrinin də yüksək səviyyədə olduğunu deyən Gürcüstan Prezidenti bu baxımdan qarşılıqlı səfərlərin rolunu qeyd edib.

Görüşdə iki ölkənin gəncləri arasında əlaqələrin gücləndirilməsinin gələcəyimiz üçün böyük önəm daşıdığı diqqətə çatdırılıb.

Prezident Mixeil Kavelaşvili Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin mətni üzrə razılaşmanın əldə olunmasını alqışladıqlarını və tezliklə sülh müqaviləsinin imzalanacağına inandıqlarını diqqətə çatdırıb. O bildirib ki, sülh müqaviləsinin imzalanması regionda sabitliyi təmin edəcək.

Cənubi Qafqaz regionunun böyük potensialının olduğunu vurğulayan Gürcüstan dövlətinin başçısı bu potensialdan səmərəli istifadə edilməsinin vacibliyini söyləyib.

Görüşdə digər mövzular barədə də fikir mübadiləsi aparılıb.

# Gürcüstan Prezidentinin Azərbaycana rəsmi səfəri başa çatıb



**Gürcüstan Prezidenti Mixeil Kavelaşvilinin Azərbaycan Respublikasına rəsmi səfəri aprelin 16-da başa çatıb.**

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Gürcüstan Prezidenti Mixeil Kavelaşvilini hava limanında Azərbaycan Respublikasının Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev və digər rəsmi şəxslər yola saldılar.

***AZƏRTAC***

# Türkiyə parlament heyəti ölkəmizdə

**Aprelin 16-da Milli Məclis sədrinin müavini Ziyafət Əsgərov ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin Milli müdafiə komitəsinin sədri Hulusi Akarın başçılıq etdiyi parlament nümayəndə heyəti ilə görüşüb.**



Ziyafət Əsgərov bildirib ki, bu gün Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər qardaşlığın və dostluğun ən yüksək zirvəsidir və dövlət başçılarımızın imzaladığı Şuşa Bəyannaməsi bu müttəfiqliyimizin hüquqi çərçivəsini təşkil edir. Müstəqil siyasət yürüdən Türkiyəyə və Azərbaycana təzyiqlər var və bu təzyiqləri dəf etmək üçün səylərimizi birləşdirməli, daha güclü olmalıyıq.

Hulusi Akar Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin səmimiyyətə və qardaşlığa əsaslandığını deyərək, Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın dostluğu sayəsində əməkdaşlığımızın bundan sonra daha da inkişaf edəcəyini bildirib.

Hulusi Akar Prezident İlham Əliyevin Şimali Kipr Türk Cümhuriyyəti ilə bağlı mövqeyini çox yüksək qiymətləndirdiklərini vurğulayıb.

***XQ***

# Sloveniya heyətinin Ulu öndərin və şəhidlərin xatirəsinə ehtiramı



**Ölkəmizdə səfərdə olan Sloveniya parlamentinin Sloveniya–Azərbaycan dostluq qrupunun rəhbəri Bojan Çebelanın başçılıq etdiyi nümayəndə heyəti Fəxri xiyabana gələrək Ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyub.**

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.

Qonaqlar Şəhidlər xiyabanını da ziyarət edib, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarları üzərinə tər çiçəklər düzüb, xatirələrini ehtiramla anıblar.

# Sloveniya parlamentariləri ilə əməkdaşlıq müzakirəsi

**Milli Məclisin sədri Sahibə Qafarova Sloveniya–Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Boyan Çebelanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Görüşdə ölkəmizin Sloveniya ilə dostluq, qarşılıqlı hörmət və faydalı əməkdaşlığa əsaslanan ikitərəfli və çoxtərəfli münasibətlərin inkişafına önəm verdiyi diqqətə çatdırılaraq, tərəflər arasında müxtəlif sahələrdə əlaqələrin daha da inkişaf etdirilməsi üçün yaxşı perspektivlər olduğu bildirilib.

Söhbət zamanı ikitərəfli əlaqələrin inkişafında parlamentlərin qarşılıqlı fəaliyyətinin mühüm amillərdən biri olduğu vurğulanaraq, parlament sədrlərinin və deputatların qarşılıqlı səfərlərinin parlamentlərarası əməkdaşlığın inkişafı baxımından əhəmiyyəti qeyd olunub.

Sahibə Qafarova parlamentlərarası əlaqələrin inkişafında dostluq qruplarının oynadığı mühüm rolu qeyd edib. Onun sözlərinə görə, dostluq qrupları müntəzəm təmaslar, dialoqlar və fikir mübadiləsi ilə parlamentlər arasında körpü rolunu oynayırlar.

Parlamentlərarası dostluq qrupunun rəhbəri Boyan Çebela Sloveniya parlamentinin sədri Urşka Klakoçar-Zupançiçin salamlarını Milli Məclisin sədrinə çatdıraraq, ölkəmizə səfəri ilə bağlı xoş təəssüratlarını bölüşüb. Boyan Çebela parlamentlərimiz arasında əməkdaşlığın daha da gücləndirilməsinin vacibliyi ilə bağlı fikirlərini ifadə edib.

Görüşdə qeyd olunub ki, Sloveniya xalqı bu ölkənin faşizmdən azad edilməsi uğrunda döyüşlərdə qəhrəmancasına həlak olmuş Mehdi Hüseynzadə-Mixaylonun xatirəsini ehtiramla yad edir. Vurğulanıb ki, bu, xalqlarımız arasında dostluğun təzahürüdür.

***XQ***

# Azərbaycan–Çin Ticarət-İqtisadi Komissiyasının 10-cu iclası



**Aprelin 16-da Bakıda Azərbaycan–Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının 10-cu iclası keçirilib. İclasa Azərbaycan Respublikasının Baş nazirinin müavini, Komissiyanın həmsədri Şahin Mustafayev və Çin Xalq Respublikasının kommersiya nazirinin müavini, Çinin ticarət üzrə beynəlxalq nümayəndəsi Lin Ci sədrlik ediblər.**

Nazirlər Kabinetindən verilən məlumata görə, Baş nazirin müavini Şahin Mustafayev iclası açaraq bildirib ki, Hökumətlərarası Komissiya çərçivəsində aparılan danışıqlar dövlətlərimizin başçılarının verdikləri tapşırıqların icrasını müzakirə etmək, həmçinin Azərbaycan ilə Çin arasında münasibətlərin inkişafına dair yaxın perspektivləri müəyyənləşdirmək üçün mühüm platforma rolunu oynayır.

Vurğulanıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri cənab Si Cinpinin səyləri nəticəsində iki ölkə arasında dövlətlərarası münasibətlər dinamik və hərtərəfli inkişaf mərhələsinə qədəm qoyub. Ölkə başçıları arasında qarşılıqlı etimada əsaslanan şəxsi münasibətlər və mütəmadi təmaslar bu inkişafın əsas hərəkətverici qüvvələrindən biridir.

Qeyd olunub ki, ötən il Azərbaycan və Çin arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi tarixi hadisədir. Dövlətlərimizin başçılarının imzaladıqları Birgə Bəyannamə ölkələrimiz arasında əməkdaşlığın daha da genişlənməsi üçün möhkəm zəmin formalaşdırır.

Ticarət-iqtisadi sahədəki əməkdaşlığın davamlı şəkildə inkişaf etdiyi, Çinin Azərbaycanın əsas iqtisadi və ticarət tərəfdaşlarından biri olduğu xüsusi vurğulanıb. Eyni zamanda, Azərbaycanın da Cənubi Qafqazda Çinin ən böyük ticarət tərəfdaşı olduğu qeyd edilib. İki ölkə arasında ticarət dövriyyəsinin artım meyili ötən il 21 faiz (3,7 milyard dollar) təşkil edib. Bu ilin ilk üç ayı üzrə də müsbət dinamika qorunaraq qarşılıqlı ticarət həcmi 37 faizdən (1,02 milyard dollar) artıq yüksəlib. Azərbaycan xüsusilə kənd təsərrüfatı və qida məhsullarının Çinə ixracını genişləndirməkdə maraqlı olduğunu bir daha bəyan edib.

Sənaye, neft-qaz, neft-kimya, yaşıl energetika, yüksək texnologiyalar, innovasiyalar və kosmik sahələrdə investisiya əməkdaşlığında müşahidə olunan müsbət dinamika da diqqətə çatdırılıb. Bildirilib ki, Çindən Azərbaycana yönələn investisiyaların həcmi 942 milyon ABŞ dollarına çatıb. Eyni zamanda, Dövlət Neft Fondunun da daxil olduğu Azərbaycan sərmayələrinin Çinə yatırılan ümumi həcmi təqribən 2,1 milyard ABŞ dollarına yüksəlib.

Bundan əlavə, Azərbaycan Prezidentinin Çinə qarşıdakı səfəri çərçivəsində ölkəmizdə BYD şirkəti ilə birlikdə elektrik avtobuslarının istehsalının lokallaşdırılması layihəsinə start veriləcək.

İki ölkə arasında "yaşıl" enerji sahəsində əməkdaşlıq strateji prioritet təşkil edir. Baş nazirin müavini Şahin Mustafayev qeyd edib ki, Azərbaycan bu sahədə böyük potensiala, Çin geniş texnoloji resurslara və zəngin təcrübəyə malikdir. Hesab edirik ki, birgə səylər bu istiqamətdə uğurlu əməkdaşlığın qarantı olacaq.

Baş nazirin müavini Şahin Mustafayev bildirib ki, nəqliyyat və tranzit sahəsində də əməkdaşlıq uğurla inkişaf edir. Vurğulanıb ki, 2024-cü ildə Azərbaycan və Çin arasında tranzit daşımalarının həcmi 86 faiz (378 min ton) artıb. Azərbaycanda nəqliyyat infrastrukturunun inkişafı və tranzit potensialının artırılması məqsədilə həyata keçirilən genişmiqyaslı layihələrdən – Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı–Tbilisi–Qars dəmir yolu xətti və digər nəqliyyat dəhlizlərindən bəhs olunub. Bu layihələr Çindən Avropaya və əks istiqamətə ən qısa və səmərəli marşrutu təşkil edir.

Müzakirələr nəticəsində İnvestisiya əməkdaşlığı üzrə İşçi Qrupun yaradılması qərara alınıb. Bu qurum investisiya sahəsindəki məsələlərin daim diqqətdə saxlanılması üçün mühüm platforma olacaq.

İclasın yekununda Birgə İnvestisiya Əməkdaşlığı üzrə İşçi Qrupun yaradılması haqqında Anlaşma Memorandumunu və Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının 10-cu iclasının Protokolu imzalanıb.

***XQ***

# Azərbaycan və Gürcüstan Avrasiyanın enerji və nəqliyyat xəritəsini dəyişdirir

**Azərbaycan–Gürcüstan arasında son illər iqtisadi sahədə də yüksək əməkdaşlıq müşahidə edilir. Azərbaycanın öz enerji resurslarını Avropa bazarlarına çatdırmasında, eyni zamanda, Şərqdən Qərbə gedən yüklərin daşınmasında Gürcüstan mühüm tranzit rolu oynayır.**

Respublikamız dost ölkə iqtisadiyyatına investisiya qoyuluşuna da xüsusi diqqət yetirir. Mərkəzi Bankın məlumatına əsasən, Azərbaycanın ötən il Gürcüstan iqtisadiyyatına 165 milyon ABŞ dolları (2023-cü ildəki göstərici ilə müqayisədə 77,8 milyon dollar və ya 1,9 dəfə çox) sərmayə qoyması da bunun bariz ifadəsidir. Bu, həm də onu göstərir ki, hökumətimizin uğurlu iqtisadi siyasəti, investisiyaların cəlb edilməsi, Gürcüstanda olan çox müsbət sərmayə iqlimi bütün investorları həvəsləndirir. O cümlədən Azərbaycan investorları da böyük həvəslə Gürcüstana öz sərmayələrini yatırır.

Qeyd edək ki, iki ölkənin enerji və nəqliyyat-logistika sahələrində birgə reallaşdırdığı nəhəng layihələr nəinki ikitərəfli əməkdaşlığın inkişafına xidmət edir, hətta regiondan kənar qlobal enerji təhlükəsizliyi, eləcə də qitələrarası nəqliyyat bağlantılarında müstəsna rol oynayır. Məsələn, Bakı–Tbilisi–Ceyhan neft boru xətti və Cənub Qaz Dəhlizi kimi mühüm enerji layihələri Avropanın enerji təhlükəsizliyinə töhfə verir, Bakı–Tbilisi–Qars dəmiryolu isə Şərq və Qərb arasında qısa, səmərəli alternativ bağlantı yaradır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə ölkəmizdə rəsmi səfərdə olan Gürcüstanın Prezidenti Mixeil Kavelaşvilinin aprelin 16-da mətbuata bəyanatlarla çıxışlarında da bu uğurlu əməkdaşlıq dərindən təhlili diqqət çəkdi. Dövlətimizin başçısı iki ölkə arasında münasibətlərin yüksək səviyyədə olduğunu, Gürcüstan və Azərbaycanın bir çox önəmli layihələri birgə gerçəkləşdirdiklərini və bu layihələrin həm ölkələrimiz, xalqlarımız, həm də daha geniş coğrafiya üçün böyük önəm daşıdığını vurğuladı.

Prezident İlham Əliyev daha sonra dedi: "Bizi birləşdirən bir çox sərmayə layihələri, qeyd etdiyim kimi, böyük coğrafiya üçün önəmlidir. Azərbaycanın və Gürcüstanın birgə həyata keçirdiyi neft-qaz layihələri, neft-qaz kəmərləri, nəqliyyat, kommunikasiya layihələri, sözün əsl mənasında, böyük əhəmiyyət daşıyan layihələrdir və nəinki Cənubi Qafqazın, Avrasiya regionunun nəqliyyat və enerji xəritəsini yenidən tərtib edən layihələrdir. Əgər biz bu gün Avropanın enerji təhlükəsizliyi haqqında danışırıqsa, bunu Azərbaycansız, Gürcüstansız təsəvvür etmək mümkün deyil".

Dövlətimizin başçısı bəyanatında hazırda Gürcüstan da daxil olmaqla Azərbaycanın 12 ölkəyə təbii qaz ixrac etdiyini və bu ixracın Gürcüstan vasitəsilə həyata keçirildiyini vurğulayıb, eyni zamanda, nəqliyyat-kommunikasiya sahəsində əldə olunmuş nailiyyətlərin, yeni inşa edilmiş dəmir yolları və limanların həm Azərbaycanda, həm də Gürcüstanda böyük sinergiya yaratdığını və əslində, Orta Dəhlizin ayrılmaz hissəsinə çevrildiyini diqqətə çatdırıb.

Hazırda Azərbaycan Gürcüstanla birlikdə "yaşıl" enerji layihələrini uğurla həyata keçirir. Bu istiqamətdə reallaşdırılan layihələrdən biri – "Azərbaycan–Gürcüstan–Türkiyə–Bolqarıstan Yaşıl Enerji Dəhlizi" haqqında bəzi məqamlara toxunmaq istərdik. Belə ki, cari il aprelin 4-də Bakıda Cənub Qaz Dəhlizi və Yaşıl Enerji Məşvərət şuraları çərçivəsində "Azərbaycan–Gürcüstan–Türkiyə–Bolqarıstan Yaşıl Enerji Dəhlizi" layihəsi üzrə keçirilən nazirlərin 2-ci iclasında bu layihə üzrə Anlaşma Memorandumu imzalanıb.



İclasda enerji təhlükəsizliyinin təmin olunmasında regionlararası "yaşıl" enerji infrastrukturunun qurulmasının vacibliyi və Azərbaycanın zəngin bərpaolunan enerji resurslarının nəqli sahəsində geniş əməkdaşlığı təşviq edən layihələrin rolu vurğulanıb. Eyni zamanda, yeni "yaşıl" interkonnektorun əhəmiyyəti və layihənin həyata keçirilməsi istiqamətində atılacaq addımlar müzakirə edilib.

Beləliklə, bu sənəd imzalanmaqla mənbəyi Azərbaycan olan daha bir "yaşıl" enerji dəhlizinin yaradılmasına başlanıldığı elan edilib. Eyni zamanda, Azərbaycanın zəngin "yaşıl" enerji potensialı, iddialı layihələri, enerji ixracı infrastrukturunun yaradılması və ölkələrimiz arasında enerji təchizatı üzrə əməkdaşlıq təcrübəsi bu dördtərəfli təşəbbüsün gələcək uğuru üçün möhkəm təməl yaradıb.

Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf nazirinin müavini Vaxtanq Tsintsadzenin sözlərinə görə, bu gün Azərbaycan, Bolqarıstan, Gürcüstan və Türkiyə respublikaları arasında imzalanan Anlaşma Memorandumu transsərhəd elektrik infrastrukturu sahəsində əməkdaşlığın genişləndirilməsi üçün zəmin yaradır. Dörd ölkə birlikdə çalışaraq enerji təhlükəsizliyini yaxşılaşdırmaq, bərpa olunan enerjidən istifadəni artırmaq və növbəti nəsillər üçün daha təmiz və davamlı gələcək yaratmaq istiqamətlərində əhəmiyyətli irəliləyişlər əldə edir.

Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar qeyd edib ki, transsərhəd elektrik enerjisi birləşmələri texniki, iqtisadi və strateji cəhətdən çox vacibdir. Bu təşəbbüs regionumuza enerji təhlükəsizliyinin artırılmasından infrastrukturun daha səmərəli istifadəsinə, eləcə də iqtisadi faydadan dayanıqlılığa kimi bir sıra strateji faydalar gətirəcək. Lakin bu təkcə başlanğıcdır. Gələcəkdə isə icra, tənzimləyici bazanın uyğunlaşdırılması və bazarın sinxronlaşdırılması sahələrində sıx əməkdaşlığa ehtiyac olacaq.

Bolqarıstanın energetika naziri Jeço Stankov isə diqqətə çatdırıb ki, enerji sektorunun transformasiyası etibarlı, təmiz və əlverişli enerji təchizatı tələb edən iqtisadi dəyişikliklərin bir hissəsidir. Bunlar ümumi çağırışlardır, lakin güclü və etibarlı əməkdaşlıq və tərəfdaşlıqlara əsaslanan həllər tapılmalıdır.

Xatırladaq ki, yuxarıda adıçəkilən ənəd 4 ölkə arasında "yaşıl" elektrik enerjisinin ötürülməsi və ticarəti potensialının artırılması məqsədilə birgə investisiya layihələrinin hazırlanması, elektrik enerjisi infrastrukturunun inkişafı, o cümlədən "ENTSO-E" sisteminə inteqrasiya prosesi üzrə əməkdaşlığı ehtiva edir.

Orta Dəhliz kimi tanınan Trans–Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun inkişafının hər iki ölkə tərəfindən diqqətdə saxlanılması məsələsinə gəldikdə isə onu deyə bilərik ki, sözügedən dəhliz Çin ilə Avropa ölkələrini Qazaxıstan, Xəzər dənizi akvatoriyası, Azərbaycan, Gürcüstan və Türkiyə vasitəsilə birləşdirir. Son illərdə Orta Dəhliz üzrə yükdaşımaların həcmi 8 dəfə artıb. Əgər 2021-ci ildə daşınan yüklərin həcmi 560 min ton idisə, 2024-cü ildə bu rəqəm 4,5 milyon tona çatıb. Bu il üçün proqnoz 4,9 milyon ton, 2029-cu ilə qədər isə yükdaşımaların 10 milyon tona çatacağı gözlənilir.

***VB AYRAMOV***
***XQ***

# Böyük coğrafiya üçün önəmli əməkdaşlıq

**"Gürcüstan Prezidenti Mixeil Kavelaşvili ilk xarici səfərinə Azərbaycandan başlayıb. Məlum olduğu kimi, Azərbaycan Gürcüstanın strateji tərəfdaşı və dost ölkədir. Məhz ilk səfərin Azərbaycana reallaşması son dərəcə əhəmiyyətlidir. Səfər çərçivəsində Azərbaycan Prezidenti cənab İlham Əliyev və Baş nazir Əli Əsədovla yüksək səviyyəli görüşlər keçirib. Görüşlər zamanı ikitərəfli əməkdaşlıq, eləcə də iki ölkə arasında həyata keçirilən mühüm iqtisadi layihələr, xüsusilə bərpa olunan enerji və digər irimiqyaslı layihələr müzakirə olunub.**



Düşünürəm ki, prezidentin səfəri ölkələr arasında münasibətlərin möhkəmlənməsinə kömək edəcək". Bu barədə Gürcüstanın Azərbaycandakı səfiri Zurab Pataradze bildirib. Onun sözlərinə görə, regional təhlükəsizlik, o cümlədən mədəni-humanitar istiqamətlər də nəzərdən keçirilib. Səfir bildirib ki, Tbilisi Cənubi Qafqazda sabitlik və sülhün tərəfdarıdır: "Bu, regionu investorlar üçün daha cəlbedici edir".

Gürcüstan Prezidenti də iki ölkə arasında müxtəlif sahələrdə, o cümlədən infrastruktur layihələrinin həyata keçirilməsində əməkdaşlığa önəm verir. Dövlət başçısı mətbuata açıqlamalarında dəfələrlə qeyd edib ki, Orta dəhlizin Azərbaycanla birgə inkişafı vacibdir. Mixeil Kavelaşvilinin sözlərinə görə, Bakı Tbilisinin əsas investorlarından biridir: "Dostluq münasibətlərimizə əsaslanaraq, bizi iqtisadi və qarşılıqlı faydalı məsələlər maraqlandırır. Dünyada hər kəsin bildiyi Orta dəhliz regionun inkişafı üçün böyük imkanlar açır".

Bəli, Orta dəhliz layihəsi böyük perspektivlər vəd edən bir infrastrukturdur. Son zamanlarda ABŞ-ın Çinlə iqtisadi rəqabətinin genişlənməsi ilə onun əhəmiyyəti daha da artır. İki ölkənin Avropa və Asiya arasında strateji tranzit qovşağı kimi mövqeyini möhkəmləndirir. Eyni zamanda, Xəzər dənisi sahilində Ələt, Qara dəniz sahilində isə Anakliada kimi dəniz infrastrukturunun yaradılmasına səbəb olur. Bu limanlar Orta dəhliz boyu yük daşımalarını daha səmərəli edəcək. Azərbaycanın beynəlxalq daşımalar sahəsində strateji əhəmiyyətini daha da artıracaq.

Onu da qeyd edək ki, bu infrastruktur hər iki ölkənin iqtisadi təhlükəsizliyi və potensialının tam reallaşdırılması baxımından da böyük əhəmiyyət kəsb edir. Əlbəttə, Gürcüstan və Azərbaycanın ikitərəfli qaydada fəal əməkdaşlıq etdiyi birgə layihələrə Bakı–Tbilisi–Qars dəmir yolu və Cənub Qaz Dəhlizi da daxildir. Azərbaycan qazına Avropada tələbat var və bu tələbat hər il artır. Bu səbəbdən də Azərbaycanın qaz sənayesinin inkişafı, Qərbin enerji təhlükəsizliyi üçün vacibdir. Avropanın enerji təhlükəsizliyi isə Azərbaycansız, Gürcüstansız təsəvvür etmək mümkün deyil.

Yada salaq ki, Avropaya qazı çatdıran Cənub Qaz Dəhlizi Gürcüstandan keçir və iki qonşu dövlətin əməkdaşlığının inkişafına xidmət edir.

Hazırda Azərbaycan "yaşıl" enerji sahəsində də Gürcüstanla əməkdaşlığı inkişaf etdirir. Avropa İttifaqında "yaşıl" enerjiyə böyük sərmayələrin yatırılmasına baxmayaraq, yenə də orda elektrik enerjisi çatışmır. Bu səbəbdən, ölkəmizdən elektrik enerjisi idxal etmək istəyirlər. Azərbaycan gələcəkdə Gürcüstandan keçməklə Qara dənizin dibi ilə Rumıniyaya elektrik enerjisi ixrac edəcək.

Xatırladaq ki, 2022-ci ilin dekabrında "Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Bu, Qara dəniz regionunun yaşıl enerji dəhlizi kimi yaradılmasında dönüş nöqtəsi oldu. Kabel Azərbaycanda istehsal olunan yaşıl elektrik enerjisini Gürcüstan və Qara dəniz vasitəsilə Rumıniyaya çatdırmağa, daha sonra Macarıstana və Avropanın qalan hissəsinə nəql etmək üçün nəzərdə tutulub.

Layihə kommersiya baxımından əlverişlidir və Mərkəzi Avropaya enerji idxalının şaxələndirilməsinə kömək edir. Eyni zamanda, Azərbaycanın iqtisadi diversifikasiyasını dəstəkləyir, istixana qazları emissiyalarının azalmasına və regional əməkdaşlığın gücləndirilməsinə səbəb olacaq. Həm də Azərbaycan və Gürcüstanın geosiyasi arenada nüfuzunu artıracaq. Ölkəmizin enerji resurslarının şaxələndirilməsinə və ənənəvi enerji mənbələrindən asılılığın azalmasına gətirib çıxaracaq.

**Gürcüstan parlamentinin sabiq deputatı Ramiz Bəkirov** bildirdi ki, Mixeil Kavelaşvilinin Bakıya səfəri ölkələrimiz arasında yüksək səviyyədə olan əlaqələrin inkişafına və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın gücləndirilməsinə töhfə verəcək: "Azərbaycan və Gürcüstan arasındakı strateji tərəfdaşlıq regionda sabitlik, inkişaf və təhlükəsizliyin təmin olunmasında həlledici rol oynayır. İki dövlət arasında siyasi, iqtisadi, enerji və nəqliyyat sahələrində əməkdaşlıq uğurla davam edir. Bu əlaqələr həm regional, həm də qlobal səviyyədə tərəflərin maraqlarına uyğun olaraq qarşılıqlı fayda prinsipi üzərində qurulub. İki dövlətin birgə həyata keçirdiyi layihələr yalnız bu gün deyil, gələcək nəsillər üçün də fayda verəcəyinə inanıram.



Bu gün SOCAR-ın Gürcüstanda ali təhsil alan yerli azərbaycanlı tələbələrə göstərdiyi dəstəyi də yüksək qiymətləndirirəm. Təqribən, 2 min tələbə təqaüd alır. İnanıram ki, gələcəkdə bu dəstək davam etdiriləcək və proqram daha da təkmilləşdiriləcək.

Bununla yanaşı, Gürcüstanda yaşayan azərbaycanlılar Azərbaycanın dəstəyini hər zaman hiss edirlər. Gürcüstanda yaşayan azərbaycanlıların məskunlaşdığı Kvemo Kartli və Kaxeti bölgələrində sosial layihələr həyata keçirilir. İki ölkənin birgə həyata keçirdiyi layihələrdə yerli azərbaycanlılar işlə təmin edilir. Bundan sonra da bizim əlaqələrimiz yüksələn xətlə inkişaf edəcək. İnanıram ki, Azərbaycan–Gürcüstan dostluğu, strateji tərəfdaşlığı davam edəcək".

**Gürcüstan Parlamentinin deputatı David Şerazadişvili** isə qeyd etdi



ki, ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlıq davam edir: "Mən çoxmillətli əhalisi olan regiondan parlamentə seçilmişəm. Müxtəlifliyimiz bizim sərvətimizdir. Burada müxtəlif dinlərin və millətlərin nümayəndələri əsrlərdir ki, bir yerdə dinc və mehriban yaşayırlar. Biz bir-birimizin mədəniyyətinə, adət-ənənələrinə hörmət edirik, bayramları birlikdə qeyd edirik. Biz daha yaxşı bir ölkə yaratmaq üçün birlikdə çalışırıq və əminəm ki, gələcəkdə də belə olacaq".

Deputat daha sonra bildirdi ki, regionda əhalinin əsas hissəsini azərbaycanlar təşkil edir: "Onların arasında dostlarım çoxdur. Mənim hər bir bələdiyyə ilə şəxsi və işgüzar əlaqələrim var. Bəli, bizim belə dostluq münasibətlərimiz var və eynilə bu cür dostluğu digərlərindən də gözləyirik və bunu təqdir edirik. Sevinirəm ki, azərbaycanlılar cəmiyyətə inteqrasiya olunub, Gürcüstanın həyatında fəal iştirak edirlər. Bunun kökündə də Azərbaycan və Gürcüstan dostluğu dayanır. İki ölkə arasında strateji tərəfdaşlıq məhz buna əsaslanır. Bir tərəfdən bir-birimizin suverenliyinə, digər tərəfdən də xalqlarımızın mənafeyi naminə bir-birimizə hörmət edirik. Bunun nəticəsidir ki, Bakı və Tbilisi beynəlxalq arenada hər iki tərəfin maraqlarını nəzərə alır, iqtisadi sahədə əməkdaşlığı genişləndirirlər.

Bir məsələyə də toxunmaq istərdim. Biz illərdir kənd əhalisinin gündəlik yaşayış şəraitini yaxşılaşdırmaq üçün çalışırıq və bu məqsədlə kəndlərdə infrastruktur layihələri həyata keçirirk. Azərbaycan tərəfi bir neçə məktəbin təmir-bərpa işində yaxından iştirak edib. Tələbələr var ki, onların təhsil haqqı SOCAR tərəfindən ödənilir. Bunun nəticəsidir ki, regionda azərbaycanlı savadlı mütəxəssislərin sayı xeyli artıb. Onlar müxtəlif sahələrdə işləyir, Gürcüstanın inkişafına öz töhfələrini verirlər.

Təkcə millət vəkili kimi deyil, həm də bölgəni, ölkəsini sevən vətəndaş kimi deyirəm ki, biz birlikdə bütün gənclərin və gələcək nəsillərin normal yaşayacağı və öz potensiallarını tam reallaşdıracağı bir bölgəni yaradacağıq".

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Gürcüstan–Azərbaycan əməkdaşlığı yüksələn xətlə inkişaf edir

(əvvəli 1-ci səhifədə)

### Azərbaycanın regional lider rolu yüksəlir

Birmənalı olaraq deyə bilərik ki, Gürcüstanın 6-cı Prezidentinin ilk səfəri Azərbaycanın regional lider rolunu bir daha təsdiqləmiş oldu. Gürcüstanın bu platformada etibarlı tərəfdaş olduğunu zaman özü sübuta yetirib. Prezidentlərin ikitərəfli görüşündə enerji təhlükəsizliyi, nəqliyyat bağlantıları, ticarət dövriyyəsinin artırılması və Cənubi Qafqazın gələcəyinə dair regional dialoq məsələləri gündəmdə olub. Əldə edilən razılaşmalar onu göstərdi ki, Tbilisi ilə Bakı arasında əlaqələrin daha da inkişaf etdirilməsi üçün siyasi iradə tam formalaşıb və gələcək üçün də aydın yol xəritəsi mövcuddur.

Beləliklə, Gürcüstan Prezidentinin ilk səfərinin Bakıya yönəlməsi diplomatik protokolun incə, eyni zamanda, güclü mesaj daşıyan elementi sayılmalıdır. Bu səfər təkcə iki ölkə arasında mövcud strateji münasibətlərin təsdiqi deyil, həm də Azərbaycanın Cənubi Qafqazın indiki və gələcək taleyində oynadığı liderlik rolunun qəbul olunmuş aksiomluğunu göstərən siyasi etirafdır.

Prezident Mixeil Kavelaşvilinin Bakıya rəsmi səfərini xarakterizə edən digər önəmli məqam Gürcüstanın Ermənistan–Azərbaycan normallaşma prosesinin fonunda oynaya biləcəyi vasitəçi rolunun gündəmə gətirilməsidir. Gürcüstan rəhbərliyi dəfələrlə bəyan edib ki, regionda sabitlik və əməkdaşlıq onun da maraqlarına tam cavab verir. Azərbaycanın Gürcüstan vasitəsilə Qara dənizə çıxış imkanlarının daha da genişlənməsi gündəmdə duran məsələdir. Bu isə logistik zəncirin daha da möhkəmləndirilməsi, eləcə də alternativ marşrutların gücləndirilməsi baxımından böyük əhəmiyyətə malikdir.

### İkitərəfli əməkdaşlığın sərhədləri genişlənir

Yaxın keçmişə boylanaraq qeyd etməliyik ki, Azərbaycan və Gürcüstan arasında münasibətlərin əsası hələ 1990-cı illərdə, müstəqilliyin ilk illərində qoyulub. Bu münasibətlər tədricən siyasi, iqtisadi, enerji və nəqliyyat sahələrində strateji tərəfdaşlığa çevrilib. Bu gün hər iki ölkənin maraqları təkcə ikitərəfli əlaqələrlə məhdudlaşmır, həm də regional və qlobal layihələrdə birgə iştirakla daha da dərinləşir. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, eləcə də Bakı–Tbilisi–Qars kimi nəqliyyat və enerji layihələri bu baxımdan strateji mahiyyət daşıyır.

Təbii ki, ikitərəfli münasibətlərdə insani təmaslar, mədəni əlaqələr də az rol oynamır. Hər iki ölkədə bir-birinin diasporları mövcuddur və onlar mehriban qonşuluq, dostluq münasibətlərinin cəmiyyətə sirayət etməsində ciddi fəaliyyət göstərirlər. Xüsusilə təhsil, turizm və media sahələrində əməkdaşlıq qarşıdakı illər üçün geniş perspektivlərdən xəbər verir.

Bunu əminliklə deyə bilərik ki, Azərbaycan–Gürcüstan münasibətləri artıq klassik qonşuluq siyasəti çərçivəsindən çıxaraq, qarşılıqlı etimada əsaslanan strateji tərəfdaşlıq modelinə çevrilib. Bu model isə yalnız iki ölkənin deyil, bütün bölgənin rifahına və sabitliyinə töhfələr verir.



### Ekspert rəyi

**Şəbnəm ZEYNALOVA,**
**siyasi elmlər üzrə fəlsəfə doktoru**



– Gürcüstan Prezidentinin ilk rəsmi xarici səfərini Azərbaycana etməsi diplomatik protokol baxımından xüsusi əhəmiyyət daşıyır. Dövlət başçılarının ilk səfərləri yalnız rəsmi görüşlərdən ibarət olmur. Bu, həm də siyasi prioritetlərin, strateji orientasiyanın və regional baxışın nümayişidir. Diplomatiyada belə səfərlər həm siyasi jest, həm də gələcək əməkdaşlığın konturlarını cızan siqnallar kimi qəbul edilir. Gürcüstan liderinin ilk səfəri üçün məhz Azərbaycanı seçməsi Bakı ilə Tbilisi arasında strateji tərəfdaşlığın və yeni mərhələnin başlanğıcını ifadə edir.

Diplomatik protokolda ilk səfərin seçimi əslində, dövlətin xarici siyasət strategiyasının kodlaşdırılmış mesajıdır. Gürcüstan Prezidentinin Azərbaycana səfəri də bir sıra strateji və siyasi önəmi olan nüansları ön plana çıxarır: ilk növbədə, Tbilisinin regionda sabitlik və inkişafın aparıcı ünvanı kimi Bakıya inamı; ikincisi, Azərbaycanla münasibətlərin strateji tərəfdaşlıq səviyyəsində təsdiqi; və nəhayət, Cənubi Qafqazda dəyişən güc balansı fonunda Azərbaycanın artan rolunun siyasi tanınması.

İkinci Qarabağ müharibəsindən sonra regionda formalaşan yeni reallıqda Azərbaycan təkcə ərazi bütövlüyünü bərpa etmədi, eyni zamanda, diplomatik və iqtisadi təşəbbüslərlə regionun konturlarını yenidən formalaşdıran ölkəyə çevrildi. Azərbaycanın nəqliyyat və enerji layihələri artıq regional deyil, qlobal ölçüdə strateji əhəmiyyət daşıyır. Gürcüstan da bu sistemdə mühüm halqa kimi çıxış edir. Gürcüstan Prezidentinin Bakıya ilk səfəri bu inteqrasiyanın davamlılığını və qarşılıqlı asılılığın siyasi dəyərini vurğulayır.

Eyni zamanda, bu səfər Azərbaycanın artan "yumşaq güc" potensialının tanınması baxımından da əlamətdardır. Multikulturalizm modeli, qlobal tədbirlərə evsahibliyi (xüsusilə COP29), regional diplomatik təşəbbüslər və "yaşıl" enerji gündəliyi Azərbaycanın siyasi cazibə mərkəzinə çevrildiyini göstərir.

### Avropanın enerji təhlükəsizliyi Azərbaycan və Gürcüstandan keçir

İkitərəfli görüşdən sonra prezidentlər mətbuata birgə bəyanatlarla çıxış etdilər. Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstanla siyasi əlaqələrin inkişafını, yüksəksəviyyəli təmasların müntəzəm xarakter daşıdığını, dialoqun fəallaşdığını nəzərə çatdırdı. Çıxışında "İki dost, qardaş ölkə, sözün əsl mənasında, bir-birinə çox bağlıdır və beynəlxalq təşkilatlarda da daim bir-birini dəstəkləyir. Bizi birləşdirən bir çox sərmayə layihələri qeyd etdiyim kimi, böyük coğrafiya üçün önəmlidir" – deyə vurğulayan dövlətimizin başçısı Azərbaycan və Gürcüstanın birgə həyata keçirdikləri neft-qaz kəmərləri, nəqliyyat, kommunikasiya qovşaqlarının böyük əhəmiyyət daşıyan layihələr olduğunu və bunları nəinki Cənubi Qafqazın, Avrasiya regionunun nəqliyyat və enerji xəritəsini yenidən tərtib edən layihələr kimi səciyyələndirdi. "Əgər biz bu gün Avropanın enerji təhlükəsizliyi haqqında danışırıqsa, bunu Azərbaycansız, Gürcüstansız təsəvvür etmək mümkün deyil" – fikrini xüsusi olaraq qeyd edən Prezident İlham Əliyev hazırda Gürcüstan daxil olmaqla, Azərbaycanın 12 ölkəyə təbii qaz ixrac etdiyini və bu ixracın Gürcüstan üzərindən həyata keçirildiyini bildirdi.

Prezidentlərin mətbuata bəyanatlarında Cənubi Qafqazdakı mövcud durum barədə fikir bildirmələri gözlənilən idi. Bölgədə sülhün, əmin-amanlığın bərqərar edilməsinin iki ölkənin birgə marağında olan məsələ kimi vurğulayan İlham Əliyev buna həm Gürcüstan, həm də Azərbaycanın öz töhfəsini verdiklərini diqqətə çatdırdı. "Əfsuslar olsun ki, uzun illər ərzində Cənubi Qafqaz münaqişə, müharibə arenasına çevrilmişdir. Ümid edirəm ki, bundan sonra Cənubi Qafqazın qara səhifələri bağlanacaq və tarixdə qalacaq" – deyən Azərbaycan lideri sözünü bu cür yekunlaşdırdı: "Gürcüstan–Azərbaycan əlaqələri haqqında çox danışmaq olar. Sadəcə, onu bildirmək istəyirəm ki, bundan sonra da bizim əlaqələrimiz yüksələn xətlə inkişaf edəcək".

Dövlət başçımızın birgə əməkdaşlığın perspektivinə əminliyi Gürcüstanla Azərbaycan arasında yüksək templə davam edən əlaqələrin yalnız uğurla müşayiət olunan reallığa söykənir.

### Böyük coğrafiya üçün birgə layihələr

"Təbii olaraq siyasi əlaqələr inkişaf edir, yüksəksəviyyəli təmaslar müntəzəm xarakter daşıyır, siyasi dialoq fəaldır. Yəni iki dost, qardaş ölkə, sözün əsl mənasında, bir-birinə çox bağlıdır və beynəlxalq təşkilatlarda da daim bir-birini dəstəkləyir". Mətbuat üçün açıqlamasında bu fikirləri önə çəkən Azərbaycan Prezidenti İlham Əliyev iki ölkəni birləşdirən bir çox sərmayə layihələrinin böyük coğrafiya üçün önəmli olduğunu bir daha qeyd etdi: "Azərbaycan və Gürcüstanın birgə həyata keçirdiyi neft-qaz layihələri, neft-qaz kəmərləri, nəqliyyat-kommunikasiya layihələri, sözün əsl mənasında, böyük əhəmiyyət daşıyan layihələrdir".

İlham Əliyev daha sonra çıxışında xalqlarımızın əsrlər boyu sülh, mehribanlıq, qardaşlıq şəraitində yaşamasından, dövlətlərarası münasibətlərin yüksək səviyyədə olmasından söz açdı. Bu xüsusda dövlət başçımız qeyd etdi: "Gürcüstan və Azərbaycan birgə bir çox önəmli layihələri icra edirlər və bu layihələr həm ölkələrimiz, xalqlarımız üçün, həm də daha böyük coğrafiya üçün böyük önəm daşıyır".

### Xalqlarımız nəyin daha yaxşı olduğunu özləri bilirlər

İlk xarici səfərini Bakıya etdiyindən məmnunluq duyduğunu bildirən Gürcüstan Prezidenti Mixeil Kavelaşvili jurnalistlər qarşısında çıxışında iki xalq arasında bənzərsiz dostluğun inkişaf edərək əməkdaşlığın gələcəkdə daha da möhkəmlənməsinə etibarlı zəmin yaratdığını xüsusi olaraq vurğuladı: "Milli özünəməxsusluğu qoruyub saxlamaq, adət-ənənələrə, mədəniyyətə, tariximizə hörmət xalqlarımızın xüsusi diqqət yetirdiyi təməl prinsiplərdir".

Son vaxtlar bölgədə cərəyan edən hadisələrə toxunan Gürcüstan Prezidenti ölkəsinin sülhün və münaqişələrin dialoq yolu ilə həllinin tərəfdarı olduğunu bildirdi. Ayrıca onu da qeyd etdi ki, Cənubi Qafqaza regionun beynəlxalq miqyasda təsirini gücləndirmək üçün sülh lazımdır: "Regionun tam potensialı Ermənistan və Azərbaycan arasında sülh sazişinin imzalanmasından sonra üzə çıxa bilər. Yenə də ölkəmin dialoq və diplomatiya tərəfdarı olduğunu təsdiqləyirəm". Azərbaycan və Ermənistan arasında sülh sazişinin yaxın zamanda imzalanacağına ümid etdiyini bildirən Gürcüstan lideri ölkəsinin sülh prosesinə öz töhfəsini verməyə hazır olduğunu bəyan etdi.

Hər iki ölkənin "kollektiv Qərb"in qərəzli münasibəti ilə üzləşdiyini təəssüflə bildirən M. Kavelaşvili xüsusilə son vaxtlar ölkələrimizin dəfələrlə ikili standartların və xarici qüvvələr tərəfindən daxili işlərimizə müdaxilənin obyekti olduğunu da qeyd etdi: "Çoxsaylı səylərə baxmayaraq, biz bu təhdidləri qətiyyətlə aradan qaldırır və regionun təhlükəsizliyini və sabitliyini təmin edirik". Gürcüstan Prezidenti bu həssas məsələyə özünəməxsus tərzdə münasibətini açıqladı: "Hər hansı üçüncü ölkə və ya təşkilatın xalqlarımız üçün nəyin daha yaxşı olduğunu bizdən daha yaxşı bilməsi mümkün deyil. Azərbaycan və Gürcüstan arasında ümumi maraqların qorunması sahəsində əməkdaşlığın intensivləşməsindən məmnunam".

Yazımızın əvvəlində qeyd etdiyimiz kimi, Gürcüstanın yeni Prezidentinin Azərbaycana bu səfəri ilə bağlı verdiyi mesaj çox sadədir. Yəni Bakı bu gün regional siyasətə yön verən, qonşulara, bölgəyə, bütövlükdə, dünyaya sülh, sabitlik və əməkdaşlıq çağırışları edən, sınaqdan çıxmış tərəfdaş kimi etibarlı platforma yaradan bir ölkənin – Azərbaycanın paytaxtıdır. Onun bu bölgədə ən çox güvəndiyi ünvan isə çoxdan qardaşlaşdığı Tbilisidir.

***İmran BƏDİRXANLI***
***XQ***

# Tehranda Azərbaycan–İran konsulluq məsləhətləşməsi



**Tehran şəhərində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və İran İslam Respublikasının Xarici İşlər Nazirliyi arasında növbəti konsulluq məsləhətləşmələri keçirilib.**

Azərbaycan nümayəndə heyətinə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Konsulluq idarəsinin rəisi Emil Səfərov, İran nümayəndə heyətinə isə İran İslam Respublikasının Xarici İşlər Nazirliyinin baş direktoru Moctəba Şəsti Kərimi rəhbərlik edib.

Müzakirədə Azərbaycanın İrandakı səfirliyinin və Təbriz şəhərindəki baş konsulluğunun əməkdaşları, Azərbaycan və İranın xarici siyasət qurumunun rəsmiləri, iki ölkənin Ədliyyə və Daxili İşlər nazirliklərinin, Dövlət Miqrasiya və Sərhəd xidmətlərinin nümayəndələri də iştirak ediblər. Onlar iki ölkə arasında konsulluq sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri barədə fikir mübadiləsi aparıblar.

Daxil işlər, ədliyyə, miqrasiya, sərhəd, gömrük orqanları arasında ikitərəfli əməkdaşlığa dair fikir mübadiləsi aparılaraq, müvafiq sahələr üzrə əlaqələrin gücləndirilməsi istiqamətində birgə tədbirlərin əhəmiyyəti vurğulanıb.

İranın xarici işlər nazirinin müavini Vahid Cəlalzadeh Azərbaycan nümayəndə heyətini qəbul edib.

***XQ***

# Nümayəndə heyətimiz II Mərkəzi Asiya Media Forumunda

**Azərbaycan nümayəndə heyəti Qazaxıstan Respublikasının Mədəniyyət və İnformasiya Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Qlobal çağırışlar dövründə Mərkəzi Asiya: Media strateji inkişaf aləti kimi" mövzusunda II Mərkəzi Asiya Media Forumunda iştirak edib.**

"Mərkəzi Asiya mediası: Yeni inkişaf nöqtələri və əməkdaşlıq" mövzusunda panel sessiyada çıxış edən Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov qeyd edib ki, müasir dövrdə geosiyasi dinamikanın təsiri nəticəsində media mühiti sürətlə dəyişir və inkişaf edir, informasiya ictimai rəyə əhəmiyyətli dərəcədə təsir göstərir, siyasi diskursu yönəldir və ictimai-siyasi proseslərin idarəolunmasında müstəsna rol oynayır. İcraçı direktor media savadlılığının artırılması, etik jurnalistikanın təşviqi və media sahəsində regional əməkdaşlığın gücləndirilməsi istiqamətində həyata keçirilən təşəbbüslərin sürətlə dəyişən informasiya mühitində qlobal çağırışlara cavab vermək və cəmiyyətin dezinformasiyaya qarşı daha dayanıqlı olmasını təmin etmək baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb.




Xatırladırıq ki, tədbirdə Qazaxıstan, Azərbaycan, Özbəkistan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Böyük Britaniya, Çin, Qətər, Rusiya və digər ölkələrin media rəhbərləri və tanınmış ekspertləri iştirak edirlər.

*

II Mərkəzi Asiya Media Forumu çərçivəsində MEDİA-nın İcraçı direktoru Əhməd İsmayılov Qazaxıstanın mədəniyyət və informasiya naziri Aida Balayeva ilə görüşüb.

Görüşdə iki ölkə arasında informasiya təhlükəsizliyi sahəsində əməkdaşlığın möhkəmləndirilməsinin, qarşılıqlı əlaqələrin dərinləşdirilməsinin, yeni təşəbbüslərin həyata keçirilməsinin önəmi vurğulanıb. Bununla yanaşı, tərəflər arasında imzalanmış Anlaşma Memorandumundan irəli gələn məsələlərə toxunulub, media sahəsində mütəxəssislərin hazırlanması, saxta və etibarsız məlumatların yayılmasına qarşı mübarizə üsullarına dair təcrübə mübadiləsi istiqamətində müzakirələr aparılıb.

***XQ***

# Bakı–İrəvan sülhü kontekstində konstitusiya manipulyasiyası

## Baş nazir erməni avantürizmini qorumaq üçün hər vasitəyə əl atır

(əvvəli 1-ci səhifədə)

"Əmma"sı Paşinyanın sonra bildirdikləri, fikirlərini əsaslandırmaq üçün qurduğu dolaşıq cümlələrdir. O deyir ki, Ermənistan konstitusiya məhkəməsi əsas qanunda nələrin olduğunu və olmadığını bildirən orqandır. Nikolun sözlərinə görə, məhkəmə 2024-cü ilin sentyabrında hər iki ölkənin delimitasiya komissiyalarının birgə əsasnaməsini nəzərdən keçirərkən qərara gəlmişdi ki, Alma-Ata Bəyannaməsi Ermənistanla Azərbaycan arasında sərhədlərin demarkasiyası üçün başlıca prinsipdir. Həmin sənədə əsasən, müstəqil Ermənistanın ərazisi Sovet Ermənistanının ərazisi, müstəqil Azərbaycanın ərazisi isə Sovet Azərbaycanının ərazisi ilə eynidir: "Bunun əsasında (Alma-Ata Bəyannaməsinin – red.) tərəflər 2022-ci ilin oktyabrında Praqada münasibətləri tənzimləmək barədə razılığa gəlmişdilər. Bu yanaşma Ermənistan konstitusiyasına tam uyğundur və təbii olaraq, müəyyən edilib ki, konstitusiyada nə Azərbaycana, nə də başqa ölkəyə qarşı ərazi iddiaları var".

Paşinyanın parlamentdəki çıxışında başqa nələri dilə gətirdiyinə diqqət yetirəcəyik. Ancaq əvvəlcə bəzi məqamları vurğulayaq. Əvvəla, Ermənistan Alma-Ata Bəyannaməsinə məhəl qoysaydı, Azərbaycanın torpaqlarının işğalına girişməzdi. İkincisi, işğal üçün motivasiya mənbəyi haqqında söz açdığımız keçmiş DQMV milli şurasının qərarı olmuşdu ki, ona Ermənistanın İstiqlaliyyət bəyannaməsində yer verilməsi hər şeyi deyir. Ölkə konstitusiyasının bəyannaməyə istinadı da həmçinin.

Üçüncüsü, Nikol 2022-ci ilin oktyabrında Praqada, 2023-cü ilin yazında Brüsseldə Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıdığını bildirsə də, erməni silahlı qüvvələri Qarabağı tərk etmək istəmirdilər, bölgədə separatçı rejim varlığını sürdürürdü və onun hamisi rəsmi İrəvan idi. Üstəlik, Paşinyanın 2023-cü ilin sentyabr ayının əvvəlində yerli mediaya müsahibəsində səsləndirdiyi "Qarabağın özünün seçkili hakimiyyəti var" fikrini də vurğulamalıyıq.

Habelə, Paşinyan iqtidarı 44 günlük müharibədən sonra Qarabağ ermənilərinə beynəlxalq təminat məsələsini gündəmə gətirmiş, mövzunu Azərbaycanla sülh müqaviləsinin mətninə daxil etmək istəmişdi. Hələ rəsmi İrəvan tərəfindən Qarabağı tərk etmiş ermənilərin bölgəyə qayıtmaları üçün beynəlxalq təminat cəfəngiyyatını da barış sazişində görmək niyyətləri açıqlanıb. Bütün bunlar ölkəmizin yurisdiksiyasını şübhələndirmək, separatçılıq üçün baza formalaşdırmaq cəhdidir.

Yəni, ötən müddətdə Ermənistan hakimiyyəti səmimi davranmayıb, manipulyativ yol tutub. Elə Nikolun haqqında söz açdığı konstitusiya məhkəməsinin qərarı da eyni mahiyyət daşıyır. Sənədin məğzi budur ki, məhkəmə İstiqlaliyyət bəyannaməsinin konstitusiyada yer almayan müddəalarını etibarsız sayır. Belə yanaşma fundamental mahiyyət daşıya bilməz. Mümkündür ki, konstitusiya məhkəməsi sonradan öz qərarını ləğv etsin.

Bəli, Azərbaycan dövləti erməni əsas qanununa dəyişiklik şərtini irəli sürür ki, sülh müqaviləsi gerçək barış mühiti üçün maksimum təminat qazansın. Dəyişiklik isə ümumxalq səsverməsi–referendumla baş verməli, legitimlik tam təmin olunmalıdır. Digər yandan, referendum bütövlükdə erməni cəmiyyətinin Azərbaycana qarşı ərazi iddiasının qalmadığının yüksək səslə bəyan edilməsidir. Axı biz bu gün də Ermənistanda "Qarabağ" deyib vay-şivən qoparanları görürük və heç kəs təminat verə bilməz



ki, onlar hakimiyyətə gəldikdən sonra bəd əməllərini işə salmayacaqlar. Referendum – erməni xalqının iradəsi belələrinin ağzını yummalıdır. Əlbəttə, iradə sağlam məntiqə əsaslanırsa.

Ortada sağlam düşüncə tərzi olmadığına görə, Paşinyanın və bütövlükdə erməni hakim komandasının məqsədi nəyin bahasına olursa-olsun, ümumxalq səsverməsinə getməməkdir. Nikolun parlament tribunasından bildirdikləri isə bu məqsədlə edilən növbəti cəhddən başqa bir şey deyil. Beləliklə, əsas məsələdən yayınmaq yolu tutan erməni baş nazir onu da bildirib ki, guya, Azərbaycan Konstitusiyasında Ermənistana qarşı ərazi iddiası var: "Amma biz bu məsələni qaldırmırıq. Çünki Ermənistanla Azərbaycan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında saziş layihəsində problemi həll edən lazımi düsturlar var. Bu o deməkdir ki, Azərbaycanın konstitusiyamızla bağlı mövqeyinin bəhanə deyil, əsl narahatlıq olduğunu qəbul etsək, onu aradan qaldırmağın ən təsirli yolu müqaviləni imzalamaqdır".

Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramovun Antalya Diplomatik Forumunda bildirdiyi kimi, ölkəmizin hansısa dövlət sənədində heç bir xarici ölkəyə məxsus ərazinin adı çəkilmir. Yəni Paşinyanın əsas qanunumuzla əlaqədar bildirdikləri sərsəmlikdir. Digər tərəfdən, bəli, sülh müqaviləsinin mətnində tərəflərin bir-birilərinə qarşı hansısa iddialarının olmadığını vurğulamaları mümkündür və həmin mətndə belə müddəalar var. Amma başa düşülməlidir ki, barış sazişində nələrin əksini tapmasından asılı olmayaraq, sənəd hər şeydən əvvəl xoş niyyətin ifadəsidir. Ermənistan isə xoş niyyətə heç də asanlıqla gəlməyib və bu barədə söz açdıq.

Əlqərəz, Paşinyanın sözlərindən gəlinən qənaət budur ki, Azərbaycanın narahatlığına əsas həm də o səbəbdən yoxdur ki, imzalandıqdan sonra barış sazişi konstitusiya məhkəməsinə göndəriləcək. Yəni məhkəmə, hər bir halda, onun Ermənistanın əsas qanununa uyğunluğunu yoxlayacaq, yalnız bundan sonra saziş ratifikasiya üçün parlamentin müzakirəsinə çıxacaq. Baş nazirin sözlərinə görə, ali qanunverici orqanın isə müqaviləni qəbul etməmək üçün əsası olmayacaq. Çünki, Nikolun fikrincə, konstitusiya məhkəməsinin 2024-cü ilin sentyabrındakı qərarından sonra sənədin əsas qanunla uyğunsuzluğu ehtimalı yox dərəcəsindədir.

Beləliklə, Paşinyan demək istəyir ki, əgər Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddiası varsa, belə bir cəhət müəyyənləşdiriləcək və nəticədə sülh müqaviləsi ərsəyə gəlməyəcək. Nikol, hətta, bu zaman ölkəsinin barışla konfliktin davam etdirilməsi arasında seçim etməli olacağına dair tam nəzəri mahiyyət daşıyan fikri də səsləndirib. Yəni, Paşinyanın dediyi budur ki, ərazi iddiasının olub-olmadığını Azərbaycan yox, Ermənistanın özü müəyyənləşdirsin, müvafiq surətdə həmin iddiasının aradan qaldırılması üçün hansı tədbirin görülməsinin vacibliyini diktə edən tərəf Bakı olmasın. Ona görə ki, erməni qanunvericiliyində məsələ ilə bağlı mexanizm mövcuddur.

Bir sözlə, Paşinyan öz aləmində Azərbaycanın qarşısında duran vəzifənin yalnız sülh müqaviləsini imzalamaq olduğunu əsaslandırmağa çalışır. O, bu zaman barış sazişinin beynəlxalq sənəd statusuna da diqqət yetirir və bildirir ki, beynəlxalq sənədlər yerli qanunvericilikdən üstündür. "Bu o deməkdir ki, sülh sazişi həm Ermənistanda, həm də Azərbaycanda ratifikasiya edildikdən sonra ən yüksək hüquqi qüvvəyə minəcək", – deyən Nikolun mövzuya dair son fikri budur ki, Azərbaycan sülh sazişi ilə bağlı hazırkı mövqeyi ilə özünün qaldırdığı məsələlərin həllinə mane olur.

Necə deyərlər, ayının min oyunu bir armudun başındadır. Paşinyan da yekunda faktiki olaraq bu nəticəyə gəlir ki, sanki Azərbaycan barış sazişinin imzalanmamasına görə məsuliyyət daşıyan tərəfdir. Əvvəldə haqqında söz açdığımız hiyləgərlik də elə budur. Ancaq hiyləgərliyin başqa tərəfləri də var. Birincisi, hər bir halda, Ermənistan konstitusiyasının ölkənin İstiqlaliyyət bəyannaməsinə istinadı saxlanılırsa, daha doğrusu, sözügedən bəyannamədə Azərbaycana məxsus və illər ərzində Bakı ilə İrəvan arasında münaqişə mövzusu kimi təsdiqlənmiş ərazinin adı çəkilirsə, erməni baxış bucağından bu amil həmin münaqişənin davamlılığının vurğulanmasıdır.

Otuz ilə yaxın müddətdə işğaldan əziyyət çəkmiş Azərbaycanın tam ixtiyarı var ki, məsələni bu cür qəbul etsin və sülh mühitinə zidd saydığı durumun aradan qaldırılmasının zəruriliyini əsas götürsün. Yəni, indiki halda Nikolun hüquqa baş vurub dolaşıq əsaslandırma aparmasının heç bir əhəmiyyəti yoxdur. Eyni zamanda, meydana sadə sual çıxır: niyə Ermənistana məxsus dövlət sənədində başqa ölkəyə aid ərazinin adı əks olunmalıdır? Axı həmin Paşinyan özü 2024-cü ilin noyabrında demişdi ki, İstiqlaliyyət bəyannaməsində "Dağlıq Qarabağ" sözünün işlədilməsi sülh üçün maneədir. İndi niyə başqa şey danışır? Bunu bir kənara qoyaq, nə üçün Ermənistanın gerbində, ölkənin ərazisində yer almayan Ağrı dağının təsviri olmalı və həmin dağ "Ararat" adlandırılmalıdır. Yəni belə məqamlar yetərincədir.

Sonda onu da bildirək ki, baş nazir N.Paşinyanın parlament tribunasından bildirdikləri, bir növ, uşaq başı aldatmağa bənzəyir. Onun öz yarımçıq təfəkkürü ilə əsl mahiyyəti kənara qoymaq əzmi gerçək sülhə zərərdir. Nikol və komandasındakılar bu cür hərəkətlərlə, səmimiyyətdən uzaq davranışlarla, manipulyasiya olduğu aşkar görünən gedişlərlə etimad quruculuğuna zərbə vururlar. Ən əsası isə Cənubi Qafqazda özləri üçün də sərfəli perspektiv vəd edən gerçək sülh mühitinin formalaşmasına mane olurlar ki, həm bu, həm də Ermənistanın sürətlə silahlanma xətti, istər-istəməz düşünməyə vadar. Düşünməyə və əli tətikdə dayanmağa.

**Ə.CAHANGİROĞLU**
**XQ**

# Ermənipərəstlikdə "dini təəssübkeşlik"

(əvvəli 1-ci səhifədə)

Beləliklə, "Christian Post" ötən ilin sentyabrında "Ermənistan Azərbaycandan tələb etməlidir ki, Dağlıq Qarabağdakı kilsələrinə hücumu dayandırsın" başlıqlı məqalə yayımlamışdı. Hiss olunmuşdu ki, media orqanının anti-Azərbaycan dəst-xəttinə ermənipərəstlik ritorikası hakimdir. Onun hay təəssübünü sübuta yetirən daha bir məqam isə nəşrdə bu ilin fevralında yer almış "Erməni kilsəsi İsraildən Qüdsdəki 1700 illik mülkün müsadirəsini dayandırmasını istəyir" sərlövhəli yazıdır.

Əlqərəz, "Christian Post"un Azərbaycana qarşı qərəzi bütün əndazələri aşıb. Nəşrdə yeni yayımlanmış məqalə bunu söyləməyə əsas verir. "ABŞ-ın Azərbaycanı xristianların təqibinə görə məsuliyyətə cəlb etməsinin vaxtının çatdığı"nın iddia olunduğu məqalədə nələrdən söz açıldığına diqqət yetirəcəyik. Ancaq əvvəlcə bir məsələnin üzərində dayanaq.

Məlumdur ki, Birləşmiş Ştatların yeni administrasiyası fəaliyyətində ənənəvi dəyərlərin qorunmasını rəhbər tutur. Bu dəyərlər sırasında isə xristianlıq ön plandadır. Tramp dindar olmasa da, xristian dini ehkamlarının təbliğatçısı rolunda çıxış edir ki, bu da onun rəhbərlik etdiyi komandanın ümumən baxışlar sisteminə təsir göstərir. ABŞ-dakı ermənipərəstlər isə özlərinin anti-Azərbaycan fəaliyyətlərində məhz bu həssaslığın üzərinə siyasi sərmayə yatırmağa çalışırlar. Ermənistan iqtidarı da eyni yolu tutur. Əlbəttə, bir qədər fərqli formada.

Diqqət yetirək, baş nazir Nikol Paşinyan Prezident D.Tramp vəzifə səlahiyyətlərinin icrasına başlar-başlamaz, daha doğrusu, bu ilin fevralında ABŞ-a səfər gerçəkləşdirdi. Səfərin məqsədi Birləşmiş Ştatlarda düzənlənən 5-ci Beynəlxalq Dini Etiqad Azadlığı Sammitində iştirak idi. Nikol toplantıda Ermənistanın xristian dini bağlılığını əməlli-başlı reklam etmişdi.




Paşinyan dini sammitdəki çıxışında bildirmişdi ki, demokratiyanı dini etiqad azadlığı olmadan təsəvvürə gətirmək çətindir. Ardınca isə o, Ermənistanı, guya, canlı siyasi məşvərətə, müxtəlif insanlar və ölkələr, həmçinin sivilizasiyalar arasında dialoqa malik əsl demokratik ölkə kimi gördüyünü açıqlamışdı. Nikolun tədbirdə danışdığı nağıla görə, Ermənistanın ilk patriarxı Hor Virap adlı kahin olub. Virap dini yaydığı üçün təqibə məruz qalıbmış. Ancaq sonra erməni kralı qərara gəlib ki, xristianlıq ən yaxşı dindir. Erməni hara kral hara?!

Əlbəttə, bütün bunlar, o cümlədən Ermənistanın eramızın 301-ci ilində xristianlığı qəbul etməsinə dair Paşinyanın dilə gətirdiyi cəfəngiyyat rəsmi Vaşinqtonun diqqətini çəkmək məqsədini daşıyırdı. Amma görünən budur ki, hayların baş naziri D.Trampın xristian duyğularında Ermənistana yer tapmağa müvəffəq ola bilmədi və suyu süzülə-süzülə ölkəsinə qayıtdı. Üstəlik, Birləşmiş Ştatların dövlət başçısının Azərbaycan Prezidentinə Novruz bayramı münasibətilə ünvanladığı təbrik məktubundakı səmimi ştrixlər, Vaşinqtonun Bakı ilə əməkdaşlığa həssas yanaşdığına dair fikirlər İrəvanın və xaricdəki havadarlarının "kürklərinə birə saldı". Görünür, "Christian Post" məhz buna görə "işə düşüb".

Bəli, sözügedən nəşr ermənipərəstliyində anti-Azərbaycan dəst-xəttin dozasını, necə deyərlər, kəllə-çarxa çıxarıb. Qəzet məqaləsinə başdan-ayağa uydurma, yalnız fantaziya xarakterli hadisənin təsviri ilə başlayıb. Sən demə, ölkəmizdə Vüsal adlı yeniyetmə məktəbə "İncil"lə gətdiyi üçün sinif yoldaşları tərəfindən vəhşicəsinə döyülübmüş. Birincisi, sadə məntiqlə yanaşsaq, kimsə məktəbə dini kitabla getmir. İkincisi, məktəbdə bir şagird vəhşicəsinə döyülür və bu səhnə kənardan seyr edilir. Belə bir durum əsla mümkün deyil. O cümlədən "İncil" kitabının şagirdlər tərəfindən təhqiri.

Digər tərəfdən, bir anlıq düşünək ki, təsvir edilən olay həqiqətən baş verib. Məgər dünyanın bir çox yerlərində İslam dini ehkamlarına qarşı nalayiq yanaşmalar qeydə alınmır? Belə olduqda ABŞ cəza tədbiri görür və ya görmək səlahiyyətindədir? İkincisi, "Christian Post" kimi özünü ciddi sayan media orqanı hansı əsasla məktəbdə baş verdiyini iddia etdiyi hadisəyə, yəni mahiyyətcə yeniyetmələr arasındakı insidentə görə, Azərbaycanda xristianlığın təqib olunduğunu bildirir? Bu, nə dərəcədə peşəkar yanaşmadır?

Bəli, bu məsələyə məhz qərəzli yanaşmadır ki, mövcud tendensiya "Christian Post"un məqaləsinin digər hissələrində də özünü göstərməkdədir. Belə ki, nəşrin materialında iddia olunur ki, guya, hesabatlarda Azərbaycanda təkcə 2023-cü ildə xristianlara və digər dini azlıqlara qarşı qorxunc zorakılıq səviyyəsi sənədləşdirilib. Görəsən, hansı hesabatlarda? Kimdir belə lakmus kağızlarını hazırlayıb yayanlar? Suallarımız ritorikdir. Ancaq nəşrin məqaləsində, loru dildə desək, xoruzun quyruğu görünüb və məlum olub ki, yeniyetmə ilə bağlı uydurulmuş saxta sentimental başlanğıc əsl "məqsədin" açıqlanmasına giriş məqsədi daşıyırmış.

Beləliklə, "Christian Post"un məqaləsində bildirilib ki, Azərbaycanın "Qarabağı hərbi yolla ələ keçirməsindən sonra" bölgədəki erməni xristian məskənlərinin dağıdılması ölkə hakimiyyətinin bu dinə qarşı total hücumunun bariz göstəricisidir. Sən demə, rəsmi Bakı kilsələri, qəbiristanlıqları və məktəbləri qəsdən zədələyir, dağıdır və bu, dini irsə qarşı sistematik təqibdir. Nəşrin daha bir uydurması isə budur ki, guya, xristianlara qarşı zorakılıq 2024-2025-ci illər arasında kəskin şəkildə artıb və bu səbəbdən minlərlə xristian inanclı evlərini tərk etmək məcburiyyətində qalıb.

"Christian Post"un məqaləsindəki növbəti cəfəng məqam Birləşmiş Ştatların Beynəlxalq Dini Etiqad Azadlıqları Komissiyasının 2024-cü ilin mayında açıqladığı qərəzli hesabata istinaddır. Məlumdur ki, ABŞ-ın aşkar anti-Azərbaycan və ermənipərəst mövqe tutan sabiq administrasiyasının "sifarişi" əsasında hazırlanmış "hesabat" da ölkəmizdəki reallığı əks etdirə bilməz. O cümlədən sənəddə Azərbaycanın dini etiqad azadlığının kobud şəkildə pozulmasına görə "xüsusi narahatlıq doğuran ölkə" elan edilməsi.

Sonda bildirək ki, Azərbaycan əleyhinə belə primitiv, reallıqdan tam uzaq, sərsəm məqalələrin yayımlanması, habelə "Christian Post"un qərəzli təqdimatı təkcə ABŞ-dakı erməni lobbi və diaspor təşkilatlarının "işi" deyil. Bu, həm də Azərbaycanla barış müqaviləsi imzalamağa hazır olduğunu bəyan edən, özünü "sülh göyərçini" obrazında görən Ermənistan hakimiyyətinin həmin təşkilatlarla müştərək "fəaliyyətinin" nəticəsidir. Məqsəd məqalənin qayəsindən də göründüyü kimi, ABŞ-ın hazırkı administrasiyasının xristian təəssübkeşliyi damarına basmaqla, onun Azərbaycana xristianları təqibə məruz qoyan ölkə qismində yanaşmasına, yekun nəticədə Vaşinqtonun Bakıya təzyiq göstərməsinə nail olmaqdır. Ancaq hesab edirik ki, Tramp Administrasiyası bu sayaq bəsit oyun qurucularının əsl niyyətlərindən xəbərdardır. Buna görə tam əminliklə deyə bilərik ki, istər "Christian Post", istərsə də sivil jurnalistika prinsiplərini alver predmetinə çevirən digər ABŞ nəşrlərinin təmənnalı erməni təəssübünə hesablanmış oyunbazlıqları heç bir fayda verməyəcək, verə də bilməz.

**Ə.RÜSTƏMOV**
**XQ**

# İrəvan hərbi xərclərimizin artımından niyə əndişələnir?





(əvvəli 1-ci səhifədə)

İddia edilib ki, bu məbləğ "çox böyükdür" və guya, Azərbaycanın sülhə hazırlaşmadığını "sübut" edir: "Azərbaycan Ordusunu gücləndirir. Bəs bu qədər böyük vəsait ordunun gücləndirilməsinə nə vaxt xərclənir? Cavab bəllidir – müharibəyə (?) hazırlıq gedəndə. Azərbaycan kiminlə döyüşəcək? Onun Rusiya ilə müharibə planı yoxdur. Onların münasibətlərdə hər şey çox yaxşıdır".

Qeyd olunub ki, İran–Azərbaycan münasibətləri də qaydasındadır: "İranın nümayəndə heyətləri Bakıya tez-tez gələn qonaqlara çevriliblər. Hətta, İran İslam Respublikasının Prezidenti də yaxın vaxtlarda Bakıya gəlmək niyyətindədir. Yeri gəlmişkən, o, etnik azərbaycanlıdır. Deməli, İran–Azərbaycan sərhədinin bağlı olmasına və bir sıra iddiaların əksinə olaraq, burada da müharibənin eyhamı yoxdur".

Məqalədə Azərbaycanın digər qonşusu – Gürcüstanla əlaqələrinin yüksələn xətt üzrə inkişaf etməsinə həsəd aparıldığını görmək mümkündür: "Gürcüstana gəlincə, onun Prezidenti Mixeil Kavelaşvili ilk rəsmi səfərini məhz Bakıya edib. O, Azərbaycan Prezidenti və Baş naziri ilə görüşlər keçirib. Bu görüşlərdə tərəflər birmənalı olaraq geniş spektrli məsələlər üzrə strateji əməkdaşlığın genişləndirilməsindən danışıblar. Bir sözlə, Azərbaycan–Gürcüstan münasibətlərində də hər şey əladır".

Müəllif belə bir "nəticəyə" gəlir ki, guya, ölkəmizin müdafiə qabiliyyətini gücləndirməsi Ermənistanla bağlıdır. Guya, Azərbaycan yeni, "kiçik, qalibiyyətli müharibəyə" hazırlaşır. Hətta, guya, istiqamət də aydındır – Zəngəzur!: "Baxın, dəhlizin işə salınması üçün bütün lazımi infrastrukturun tikintisi artıq finiş xəttinə çatıb. Türkiyə dünyada geosiyasi çəkisini artırır və bunu ABŞ Prezidenti Donald Trampın özü də vurğulayır".

Məqalədə Ermənistan rəhbərliyinin yürütdüyü ikibaşlı siyasət üzündən hayların daha heç bir dövlətə, heç bir qüvvəyə güvənə bilməyəcəyinin acı reallıq olduğu etiraf edilib: "Biz kimə arxalanmalıyıq? Rusiya da, ABŞ da istisna olunur. Onlar indi tamam başqa işlə – Ukraynanı bölüşdürməklə məşğuldurlar. Bundan əlavə, xatırlayırıq ki, Tramp əvvəlki prezidentlik dövründə – 2020-ci il müharibəsi zamanı Azərbaycanı dayandırmaq üçün heç nə etməmişdi. Bəli, biz Ermənistana göstərdiyi dəstəyə görə Avropa Sülh Fonduna çox minnətdarıq. Amma düzünü desək, bu, sırf nümayişkəranə xarakterlidir. Ayrılan 10 milyon avro Azərbaycanın ordusuna xərclədiyi milyardlarla dollarla müqayisədə sadəcə, gülməli məbləğdir. Deməli, burada da özünü aldatmağın mənası yoxdur".

Məqalədə rəsmi İrəvanın hər zaman arxalandığı Fransa amili də təhlil edilib: "Bu halda Fransaya ayrıca bel bağlamalıyıqmı? Çox şübhəlidir. Bəli, biz yenə də çoxlu dəstək sözləri, çoxlu qınaqlar eşidəcəyik. Amma başa düşməliyik ki, Fransanın sosial-iqtisadi problemlərinin çəkisində artım var və bu, Emmanuel Makronun reytinqinin yenidən aşağı düşməsinə təsir edir. Üstəlik, etiraf etmək nə qədər acı olsa da, biz dəfələrlə əmin olmuşuq ki, "Azərbaycandan təcavüz olacağı təqdirdə" Fransadan real hərbi yardım gözləməyə dəyməz".

Müəllif Ermənistan daxilindəki radikal revanşist qüvvələrin yaranmış vəziyyətdən sui-istifadə etməyə, Nikol Paşinyanı devirməyə çalışacaqlarının istisna olunmadığını vurğulayıb: "Problem Ermənistan daxilində hadisələrin bu cür dönüşünə sevinəcək qüvvələrin xalqın qarşısına çıxıb "biz sizə xəbərdarlıq etmişdik!" deməsi ilə daha da ağırlaşacaq. Onlar xalqdan oğurladıqları milyardları böyük məmnuniyyətlə insanların narazılığını özlərinə lazım olan istiqamətə yönəltməyə sərf edəcəklər. Bu isə faciəvi səhv olardı. Biz indiki vəziyyətdə onu da etiraf etməliyik ki, hakimiyyət özünə qarşı ittihamlar üçün çoxlu real əsaslar verib. Bütün bunlar birlikdə götürüldükdə ən dəhşətli proqnozlara əsas verir. Bəli, hələlik bunlar yalnız proqnozlardır, reallıq deyil. Lakin bu anlayışlar arasındakı sərhəd sürətlə daralır".

Hayastanın digər media resursları da bu istiqamətdə müxtəlif məqalələr dərc ediblər. Bütün bunlar hayların hərbi xərclərimizin artımından təşvişə düşdüklərinin göstəricisidir. Amma onlar bir məqamı unudurlar ki, işğalçı Ermənistandan fərqli olaraq Azərbaycan bölgədə hər zaman sülh və sabitliyin, əmin-amanlığın mövcudluğu istiqamətində fəaliyyət göstərib. İkinci Qarabağ müharibəsindən sonra Ermənistana barışıq əli uzadan, sülh və dövlətlərarası münasibətlərin qurulmasına dair ikitərəfli saziş layihəsinin hazırlanması təşəbbüsü ilə çıxış edən də məhz rəsmi Bakı olub.

Bu gün Azərbaycanın hərbi qüdrətini, müdafiə qabiliyyətini artırması da Ermənistanın revanşist iddialardan hələ də əl çəkməməsi, sülh sazişinin imzalanması üçün tələb olunan iki əsas şərti – ölkəmizə qarşı ərazi iddialarını qanunvericilik müstəvisindən yığışdırmaması və keçmiş münaqişənin həlli üçün yaradılmış ATƏT-in Minsk qrupunun ləğvi üçün müvafiq müraciət etməməsi ilə bilavasitə bağlıdır. Bir tərəfdən sülh istədiyini bildirən İrəvan digər tərəfdən müxtəlif ölkələrdən silah-sursat alır. Bu isə nonsens sayıla bilər.

Azərbaycan tərəfi məsələ ilə bağlı fikirlərini dəfələrlə ən yüksək səviyyədə bildirib. Prezident İlham Əliyev 2024-cü il dekabrın 17-də məşhur rusiyalı jurnalist Dmitri Kiselyova müsahibəsində ölkəmizin bununla bağlı mövqeyini aydın şəkildə ifadə etmişdi: "Ermənistanın silahlanması prosesi sıçrayışla gedir. Biz bacardığımız qədər orada baş verənləri izləyirik. Ermənistan ərazisinin dərinliyini nəzərə alsaq, texniki baxımdan bu gün bunu etmək o qədər də çətin deyil. Əlbəttə, Fransa bu məsələdə liderlik edir. İkinci yerdə Hindistan, üçüncü yerdə isə ABŞ-dır. Fransa və Hindistan Ermənistanı öldürücü silahlarla təmin etdiklərini gizlətmirlər, – hətta bir növ, yəqin ki, bizim acığımıza nümayişkaranə cəsarət göstərirlər, – ABŞ isə bunu etiraf etmir. Halbuki, biz Ermənistanın hava limanlarına enən və oraya silah daşıyan hərbi nəqliyyat təyyarələrini izləmişik.

Təbii ki, biz adekvat tədbirlər görməyə məcbur idik. 2025-ci ildə növbəti hərbi büdcəmiz rekord büdcə olacaq. Bu, təxminən 5 milyard dollardır. Bu məbləğin ən azı 60 faizini xərcləməyə məcburuq. Belə təhdidlər olmasaydı, xərcləməzdik, Qarabağın bərpasına, sosial ödənişlər və sair üçün istifadə edərdik. Lakin biz bunu etməyə məcburuq və edəcəyik".

2025-ci il yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində dövlətimizin başçısı yenə bu məsələyə münasibət bildirmişdi. Prezident bəzi ölkələr, bəzi qüvvələr tərəfindən Ermənistanın cidd-cəhdlə silahlandırılmasının Böyük Qayıdış və işğaldan azad olunmuş ərazilərin bərpa-quruculuq məsələsinə mane olub-olmayacağına dair suala cavab olaraq demişdi: "Əlbəttə, müəyyən dərəcədə mane olur. Çünki böyük vəsait hərbi və təhlükəsizlik məsələlərinə ayrılır. Əgər Ermənistanın silahlanma siyasəti olmasaydı, mən deyə bilərəm ki, 8,4 yox, bəlkə də hərbi və təhlükəsizlik məsələləri üçün 4 milyard manat kifayət edərdi, əgər biz yenə də potensial təhlükə ilə üz-üzə qalmasaydıq. Ona görə əlbəttə ki, bu vəsaitin bir hissəsi gedəcəkdi Qarabağın bərpasına, bir hissəsi gedəcəkdi digər bölgələrin inkişafına, bir hissəsi gedəcəkdi sosial proqramlara..."

Beləliklə, Azərbaycan Prezidentinin səsləndirdiyi fikirlərdən də bir daha aydın olur ki, qarşı tərəf ölkəmizin müdafiə və milli təhlükəsizlik xərclərinin artımının təqsirini özlərində görməlidir. Rəsmi İrəvan bölgəni qarışdırmaq istəyən qüvvələrin, əsasən, Fransanın əlində alət olmaqdan əl çəkəcəyi, silahlanma yarışından geri çəkiləcəyi təqdirdə Azərbaycanın da belə bir addım atacağı şəksizdir. Erməni jurnalistlərin də bu reallığı dərk və təbliğ etmələrində fayda vardır.

*Səxavət HƏMİD*
*XQ*

## Ekspert rəyi

**Vasif HÜSEYNOV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri, politoloq**



– Görünən odur ki, Ermənistan bir daha hansısa havadar dövlətin, indiki halda Fransanın geosiyasi oyunlarının alətinə çevrilir. Nəticədə, yenə də uduzan Ermənistan xalqı olur. Bu həqiqəti ermənilər də dərk etməlidirlər. Təəssüf ki, hələlik, bu anlayışa gəlib çıxmayıblar. Bir vaxtlar Rusiyadan mədəd umduqları kimi, indi də Fransadan kömək gözləyirlər. Düşünürlər ki, Fransa Ermənistanı xilas edəcək. Amma reallıq tamam başqadır. Fransanın bu addımları regiondakı sülh təşəbbüslərinə zərbə vurur. Azərbaycanın təklif etdiyi sülh müqaviləsi ətrafında danışıqların aparıldığı bir vaxtda Ermənistanın silahlandırılması bölgədə güc balansını pozur və revanşist qüvvələrin mövqeyini gücləndirir. Bu, yalnız sülh danışıqlarını çətinləşdirmir, həm də Ermənistan ictimaiyyətində yanlış illüziyaların yaranmasına səbəb olur. Halbuki bölgənin ehtiyacı qarşıdurma deyil, davamlı sülh və əməkdaşlıqdır. Fransanın regiona dair bu yanaşması isə nə Ermənistanın xeyrinədir, nə də regional sabitliyə töhfədir.

Köşə

# "Leytmotivsizlik" sindromu

## *Tək baş nazir yox, ermənilər hamılıqla bu xəstəliyə yoluxublar*

**Əvvəlcə onu xatırladaq ki, leytmotiv hansısa əsərin, ədəbi yaradıcılığın, yaxud ədəbi cərəyanın ana xəttinə, aparıcı motivinə deyilir. Əlavə edək ki, leytmotiv bəzən əsəri əvvəlcədən başa düşmək üçün açar rolu oynayan ifadə, cümlə, bədii surət, yaxud süjetdən ibarət olur. Əvvəlcə Çar Rusiyasının, sonra isə Sovet İttifaqının qədim Azərbaycan torpaqlarında yaratdığı Ermənistan dövləti, əslində, siyasi qurum kimi deyil, özfəaliyyət kollektivi kimi idarə olunduğuna görə, orada leytmotivdən əsər-əlamət görmədik. Bu "dövlət"in konkret məqsədi, məramı, son hədəfi yoxdur. Daha doğrusu, müəyyən seçimləri olur və tez-tez məramını dəyişir.**



**İttifaq MİRZƏBƏYLİ**
**i-mirzebeyli@mail.ru**

Biz bu qənaətimizin təsdiqini işğalçı ölkənin xarici işlər naziri Ararat Mirzoyanın aprelin 14-də Türkiyənin NTV telekanalına müsahibəsində növbəti dəfə gördük. Armİnfo.am xəbər portalının yazdığına görə ölkənin baş diplomatı həmin müsahibəsində deyib ki, "Ermənistan Sünik vasitəsilə Naxçıvana gedən marşrutda Azərbaycana müasir nəzarət mexanizmlərindən istifadə etməyi məsləhət görüb". İlk baxışda normal məntiq kimi görünən bu mövqedən xəbər tutan ayıq adamlar dərhal soruşurlar ki, məgər Azərbaycan həmin marşruta nəzarət etmək istəyir?

Bundan başqa, Mirzoyan israr edir ki, Ermənistan Cənubi Qafqaz regionunda nəqliyyat kommunikasiyalarının, marşrutların və infrastrukturun açılmasında heç bir fundamental problem görmür. Bu nə deməkdir? Mirzoyanın "problem görmədiyi" məsələ – regionda nəqliyyat kommunikasiyalarının, marşrutların və infrastrukturun açılması zərurəti 2020-ci ilin noyabrında Azərbaycan və Rusiya prezidentlərinin, eləcə də Ermənistan baş nazirinin imzaladıqları məlum üçtərəfli bəyanatda öz əksini tapmışdır. Artıq beş ilə yaxındır ki, Azərbaycan və Rusiya rəhbərliyi, üstəlik, Şanxay – London nəqliyyat yolunun açılmasında maraqlı olan digər ölkələr və beynəlxalq təşkilatlar İrəvandan həmin yolun açılmasını tələb edirlər. Ermənilər isə beş ildir ki, gündə bir bəhanə ilə öz imzalarına hörmət etməkdən boyun qaçırıblar. İndi isə "problem görmürlər".

İndi – Ermənistanla Türkiyə arasında dəmir yolunun bərpasında maraqlı olduqlarını söyləmək üçün üz tutduqları türk televiziyasına deyirlər ki, biz Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında nəqliyyat yolunun açılmasına razıyıq, ancaq Azərbaycan buna mane olur.

Fikrimizcə, bu, təkcə absurd deyil, həm də, diplomata yaraşmayan sifətdir. Ararat Mirzoyanın bu ifadəsi Nikol Paşinyanın "Biz Azərbaycanla sülh sazişi imzalamağa hazırıq" – deyərək şərti sərhədə silah daşınmasına göstəriş verməsi kimi riyakarlıqdır. Daha doğrusu, leytmotivsizlikdir. Yaxud, Nikol Paşinyanın "Biz KTMT-dən birdəfəlik imtina edirik" – deyərək, mayın 9-da Moskvada keçiriləcək Qələbə paradına hazırlaşmasına nə ad vermək olar? Bu addımın adını sərlövhədə vermişik.

Başqa bir arqumentə diqqət yönəldək. Başda Fransa prezidenti Emmanuel Makron olmaqla bir sıra Avropa siyasətçiləri və qitə miqyaslı bəzi "beynəlxalq təşkilatlar" Xocalı soyqırımı kimi vəhşiliyə imza atmış işğalçı Ermənistan dövlətindən "sülh göyərçini" obrazı yaratmaq üçün cidd-cəhdlə, daha doğrusu, riyakarcasına çalışırlar. Region mətbuatı isə yazır ki, Ermənistanda 3 aylıq qeyri-rəsmi "səfərbərlik" başlanır, hərbi texnikanın sərhədyanı rayonlara daşınması müşahidə edilir, erməni ordusu Naxçıvan istiqamətində də aktivləşir. Xarabalıq bayquşundan "sülh göyərçini" yaratmaq istəyənlər onun qanadları altına Hindistandan, Fransadan gətirilmiş silahların yerləşdirildiyini görmürlərmi?

Başqa bir arqument. Baş nazir Nikol Paşinyan ötən ay sülh müqaviləsini imzalamağa hazır olduğunu bəyan etmişdi. İndi ədalətli bir Avropa müşahidəçisi lazımdır ki, Paşinyanın həmin bəyanatından sonra ermənilərin atəşkəsi neçə dəfə pozduğunu söyləsin. Söyləməyəcəklər. Çünki Avropa müşahidəçiləri Ermənistana sülhün bərpasına xidmət etmək üçün yox, münaqişənin uzadılması üçün göndəriliblər. Yəni axsaq atın kor nalbəndləri kimi...

Daha bir arqument. Antalya Diplomatiya Forumunda iştirak edən Ararat Mirzoyan orada iddia edirdi ki, İrəvan Azərbaycanla sülh müqaviləsini 10 dəqiqə ərzində imzalamağa hazırdır. İşğalçıların baş diplomatının həmin bəyanatı verdiyi dəqiqələrdə bu əldəqayırma dövlətin mətbuatı yazırdı ki, Ermənistan – İran hərbi təlimləri başa çatdı. Bu, nə deməkdir?

Yəni bu dövlətin heç bir siyasətçisinin, diplomatının, məmurunun sözünə inanmaq mümkün deyil. Necə inanasan? Bütün dünya qəbul edir ki, Qarabağ münaqişəsi artıq yoxdur. Problem öz həllini tapıb. Ancaq Azərbaycan rəhbərliyinin 2020-ci ilin payızından bəri israrla tələb etdiyi ATƏT-in Minsk qrupunun ləğv edilməsi haqqındakı tələbinə İrəvan tərəfindən əməl edilmir. Bu isə o deməkdir ki, Ermənistan rəhbərliyi Qarabağ münaqişəsini bitmiş hesab etmir. Deməli, hələ müharibə ola bilər. Aprelin 15-də parlamentin iclasında çıxış edən Nikol Paşinyan isə növbəti dəfə riyakarlıq edərək " Daha Azərbaycanla Ermənistan arasında heç bir müharibə olmayacaq!" – ifadəsini iki-üç dəfə, həm də çığıra-çığıra dedi. Bunun adı nədir? Təbii ki, "leytimotivsizlik" sindromu.

# Türk dünyasının ortaq təhlükəsizlik konsepsiyasını cızan platforma

**Bakıda TÜRKPA-ya üzv ölkələrin parlamentlərinin müdafiə və təhlükəsizlik üzrə komitələrinin ikinci iclası Türk dünyasının gələcəyinə yönəlmiş strateji yanaşmanın, ortaq təhlükəsizlik konsepsiyasının və yeni geosiyasi düzənin konturlarının cızıldığı mühüm bir platformadır.**




Türk dövlətləri arasında birliyə aparan yol heç də bugünkü geosiyasi zərurətlərdən yaranmayıb. Bu, dərin tarixi, ortaq soy-kök, dil, din və mədəni dəyərlərlə yoğrulmuş bir kimlik anlayışının təzahürüdür. Qədim İpək yolu dövründən başlayaraq, Altaylardan Anadoluya qədər uzanan türk coğrafiyası tarix boyu həm iqtisadi, həm də hərbi baxımdan bir-biri ilə qarşılıqlı əlaqədə olub. Sovet imperiyasının dağılmasından sonra müstəqillik qazanan Türkistan respublikaları ilə Türkiyə və Azərbaycan arasında qurulan siyasi münasibətlər bu tarixi yaddaşın canlandırılması prosesinin bir parçası idi.

TÜRKPA Baş katibi Mehmet Süreyya Erin qeyd etdiyi kimi, bu gün türk dövlətlərinin qarşısında dayanan təhlükələr – terrorizm, qeyri-sabit qonşu mühitlər, kibertəhdidlər və hibrid müharibə formaları – artıq kollektiv yanaşma tələb edir. Bu baxımdan, müdafiə və təhlükəsizlik üzrə parlament əməkdaşlığında məqsəd təkcə normativ-hüquqi baza yaratmaq deyil, eyni zamanda, strateji koordinasiya üçün zəmin hazırlamaqdır.

Parlamentlərin müdafiə və təhlükəsizlik sahəsində rolu bəzən arxa planda qalsa da, normativ baza, beynəlxalq hərbi əməkdaşlıq müqavilələrinin ratifikasiyası və büdcə məsələlərinin təsdiqi baxımından onların rolu əvəzolunmazdır. TÜRKPA çərçivəsində də komitə sədrlərinin bir araya gəlməsi bu sahədə uzunmüddətli strategiyanın əsasını təşkil edir. Bu toplantı gələcəkdə mümkün olacaq Türk Müdafiə İttifaqının hüquqi və siyasi çərçivəsinin təməlləridir.

Bu gün Avrasiya məkanında baş verən geosiyasi dəyişikliklər – Rusiya – Ukrayna müharibəsi, Çinin "Bir kəmər, bir yol" təşəbbüsü, Qərbin enerji təhlükəsizliyinə dair narahatlıqları – Türk dövlətlərinin strateji əhəmiyyətini artırır. Xüsusilə, Azərbaycan və Türkiyə bu prosesdə həm enerji, həm nəqliyyat, həm də hərbi baxımdan lokomotiv rolunu oynayırlar. Məhz bu səbəbdən, Türk Dövlətləri Təşkilatı və onun parlament ölçüsü olan TÜRKPA çərçivəsində müdafiə əməkdaşlığının institusional əsasda qurulması bir zərurətə çevrilir.

2020-ci ildəki II Qarabağ müharibəsində əldə edilən hərbi və diplomatik qələbə Azərbaycanın regiondakı mövqeyini ciddi şəkildə gücləndirdi. Hazırda Azərbaycan regionun enerji və nəqliyyat qovşağı ilə yanaşı, təhlükəsizlk arxitekturasının formalaşmasında fəal iştirak edən aktordur. Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyevin TÜRKPA çərçivəsində səsləndirdiyi fikirlər də türk dövlətlərinin geosiyasi koordinasiyasında yeni mərhələyə keçidin anonsu kimi dəyərləndirilməlidir. A.Nağıyevin səsləndirdiyi "bizim ailəmiz Türk dünyasıdır" deyimi Azərbaycanın regional kimlik və siyasi yönünün açıq şəkildə bəyanıdır. Bu fikir, əslində, Prezident İlham Əliyevin illərdir formalaşdırdığı türk inteqrasiyasına əsaslanan çoxvektorlu xarici siyasətin parlament səviyyəsində strateji davamıdır.

Burada diqqətçəkən əsas xətt odur ki, Azərbaycan yalnız mədəni və tarixi bağlar üzərində deyil, təhlükəsizlik və müdafiə sahəsində də institusional əməkdaşlığı gücləndirməyi siyasi prioritet kimi müəyyənləşdirir.

A.Nağıyevin çıxışında vurğulanan parlamentlərarası təhlükəsizlik əməkdaşlığı da regional güc balansında Türk dünyasının yeni konturlarını çəkir. Əgər bundan əvvəl türk dövlətləri arasında əməkdaşlıq əsasən iqtisadi və mədəni formatlarda inkişaf edirdisə, indi bu münasibətlər müdafiə və milli təhlükəsizlik doktrinası müstəvisində daha da dərinləşdirilir.

TÜRKPA-nın komitə sədrlərinin mütəmadi görüşləri, vahid strateji baxışın formalaşdırılması, ortaq hərbi təlimlər və müdafiə sənayesində əməkdaşlıq türk dövlətlərini hərbi-strateji baxımdan da bir-birinə daha yaxınlaşdırır. Bu amil gələcəkdə türk dövlətləri arasında çevik müdafiə koalisiyasının, yaxud regional təhlükəsizlik mexanizminin yaradılmasına zəmin yarada bilər. Geosiyasi dəyişikliklərin getdikcə daha sərt xarakter aldığı bu dövrdə türk dövlətləri arasında strateji əməkdaşlığın dərinləşməsi təhlükəsiz gələcək naminə tarixi zərurətdir.

***Şəbnəm ZEYNALOVA,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

**İqtisadiyyat Nazirliyinin beynəlxalq təşkilatların ərzaq və əmtəə qiymətləri ilə bağlı proqnozları, manatın məzənnəsinin sabitliyi, tənzimlənən qiymətlərin artırılmaması fərziyyəsi, eləcə də antiinflyasiya tədbirləri nəzərə alınaraq baza ssenaridə cari il üzrə 5,1 faiz proqnozlaşdırılan orta illik inflyasiyanın tədricən azalaraq 2029-cu ildə 3,8 faiz olacağı gözlənilir.**

## Manatın məzənnəsi 2030-cu ilədək sabit qalacaq



### *5 ildə azad edilmiş ərazilərin bərpasına 20 milyard manat vəsait ayrılacaq*

Maliyyə Nazirliyinin hazırladığı “2025-2029-cu illər üzrə ortamüddətli büdcə çərçivəsi”ndə bu barədə geniş məlumat verilib. Bildirilib ki, proqnozlara əsasən, ortamüddətli dövrdə əhalinin gəlirlərinin artaraq 2029-cu ildə 123 milyard manata, xərclərinin isə 119,4 milyard manata qədər yüksələcəyi gözlənilir. İqtisadiyyat Nazirliyinin makroiqtisadi proqnozlarında isə 2026-2029-cu illər üzrə manatın ABŞ dollarına qarşı məzənnəsi isə sabit, cari ilin səviyyəsində gözlənilir.

Proqnozlara əsasən, 2026-cı ilin sonuna ÜDM-in həcmi 136 milyard manat, o cümlədən qeyri-neft-qaz ÜDM-in həcmi 101 milyard manat təşkil edəcəyi, 2029-cu ildə isə ÜDM-in 163 milyard manata qədər, o cümlədən qeyri-neft-qaz ÜDM-in həcmi 129 milyard manata qədər artacağı gözlənilir.

Ortamüddətli dövrdə ÜDM-in real artım tempinin orta illik 3,8 faiz, qeyri-neft-qaz ÜDM-in 5,1 faiz olacağı proqnozlaşdırılır. 2025-ci ildə neft-qaz sektoru üzrə ÜDM-in real ifadədə 1,2 faiz artacağı proqnozlaşdırılır. 2029-cu ildə ÜDM-in tərkibində qeyri-neft-qaz sektorunun payının artaraq 79,4 faizə çatacağı, neft-qaz sektorunun payının isə 20,6 faizə bərabər olacağı proqnozlaşdırılır. Cari ildə ÜDM-in tərkibində qeyri-neft-qaz sektorunun payının isə 71,3 faiz təşkil edəcəyi gözlənilir.

Yuxarıda qeyd edilənlərlə bərabər, sənəddə bu ilin sonuna Azərbaycanın dövlət borcunun (xarici və daxili) ümumi məbləğinin 29 milyard manata çatacağı, bununla da borcun ÜDM-in 22,2 faizini təşkil edəcəyi proqnozlaşdırılır. Eyni zamanda, 2026-2029-cu illərdə dövlət borcunun isə 32,7 milyard manata yüksələcəyi və 2029-cu il üzrə proqnozlaşdırılan ÜDM-in 20,1 faizi qədər olacağı gözlənilir.

“2025-2029-cu illər üzrə ortamüddətli büdcə çərçivəsi”ndə bildirilir ki, qarşıdakı dövrdə Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin yenidən qurulması və bərpası xərclərinin 20 milyard manat təşkil edəcəyi proqnozlaşdırılır. Sənədə əsasən, bu xərclərin dövlət büdcəsinin əsaslı xərclərinin təxminən 30 faizini təşkil edəcəyi bildirilir.

Xatırladaq ki, 2021-2024-cü illərdə Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin yenidən qurulması və bərpası üçün dövlət büdcəsindən 17,6 milyard manat, o cümlədən 2024-cü ildə 5,35 milyard manat vəsait ayrılıb. 2025-ci ildə isə bu istiqamətdə 4 milyard manat vəsait ayrılması nəzərdə tutulub.

Maliyyə Nazirliyinin məlumatına əsasən, “2025-2029-cu illər üzrə ortamüddətli büdcə çərçivəsi”ndə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli fərmanı ilə təsdiqlənən “Ortamüddətli xərclər çərçivəsinin hazırlanması Qaydası”na və “Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsinin hazırlanması haqqında” Nazirlər Kabinetinin 2025-ci il 28 yanvar tarixli sərəncamına əsasən hazırlanıb.

“2025-2029-cu illər üzrə ortamüddətli büdcə çərçivəsi”ndə büdcə siyasətinin əsas istiqamət və hədəflərini, makro-fiskal çərçivəni, milli xərc prioritetlərini, ortamüddətli resurs zərfini, icmal və dövlət büdcələrinin gəlir və xərclərinin proqnozları barədə məlumatları ehtiva edir.

# BP-nin ölkəmizdə sosial missiyası

**(əvvəli 1-ci səhifədə)**




Layihələr BP və tərəfdaşlarının yerli icmaları dəstəkləmək, ölkənin təhsil və texnologiya sahəsində inkişafına töhfə vermək öhdəliyinin bir hissəsidir. Hər üç layihənin uğurla başa çatmasını qeyd etmək üçün BP-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli şirkət və tərəfdaşlarının bir qrup nümayəndəsi ilə birlikdə 14–16 aprel tarixlərində Kürdəmir, Gəncə və Tovuza səfər edib.

BP və tərəfdaşlarının boru kəmərləri boyunca güclü və dayanıqlı icmaların formalaşması üçün öz dəstəklərini davam etdirdiklərini bildirən B.Aslanbəyli deyib: “Ölkənin dayanıqlı gələcəyinə birlikdə töhfə vermək istəyimizə uyğun olaraq, icmalara bu davamlı dəstəyimiz onların rifahının və inkişafının təmin edilməsinə xidmət edir. İnanırıq ki, bu gün uğurunu qeyd etdiyimiz hər 3 layihə əməliyyatlarımızın qonşuluğunda yerləşən icmaların rifahına və inkişafına ciddi dəstək olacaq”.

Qeyd edək ki, sosial layihələrin birincisi “Məcburi köçkünlər üçün peşə bacarıqlarının inkişafı” proqramı adlanır. Layihə 30 illik işğaldan sonra öz evlərinə qayıdan Qarabağdan olan məcburi köçkünləri peşə bacarıqları ilə təmin etməklə onların gəlir imkanlarını artırmaq məqsədi daşıyır. Kürdəmir rayonunda müvəqqəti məskunlaşmış məcburi köçkünlər üçün nəzərdə tutulmuş layihə çərçivəsində icra olunmuş proqramda iştirak edən 25 qadın məcburi köçkün xüsusi təlim keçməklə dərzi və vizajist peşələri üzrə sertifikatlar alıblar. Peşə təlimi ilə yanaşı, iştirakçılara biznesin idarə edilməsi və inkişafı metodları da öyrədilib.

Yeri gəlmişkən, Azərbaycan hökumətinin dayanıqlı inkişaf məqsədlərinə uyğun olaraq, layihə məcburi köçkünlərin azad edilmiş torpaqlarda evlərinə qayıdaraq firavan və dayanıqlı həyat qurmalarını nəzərdə tutan “Böyük Qayıdış” təşəbbüsünü dəstəkləyir. İqtisadi və Sosial İnkişaf Mərkəzi İctimai Birliyi tərəfindən həyata keçirilən layihənin dəyəri 77 min 90 manat (təxminən 45 min 347 ABŞ dolları) təşkil edib.

“Gəncə Texnologiya Universitetində kibertəhlükəsizlik sahəsində potensialın artırılması” layihəsinin məqsədi isə dövlət və özəl sektordan olan şəxslər və təşkilatlar da daxil olmaqla müxtəlif maraqlı tərəflərin kibertəhlükəsizlik risklərinə qarşı mübarizə aparmaq üçün bilik, bacarıq və səriştələrlə təmin edilməsidir. Layihə çərçivəsində Gəncə Texnologiya Universitetində yeni elmi-metodoloji tədqiqat və təlim mərkəzi yaradılıb ki, bu da universitetlə yanaşı, bütövlükdə, Gəncə-Qazax iqtisadi regionunun kibertəhlükəsizlik potensialını artırmağa xidmət edəcək. Sözügedən layihənin dəyəri zəruri avadanlıq və proqramların alınması da daxil olmaqla 72 min 200 manatdan (42 min 475 dollar) çoxdur.

“Tovuz rayonunda ənənəvi su mənbələrinin bərpası” layihəsi isə BP şirkəti tərəfindən icra olunub. 2024-cü ildə kəhriz ustalarının – kankanların təlimi ilə başlayan layihənin əsas məqsədi Tovuz rayonunun Aşağı Quşçu kəndi yaxınlığında yerləşən Dovşanlı və Məhəmmədağalı kəhrizlərinin bərpası vasitəsilə təmiz suya çıxışın azalması problemini həll etmək idi. Həmin ilin iyun ayında hər iki kəhriz sisteminin təmizlənməsi və sabitləşdirilməsi üçün bərpa işlərinə başlanıb. İşlərin uğurla başa çatdırılması nəticəsində, təxminən, 15 min nəfərdən ibarət Aşağı Quşçu icması təmiz su ilə təmin edilib.

Dovşanlı kəhrizinin suyu boru sistemləri vasitəsilə kəndə yönəldilib və hazırda məişət ehtiyacları üçün istifadə olunur. Məhəmmədağalı kəhrizinin suyu isə kəndin əkin sahələrinə yönəldilib və 636 hektar icma torpaqlarının suvarılması üçün istifadə edilir. Puls-R MMC tərəfindən həyata keçirilən layihənin ümumi dəyəri 1 milyon 282 min 227 manat (754 min 251 dollar) təşkil edib. Layihə “İcma tərəfindən idarə olunan su sistemləri” proqramının bir hissəsidir.

# Daşkəsən də xəzinəmizə qızıl verir




**Ölkəmizdə qızıl, gümüş və mis hasilatı ilə məşğul olan Böyük Britaniyanın “Anglo Asian Mining Plc.” şirkəti bu ilin may ayında Daşkəsən rayonunda yerləşən “Gilar” qızıl yatağında tammiqyaslı hasilata başlamağı planlaşdırır.**

Şirkətdən verilən məlumata görə, cari ilin mart ayında ilk filiz hasilatına başlanıldığı “Gilar” mədəninin “4-cü zona”sında hazırda işlər uğurla davam etdirilir. Burada filiz ehtiyatları 2,4 milyon ton həcmində qiymətləndirilir. Filiz ehtiyatlarında misin miqdarı 1,47 faiz, qızılın miqdarı isə 1,78 q/t təşkil edir. “Anglo Asian Mining Plc.” şirkətinin bir qədər əvvəl yaydığı məlumatda qeyd olunub ki, yaxın aylarda “Gilar”da istehsalın tədricən artırılması və aylıq 50-60 min ton filiz hasilatına nail olunması planlaşdırılır. Ümumilikdə isə, bu il sözügedən yataqdan, təxminən, 400 min ton filiz hasil edilməsi nəzərdə tutulur.

Xatırladaq ki, “Gilar” yatağı Gədəbəy müqavilə sahəsində şirkətin emal obyektlərindən, təxminən, 7 kilometr məsafədə yerləşir. Yatağın JORC standartı üzrə ümumi mineral ehtiyatları 54 min ton mis və 255 min unsiya qızıl təşkil edir.

Böyük Britaniya şirkəti hazırda “Gədəbəy” və “Qoşa” müqavilə sahələrindən qiymətli metal hasil edir. 1997-ci il avqust ayının 21-də imzalanmış müqavilə 6 yatağın işlənməsini nəzərdə tuturdu. Müqavilədə Azərbaycanın payı 51 faiz, “Anglo Asian Mining PLC” şirkətinin isə 49 faiz təşkil edir. Bütövlükdə isə, hazırda şirkət Azərbaycanda 8 müqavilə sahəsini işləmək hüququna malikdir.

Bir məqamı da qeyd edək ki, Azərbaycanda qızıl yataqlarının işlənməsi üzrə operator olan “Anglo Asian Mining PLC” şirkəti 2025-ci ilin birinci rübündə 8,085 min unsiya qızıl ekvivalentində qiymətli metal hasil edib. Bu isə 2024-cü ilin müvafiq dövrünün göstəricisindən 3,2 dəfə çoxdur. Şirkət hesabat dövründə 6,029 min unsiya qızıl (artım 2,7 dəfə), 534 min ton mis (artım 9,9 dəfə) və 30,321 min unsiya gümüş (artım 4,7 dəfə) hasil edib. Yanvar-mart aylarında “Gədəbəy” yatağından 5,758 min unsiya qızıl (artım 2,54 faiz) və 8,212 min unsiya gümüş (artım 5,4 dəfə) hasil olunub.

“Anglo Asian Mining PLC” şirkətinin məlumatına əsasən, 2025-ci ilin ilk rübündə dünya bazarlarında qızıl külçə satışları 4,753 min unsiya (artım 21,1 faiz), orta satış qiyməti isə 2,843 min ABŞ dolları/unsiya təşkil edib. Ötən ilin yanvar-mart aylarında isə şirkət tərəfindən qızıl külçənin bir unsiyasının orta satış qiyməti 2,08 min dollara bərabər olub. Ümumilikdə isə, Böyük Britaniya şirkəti bu ilin ilk 3 ayında qızıl satışından 13,5 milyon dollar gəlir əldə edib ki, bu da əvvəlki ilin eyni dövrünə nisbətən 5,3 milyon dollar və ya 65,4 faiz çoxdur.

Şirkət bu il martın 31-i tarixinə ümumi dəyəri 7,1 milyon ABŞ dolları olan satılmamış qiymətli metal ehtiyatlarına malik olub. Eyni zamanda, istehsalçı şirkətin nağd pul vəsaitlərinin həcmi 12,5 milyon dollar (31 dekabr 2024-cü il tarixinə 7,1 milyon dollar), xalis borcu isə 8,8 milyon dollar (31 dekabr 2024-cü il tarixinə 14,8 milyon ABŞ dolları) təşkil edib.

Strateji inkişaf planına əsasən, “Anglo Asian Mining Plc.” şirkəti 2029-cu ilə qədər orta səviyyəli çoxprofilli mis və qızıl istehsalçısına çevrilməyi planlaşdırır. Həmin vaxta qədər mis şirkətin əsas məhsulu olacaq və hasilat, təqribən, 50-55 min ton həcmində proqnozlaşdırılır. Şirkət bu artıma 2025-2029-cu illərdə “Zəfər”, “Gilar”, “Xarxar” və “Qaradağ” yataqlarında 4 yeni mədənin istismara verilməsi hesabına nail olmaq niyyətindədir.

Yeri gəlmişkən, 2025-ci ilin ilk üç ayında Azərbaycanda faydalı qazıntıların hasilatı üzrə uğurlu nəticələr əldə edilib. Hesabat dövründə ölkədə qızıl, gümüş və mis kimi dəyərli metalların istehsalında ciddi artım müşahidə olunub. Statistik məlumatlara əsasən, qızıl hasilatı ötən ilin eyni dövrü ilə müqayisədə 75 faizdən çox artaraq 749,4 kiloqrama yüksəlib. Bu, son dövrlərin ən yüksək göstəricilərindən biri hesab oluna bilər. Hazırda ölkədə qızıl ehtiyatı 100,1 kiloqram təşkil edir.

Ölkədə gümüş hasilatında da nəzərəçarpan artım qeydə alınıb. Bu ilin birinci rübündə 1135,9 kiloqram gümüş hasil edilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 35,3 faiz çoxdur. Gümüş ehtiyatı isə 685,9 kiloqram səviyyəsindədir.

Hesabat dövründə ölkə üzrə mis konsentratı hasilatı 531,3 ton təşkil edib. Bu növ məhsul üzrə isə əvvəlki ilin eyni dövrü ilə müqayisədə 9,8 dəfə artım baş verib. Bu sahədə hazır məhsul ehtiyatı 176,4 ton təşkil edir.

Göründüyü kimi, son illər Azərbaycanda yeraltı sərvətlərdən daha səmərəli şəkildə istifadə olunur ki, bu da ölkənin ixrac potensialının artırılmasına müsbət təsir göstərir.

# 1 ildə ACE platformasından 852 min ton neft çıxarılıb

**“Azəri–Çıraq–Günəşlı” (AÇG) yataqlar blokunda yerləşən “Azəri Mərkəzi Şərqi” (ACE) platformasından ilk neft hasilatına başlanılmasının 1 ili tamam olur. “Əsrin müqaviləsi” çərçivəsində Xəzər dənizinin Azərbaycan sektorunda quraşdırılmış sayca 7-ci hasilat platformasından ötən 1 il ərzində 852 min ton neft çıxarılıb. Bu barədə Energetika Nazirliyi məlumat yayıb.**

Bildirilib ki, ACE texnoloji və rəqəmsal baxımdan ən qabaqcıl platformalardan biridir. Onun innovativ layihələndirilməsi insan əməyi tələb edən prosesləri avtomatlaşdırmağa imkan verir. Bu da əməliyyatların daha təhlükəsiz və səmərəli aparılmasını təmin edir.



**Dövlət Statistika Komitəsinin məlumatına əsasən, bu ilin yanvar-mart aylarında ölkədə 1302 ədəd və ya 2024-ci ilin müvafiq ayları ilə müqayisədə 695 ədəd və yaxud 2,1 çox minik avtomobili istehsal olunub. Bununla da respublikada 134 ədəd hazır məhsul ehtiyatı yaranıb.**

## Bu il minik avtomobili yığılması 2 dəfə artıb



### *Ölkəmizdə 1300-dən çox maşın buraxılıb*

Hesabat dövründə ölkədə 144,1 milyon manat dəyərində maşın və avadanlıq, nəqliyyat vasitələri, avtomobil, qoşqu və yarımqoşqular istehsal edilib. 2024-cü ilin birinci rübü ilə müqayisədə maşın və avadanlıqların istehsalı 20,9 faiz, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 3,1 faiz artıb.

Bu ilin birinci rübündə Azərbaycanda 124 ədəd traktor istehsal edilib. Bu, 2022-ci ilin ilk 11 ayı ilə müqayisədə 25,3 faiz azdır. Nəticədə cari il aprelin 1-nə ölkədə 11 ədəd hazır məhsul ehtiyatı yaranıb.

Eyni zamanda, bu ilin ilk 3 ayında Azərbaycanda 28 ədəd yük avtomobili istehsal edilib ki, bu da 2024-cü ilin yanvar-mart aylarının göstəricisi ilə müqayisədə 86 faiz azdır. Nəticədə bu il aprelin 1-nə ölkədə 15 ədəd hazır məhsul ehtiyatı yaranıb.



## Əhalinin gəlirləri 6 faiz də artıb

Dövlət Statistika Komitəsinin yaydığı məlumata əsasən, cari ilin yanvar-mart aylarında ölkə əhalisinin nominal gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 6,6 faiz artaraq 20 milyard 691 milyon manat və ya hər nəfərə orta hesabla 2 min 22,6 manat olub.

Məlumatda qeyd edilir ki, əhalinin sərəncamında qalan gəlirləri 18 milyard 85 milyon manat təşkil edib.

## İnformasiya və rabitə sektoruna yatırım çoxalıb



**Azərbaycanın informasiya və rabitə sektoruna investisiya qoyuluşu getdikcə artır. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin yanvar-mart aylarında sözügedən sektora 77,1 milyon manat investisiya qoyulub. Bu isə 2024-cü ilin eyni dövrü ilə müqayisədə 36,8 faiz çoxdur.**

Komitənin məlumatında bildirilib ki, təkcə mart ayında informasiya və rabitə sektoruna investisiya qoyuluşu 27 milyon manat olub ki, bu da 1 il əvvələ nisbətən 34 faiz artıqdır. Bütövlükdə isə, cari ilin birinci rübündə ölkə iqtisadiyyatına yönəldilmiş ümumi investisiyanın 2,2 faizi məhz bu sektorun payına düşüb.

Xatırladaq ki, 2024-cü ildə ölkənin informasiya və rabitə sektoruna investisiya qoyuluşu 630,4 milyon manat olub. Bu da 2023-cü illə müqayisədə 59,5 faiz çoxdur.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Elmlər Akademiyası XX əsrdə tarixi zərurətdən yarandı

> **“Yalnız akademiyanın möhtəşəm keçmişinə məmnunluqla baxmaq kifayət deyil, həm də, ilk növbədə, yeni fəaliyyət sahələrini inkişaf etdirmək, elmin həqiqətən də texnoloji və ictimai tərəqqinin əsas mənbəyinə çevrilməsi üçün istiqamətlər müəyyənləşdirmək lazımdır”.**
>
> ***S.İ.VAVİLOV, akademik***



**SSRİ EA-nın prezidenti, akademik M.Keldış Azərbaycan SSR EA-nın Fizika İnstitutunda. Şəkildə (soldan): akademiklər H.Abdullayev, A.Paşayev, institutun əməkdaşları və akademik M.Keldış**

*(əvvəli ötən sayımızda)*

AMEA sadəcə elmi müəssisə deyil, milli intellektual strategiyanın aparıcı mərkəzidir. Bu istiqamətdə yeni tədqiqat institutlarının yaradılması, interdisiplinar yanaşmaların təşviqi və beynəlxalq əməkdaşlığın gücləndirilməsi akademiyanın qarşıdakı dövr üçün əsas prioritetləri olmalıdır.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin “525-ci qəzeti”nin 7 fevral 2025-ci il və “ELM” qəzetinin 14 fevral 2025-ci il tarixli nömrələrində AMEA-nın 80 illiyinə həsr edilmiş “Azərbaycanın elm məbədi və simaları” məqaləsində onun inkişaf tarixini mərhələlər üzrə tədqiq etmiş və 80 illik fəaliyyətini dövrlərə ayırmışdır.

Onun dövrləşdirməsi konsepsiyası:

### 1945–1969-cu illər – akademiyanın elmi-təşkilati strukturunun qurulması və elmin əsaslarının yaradılması dövrü

Bu ilk onilliklərdə akademiya formalaşaraq elmi müəssisələrin şəbəkəsini yaratdı.

Bu dövr Azərbaycanda sovet elmi modelinin tətbiqi ilə səciyyələnir. Akademiyanın yaradılması elmin mərkəzləşdirilmiş şəkildə inkişaf etdirilməsi siyasətinə uyğun idi. Bu illərdə əsas diqqət təbii resursların öyrənilməsinə, dil və ədəbiyyatın tədqiqinə, həmçinin ölkənin sənaye və kənd təsərrüfatı potensialının elmi əsaslarla inkişafına yönəlmişdi. Elmlər Akademiyası SSRİ EA sisteminə inteqrasiya olunmuş və Moskva ilə sıx əlaqələr qurmuşdu. Bu dövr, eyni zamanda, milli kadrların yetişdirilməsi baxımından da mühüm idi – gənc alimlərin Moskvaya və Leninqrada ezam olunaraq orada təhsil alması geniş vüsət almışdı.

### 1969–1982-ci illər – ümummilli lider Heydər Əliyevin adı ilə bağlı mərhələ

Həmin dövrdə Heydər Əliyevin respublikaya rəhbərlik etməsi ilə Azərbaycan Elmlər Akademiyası hərtərəfli inkişaf etdirildi və keçmiş SSRİ miqyasında xüsusi nüfuz qazandı.

Akademiya bu illərdə ittifaq daxilində və xaricində böyük elmi mərkəzlərdən biri kimi tanınmağa başladı.

Bu mərhələni “qızıl dövr” adlandırmaq olar. Heydər Əliyev elmin inkişafına xüsusi önəm verir, elm xadimlərinin sosial vəziyyətinin yaxşılaşdırılması üçün addımlar atırdı. Yeni institutlar yaradıldı, texniki elmlərin inkişafı sürətləndi, və ən əsası, milli elmin beynəlxalq tanınması üçün zəmin yaradıldı. Azərbaycan EA-nın nüfuzu artdı və bir çox alimlər ittifaq və beynəlxalq səviyyədə mükafatlara layiq görüldü. Elmi jurnalların, elmi konfransların sayı artdı, elmi-tədqiqat institutlarının maddi-texniki bazası möhkəmləndirildi.

### 1983–1993-cü illər tənəzzül və böhran dövrü

Sovet İttifaqının son illərində baş qaldıran durğunluq və ilk müstəqillik illərindəki siyasi-iqtisadi böhran elmi fəaliyyətə mənfi təsir göstərdi.

Bu dövr elmi sahədə sabitliyin pozulduğu, maliyyə resurslarının azaldığı və bir çox elmi layihələrin dayandırıldığı zaman idi. SSRİ-nin süqutu ilə bağlı resursların kəsilməsi, əməkhaqqı və təminat məsələlərinin pisləşməsi, alimlərin xaricə axını (beyin axını) bu illərə xasdır. Bu dövrdə bir çox institutların fəaliyyəti ya donduruldu, ya da minimum səviyyəyə endirildi. Üstəlik, müstəqilliyin ilk illərindəki sosial-siyasi gərginlik elmi mühitin stabil fəaliyyətini mümkünsüz edirdi.

### 1993–2003-cü illər – dövlət müstəqilliyi dövründə yenidən təşkilatlanma və dirçəliş mərhələsi

1993-cü ildə Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra akademiyanın da fəaliyyətində dönüş yarandı. Xüsusilə, 31 yanvar 1997-ci il tarixində Prezident Heydər Əliyev AMEA rəhbərliyi və alimlərlə tarixi görüş keçirərək, akademiyanın inkişafı üçün vacib istiqamətləri müəyyənləşdirdi.

Həmin görüşü, faktiki olaraq, Akademiyanın 50 illik yubileyinin gecikmiş qeyd olunması kimi hesab etmək olar, belə ki,

**Arif HƏŞİMOV, akademik**

akademiyanın 50 illik yubileyi 1995-ci ildə qeyd edilməmişdir.

15 may 2001-ci il tarixində Prezident Heydər Əliyevin sərəncamı ilə Elmlər Akademiyasına “Milli” statusu verildi və bununla da müstəqillik dövrünün ali elmi qurumu kimi formalaşması başa çatdı.

Bu illər elmin dövlət tərəfindən prioritet sahə elan olunduğu dövr oldu. Heydər Əliyevin şəxsən elmi ictimaiyyətlə görüşməsi bu sahəyə verilən yüksək qiymətin göstəricisi idi. “Milli” statusun verilməsi isə həm ideoloji, həm də hüquqi baxımdan AMEA-nın müstəqil və suveren Azərbaycan elminin simvoluna çevrildiyini göstərirdi. Elmi fəaliyyətin stimullaşdırılması üçün yeni dövlət proqramları qəbul olundu. Bu dövrdə AMEA-nın xarici əlaqələri də bərpa olunmağa və genişlənməyə başladı.

### 2003–2022-ci illər – modernləşmə dövrü

Bu illərdə akademiyada elmi infrastruktur yeniləndi, beynəlxalq elmi əməkdaşlıq genişləndi və yeni elmi istiqamətlər inkişaf etdirildi.

Bu mərhələdə Prezident İlham Əliyev tərəfindən elmə göstərilən diqqət sayəsində AMEA-da müasir texnologiyalarla təchiz olunmuş laboratoriyalar yaradıldı. Beynəlxalq layihələrə qoşulmaq imkanı yarandı, müxtəlif fondlardan qrant alma mexanizmləri təkmilləşdi. Əsasən, təbiət və texniki elmlərlə yanaşı, humanitar elmlər sahəsində də rəqəmsallaşma və innovasiya istiqamətləri inkişaf etdirildi. Gənc alimlərin fəaliyyətinin dəstəklənməsi məqsədilə müxtəlif təqaüd proqramları və müsabiqələr təşkil olundu.

### 2022-ci ildən sonra – yeniləşmə və islahatlar dövrü

28 iyul 2022-ci il tarixli fərmanla ölkədə elm və təhsilin idarəedilməsi yenidən təşkil olundu və AMEA-nın strukturu optimallaşdırıldı.

Hazırkı mərhələdə AMEA dövlətin elm siyasətinə uyğun islahatları davam etdirir.

Elm və təhsilin inteqrasiyasına yönələn bu mərhələ, həm struktur baxımından, həm də funksional olaraq yeni yanaşmalar tələb edir. Bu dövrdə institutlar arasında sinerji yaratmaq, tətbiqi tədqiqatlara önəm vermək və innovasiyaların iqtisadiyyata transferi əsas prioritetlərdəndir. AMEA-nın struktur islahatları onu daha çevik və məhsuldar bir elmi təşkilata çevirmək məqsədi daşıyır. Dövlət səviyyəsində rəqəmsal transformasiya və beynəlxalq reytinqlərə çıxış məsələləri də ön plandadır.



Akademik İsa Həbibbəylinin bu dövrləşdirmə konsepsiyası AMEA-nın tarixini sistemli şəkildə anlamağa imkan verir və hər mərhələnin ölkənin ümumi tarixi kontekstinə uyğunluğunu göstərir.



**AMEA və Fizika İnstitutu ilə Avropa Nüvə Tədqiqatları Təşkilatı arasında Protokolun imzalanması. Protokolu Akademiyanın Prezidenti, akademik Mahmud Kərimov (2001–2013-cü illər), Fizika İnstitutunun direktoru, akademik Arif Həşimov, ANTT-nin baş direktoru Robert Aymar imzalamışlar.**

Konsepsiyanın uyğunluğunun əsaslı olmasını akademik Budaq Budaqovun Azərbaycan Respublikasının Prezidenti cənab H.Əliyevə 1996-cı il noyabr ayında ünvanladığı müraciətdə əks etdirdiyi ifadələri göstərməklə kifayətlənmək olar.

***“Möhtərəm Prezident!***

***İcazə verin, ilk növbədə, Sizi – xalqımızın uzaqgörən, müdrik, ağıllı düşünülmüş daxili və xarici siyasət yeridən, beynəlxalq aləmdə sanballı çəkisi olan Vətən oğlunu salamlayım.***

***Möhtərəm Prezident! Mən əminəm ki, Siz bu yaxın zamanlarda Azərbaycan EA-nı mövcud iqtisadi böhrandan çıxaracaq, şöhrəti Azərbaycan elminə, o elmin yaradıcılarına dayaq olacaq, son yeddi il ərzində hökm sürən dərin iqtisadi, həm də mənəvi və sosial tənəzzüldən tezliklə xilas olmaq üçün biz yaradıcı alimlərə kömək əlinizi uzadacaq, müdrikliyinizə xas uzaqgörənliklə bir sıra tədbirlər həyata keçirəcəksiniz.”***

Doğrudan da, AMEA-nın keçdiyi yola nəzər salsaq görərik ki, akademiyanın fəaliyyəti hər zaman həm dövrün tələblərinə cavab verməyə, həm də milli kimliyi və dəyərləri qorumağa yönəlmişdir. AMEA-nın bu yanaşması onun fəaliyyətini yalnız elmi nailiyyətlərlə məhdudlaşdırmır, həm də milli-mədəni identikliyi gücləndirən, ictimai yaddaşı qoruyan strateji qurum kimi fəaliyyət göstərməsinə şərait yaradır. Belə bir yanaşma müstəqil dövlətçiliyin möhkəmlənməsində elmi qurumların rolunu ön plana çıxarır.

Azərbaycan Milli Elmlər Akademiyası özünün 300 illik yubileyini qeyd etmiş Rusiya Elmlər Akademiyasının (tarixin məlum bir dövründə SSRİ Elmlər Akademiyası kimi fəaliyyət göstərmiş) tam bənzəri kimi yaradılmışdır. Bu bənzərlik sırf struktur və təşkilati modelə əsaslansa da, sonradan milli akademiyaların öz kontekstlərinə uyğun spesifik xüsusiyyətlər qazandığını görmək mümkündür. Xüsusilə də, Azərbaycanın tarixi və təbii resursları ilə bağlı spesifik elmi istiqamətlərin inkişafı bunun göstəricisidir.

Müttəfiq respublikalarda və SSRİ-nin digər regionlarında Elmlər Akademiyasının yaradılmasının İkinci Dünya müharibəsinin sona çatması dövrünə təsadüf etməsi, demək olar ki, dağıdılmış, milyonlarla insan tələfatı ilə, o cümlədən ixtisaslı mütəxəssilərin itirilməsi ilə nəticələnmiş bir ölkədə müharibədəki qələbəyə elm xadimlərinin, görkəmli yazıçıların, şairlərin, bəstəkarların, konstruktorların, elmi-tədqiqat və lahiyə-konstruktor mərkəzlərinin və s. xüsusi xidmətləri və verdikləri əvəzsiz töhfələri ilə bağlı olması kimi qiymətləndirmək olar. Alimlərin hərbi və sənaye sahələrində gördüyü işlər, xüsusilə də texnoloji yeniliklərin tətbiqi, Azərbaycanın elmi mühitində tətbiqyönlü elmi araşdırmaların üstünlük təşkil etməsinə səbəb oldu. Bu yanaşma bu gün də aktualdır – tətbiqə yönəlik elm dövlətlərin strateji üstünlüyünün əsaslarından biri hesab olunur.

S.İ.Vavilov adına Sankt-Peterburq Təbiət Elmləri və Texnika Tarixi İnstitutunun (REA, Sankt-Peterburq, Rusiya) Sankt-Peterburq filalının baş elmi işçisi, tarix elmləri doktoru Smagina Qalina İvanovna (Г.И.Смагина. Академический гравер А.Я.Колпашникова. ВЕСТНИК РОССИЙСКОЙ АКАДЕМИЙ НАУК, 2019 том 89, N 6, c. 615-620) Rusiya Elmlər Akademiyasının təşkilinin əhəmiyyətini belə ifadə edir: “22 yanvar 1724-cü ildə İdarəetmə Senatı tərəfindən təsdiq edilmiş Petrovskinin “Akademiyanın yaradılması haqqında Əsasnamə layihəsi"nə əsasən onun "İncəsənət və Elmlər Cəmiyyəti" olacağı hesab edilirdi. Onun özündə müxtəlif qurumları–elmi-tədqiqat–akademiya, tədris – gimnaziya və universitet, köməkçi sənət emalatxanaları (o zaman palatalar adlanırdı) – alət, metal işləmə, tokarlıq, kitabçılıq, tökmə, oyma, rəsm və s. birləşdirəcəyi nəzərdə tutulurdu. Bu çoxprofilli struktur klassik Avropa akademiyalarının modelindən qaynaqlanır və müasir dövr üçün də aktual hesab olunur. Elmlərin sintezini, elmi-tədris və praktiki tətbiqi bir arada tutan bu model XXI əsrin akademik institutlarının da əsas hədəfi olaraq qalır.

Sankt-Peterburq Elmlər Akademiyası yaradılanda, onun heyətinə bir rəssam və bir qravüraçı əlavə edilmişdir. Onların vəzifələrinə elmi nəşrləri illüstrasiya etmək aid edilmişdir. Bu fakt elmin yalnız mətnə deyil, vizual təmsilinə də ehtiyac duyduğunu göstərir. Elmi-populyar nəşrlərin keyfiyyətli təsviri, geniş auditoriyaya çatmaqda mühüm rol oynayır. Rəssam və qravüraçıların iştirakı həm də estetik şüurun elmə daxil olmasına işarədir.

“Akademiyanın yaradılması haqqında Əsasnamə layihəsi"ndə də bu barədə belə deyilir: “Elmlər üzrə hazırlanacaq nəşrlərin (əgər qorunub saxlanılsa və çap olunsa) surətini çıxarmaq və qravüra vermək mütləq lazım olduğundan, rəssam və qravüraçının olması mütləqdir”. Yardımçı müəssisələrin olması Avropadan dəvət olunmuş alimlər üçün əhəmiyyətli və cəlbedici amil oldu. Belə ki, akademik-fizik G.B. Bülfinger, gələcək akademik-şərqşünas G.Z. Bayerə 1725-ci il noyabrın 10-da Sankt-Peterburqdakı yaşayış şəraiti və akademiyada işləməsi haqqında yazırdı: “Reqlamentlər və imtiyazlarımız artıq müəyyən edilib. Bizim əla kitabxanamız, zəngin təbiət palatamız, minzkabinetimiz, oyma maşını olan öz mətbəəmiz və elmlərin inkişafı üçün lazım olan hər şey var... Əminəm ki, heç bir akademiyada və ya universitetdə belə imtiyazlar və belə bir təminat yoxdur”.

Rusiya Elmlər Akademiyasının ilk dəvət olunan üzvləri sırasında isveçrəli riyaziyyatçı, fizik və astronom Leonard Eyler də var idi. Onun yaradıcılığı 17 may 1727-ci ildən Rusiya Elmlər Akademiyası ilə sıx bağlı olmuşdur.

“Kommunist” qəzetinin 9 may 1985-ci il tarixli nömrəsində qeyd edilir ki, üç dəfə Sosialist Əməyi Qəhrəmanı, SSRİ Elmlər Akademiyasının prezidenti A.P.Aleksandrov “Böyük qələbənin sönməz şəfəqi. Böyük Vətən müharibəsində sovet xalqının Qələbəsinin 40 illiyi münasibəti ilə Kremlin Qurultaylar sarayında təntənəli yığıncaq”dakı çıxışında demişdir: “Sovet alimləri Vətənimizin təhlükəsizliyini təmin etməyi özlərinə ümdə vəzifə bilirdilər. Böyük Vətən müharibəsi dövründə bir çox alim vuruşurdu, digərləri isə arxada institutlarda və zavodlarda, müxtəlif ekspedisiyalarda, habelə cəbhə şəraitində gərgin işləyirdilər. Onların köməyi ilə həm yeni silah növləri, həm də silah hazırlanmasının yeni texnologiyaları yaradılmış, bir çox lazımi materiallar tapılmışdır”. Bu yanaşma Sovet ideologiyasında elmin yalnız intellektual fəaliyyət deyil, həm də müdafiə və quruculuq aləti kimi təqdim edilməsinin nümunəsidir. Alimin vətənpərvərlik simvoluna çevrilməsi həm də elmin kütləviləşdirilməsi siyasətinə xidmət edirdi.

Eyni zamanda, nəzərə alınmışdır ki, İkinci Dünya müharibəsində keçmiş SSRİ-nin döyüşlər gedən ərazilərindən, o cümlədən Moskva və Leninqrad şəhərlərinin müdafiə əhəmiyyətli zavod və fabrikləri ilə yanaşı, elmi-tədqiqat institutları, muzeylər, kitabxanalar və s. müəssisələr əməkdaşları ilə birlikdə müttəfiq respublikalara köçürülmüşdür. Müharibədən sonra köçürülən müəssisələrin bazasında yeni tədqiqat mərkəzlərinin yaradılması məqsədəuyğun hesab edilmiş, əməkdaşların bir qismi isə fəaliyyətlərini respublikada qalan müəssisələrdə davam etdirmişlər. Bu miqyaslı elmi relokasiya ölkənin yalnız müharibə dövrü təhlükəsizliyi üçün deyil, həm də gələcək elmi potensialın bölgələr üzrə yenidən qurulması üçün istifadə olundu. Azərbaycanda bu dövrün elmi mühiti əhəmiyyətli şəkildə zənginləşdi.

1941-ci ildə, İkinci Dünya müharibəsinin ən çətin günlərində, dahi Azərbaycan şairi Nizami Gəncəvinin SSRİ-nin mədəni paytaxtı sayılan Leninqradda (hazırkı Sankt-Peterburq) 800 illik yubileyinin qeyd edilməsi, elm nümayəndələrinə və mütəfəkkirlərə verilən yüksək qiymətin bariz nümunəsidir. Bununla bağlı “Leninqradskaya Pravda” qəzetində təqdim olunan materialda, tədbirin “mühasirə şəraitində yaşayan şəhər əhalisinin qələbə ruhunun yüksəlməsinə şərait yaratdığı” vurğulanmışdır.

Azərbaycanda 1945-ci ilə qədər fəaliyyət göstərən bir qrup elmi təşkilatın bazasında akademik qurumun təsis edilməsi “Böyük Oktyabr ideyalarının Azərbaycanda təntənəsi” (Bakı: Elm, 1987. – 352 səh.) belə şərh edilir: Respublikada 1923-cü ildə təsis olunmuş Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinə Azərbaycanın məşhur yazıçısı və ictimai xadimi, o zaman SSRİ Elmlər Akademiyasının ölkəşünaslıq bürosunun müxbir üzvü olan Əbdürrəhim bəy Haqverdiyevin rəhbərliyi dövrünün əvvəllərində cəmiyyətin üç bölməsi – tarix-etnoqrafiya, iqtisadi və təbiət elmləri bölmələri var idisə, 1925-ci ildə bunlara dördüncüsü – türkologya bölməsi əlavə olunmuşdur. Cəmiyyət 1923–1928-ci illər ərzində Azərbaycanın tarix və iqtisadiyyatına, Azərbaycan xalqının mədəniyyətinin müxtəlif məsələlərinə həsr olunmuş 50-dək kitab və kitabça nəşr etdirmişdir. 1929-cu ildə Cəmiyyət Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutuna çevrildi və 1932-ci ildə bunun əsasında əvvəlcə SSRİ Elmlər Akademiyası Zaqafqaziya filialının Azərbaycan şöbəsi, 1935-ci ildə isə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı yaradıldı. Onun tərkibinə kimya, botanika, zoologiya, tarix, etnoqrafiya və arxeologiya, dil və ədəbiyyat institutları, geologiya, fizika, energetika, torpaqşünaslıq bölmələri daxil idi. Bu təşəbbüs yalnız ideoloji tələblərin deyil, həm də regional elmi inkişafın təminatçısı idi. Burada mərkəzi planlaşdırma ilə yerli ehtiyacların sintezini müşahidə edirik. Beləliklə, AMEA yalnız sovet modelinin bir parçası deyil, həm də yerli elmi düşüncənin daşıyıcısına çevrildi.

Azərbaycan filialı əməkdaşlarının ümumi sayı 1940-cı ildə 800 nəfərə yaxın idi, onlardan 30 nəfər elmlər doktoru, 50 nəfəri isə elmlər namizədi idi. Bu dövrdə respublikada elmi idarələrin sayı 40-a çatmışdır ki, onlarda 1900 nəfər çalışırdı, ali məktəblərdə isə 14 mindən çox tələbə oxuyurdu. Bu artım yalnız kəmiyyət göstəricisi deyil, həm də intellektual resursların sistemli şəkildə təşkil olunduğunu göstərir. Bu da Azərbaycanda müasir elmi mühitin formalaşması baxımından həlledici mərhələ hesab edilə bilər.

**(ardı var)**

# Azərbaycan süni intellekt məkanında qlobal rəqabət qabiliyyətini gücləndirir

**Müsahibimiz Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İnformasiya Texnologiyaları İnstitutunun şöbə müdiri, iqtisad üzrə fəlsəfə doktoru Rasim Mahmudovdur.**



**– Bildiyiniz kimi, bu yaxınlarda Prezident İlham Əliyev "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası"nı təsdiq etmişdir. Belə bir sənədin qəbul edilməsi hansı zərurətdən irəli gəlirdi?**

– Əvvəla, qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə son illər ərzində rəqəmsallaşma sahəsində mühüm addımlar atılmış, elektron dövlətin inkişafında, rəqəmsal xidmətlərin göstərilməsində, iqtisadiyyatın müxtəlif sahələrində süni intellekt texnologiyaları geniş tətbiqi sahəsində müəyyən uğurlar əldə edilmişdir. Ölkəmizin müvafiq tədqiqat mərkəzlərində süni intellektlə bağlı aparılan tədqiqatların başlanğıcı isə ötən əsrin ortalarına gedib çıxır və bu sahədə bir sıra elmi nailiyyətlər qazanılmışdır. Eyni zamanda, Azərbaycanın müvafiq ali məktəblərində də uzun müddətdir ki, süni intellekt üzrə kadrlar hazırlanmaqdadır. Lakin son vaxtlar ölkəmizdə süni intellektlə bağlı həyata keçirilən bu prosesləri daha sistemli, davamlı, çevik və məqsədyönlü etmək üçün institusional çərçivənin müəyyən edilməsi – "strateji yol xəritəsi"nin hazırlanması zərurəti yaranmışdı.

Eyni zamanda, qlobal mühitdə süni intellektin inkişafı ilə bağlı baş verən son tendensiyalar da belə bir strategiyanın qəbul olunmasını diktə edirdi. Belə ki, son dövrlərdə süni intellektlə bağlı qlobal miqyasda kəskin rəqabət mühiti formalaşmaqdadır. Artıq süni intellekt texnologiyalarına nəzarət, onların hazırlanması və istifadəsi qlobal siyasi və iqtisadi qüvvələr nisbətini müəyyən edir. Süni intellekt sadəcə texnoloji bir yenilik deyil. Bu, idarəetməni, təhlükəsizliyi, iqtisadiyyatı, sosial həyatı köklü şəkildə dəyişdirən bir çevriliş dalğasıdır. "IV Sənaye inqilabı"nın əsasında dayanan bu proses artıq başlayıb və dünyanın qabaqcıl ölkələri süni intellekti milli təhlükəsizlik, rəqabətədavamlılıq və rifah faktoru kimi qiymətləndirir.

Şübhəsiz ki, süni intellekti istehlak edən yox, onu inkişaf etdirən ölkələr qlobal mühitdə strateji üstünlük qazanacaqlar. Azərbaycan bu mərhələdə bir seçim qarşısında idi: ya bu inqilabi prosesləri kənardan izləyəcəkdi, ya da onun aktiv iştirakçısına çevriləcəkdi. Əlbəttə, cənab Prezidentin iradəsi və siyasi uzaqgörənliyi sayəsində ikinci yol seçilmişdir və bu istiqamətdə ardıcıl, qətiyyətli addımlar atılır, uğurlu nəticələr əldə edilir. Süni intellekt strategiyasının qəbul edilməsi də bu siyasətin tərkib hissəsi və davamıdır. Azərbaycan dövləti süni intellekt sahəsində beynəlxalq rəqabət qabiliyyətini artırmaq, regional liderliyini qorumaq iddiasında və iqtidarındadır ki, bu hədəflər də strategiyada öz əksini tapmışdır.

Bundan başqa, bildiyiniz kimi, Azərbaycan Respublikasının Prezidenti tərəfindən informasiya-kommunikasiya texnologiyaları neft sənayesindən sonra prioritet sahə elan edilmiş, eləcə də, "qara qızıl"ın "insan kapitalı"na çevrilməsi devizi irəli sürülmüşdür. Bu isə texnologiya, innovasiyaya, intellektual insan kapitalına əsaslanan iqtisadiyyatın inkişaf etdirilməsi deməkdir. Süni intellekt isə bu sahədə bir katalizator rolunu oynayır – rəqəmsal iqtisadiyyatın inkişafı, sənayedə, kənd təsərrüfatında məhsuldarlığın artırılması, enerji səmərəliliyi baxımından bu texnologiya böyük potensiala malikdir. Bu sənədi qəbul etməklə Azərbaycan dövləti həmin potensialı reallaşdırmaq əzmində olduğunu göstərir.

Süni intellekt strategiyasından bir qədər öncə dövlət başçısı "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası"nı təsdiq etmişdir. Həmin sənədin əsas hədəfləri rəqəmsal dövlət, rəqəmsal iqtisadiyyat və rəqəmsal cəmiyyəti inkişaf etdirməkdir. Süni intellekt strategiyası da məhz bu hədəflərin yüksək səviyyədə, müvəffəqiyyətlə həyata keçirilməsini nəzərdə tutur.

**– Bu strategiyanın əsas prioritetləri hansılardır? Azərbaycan dövləti süni intellektlə bağlı hansı hədəflərə iddialıdır?**

– "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası" bir çox mühüm prioritetləri və hədəfləri əhatə edir. Bu sənəd təkcə texnologiyaların inkişafı ilə bağlı deyil, eyni zamanda, dövlət idarəçiliyinin səmərəliliyinin artırılması, milli təhlükəsizlik, insan kapitalının gücləndirilməsi, yeni iqtisadi modellərin qurulması və beynəlxalq əməkdaşlıq istiqamətində də çoxşaxəli hədəfləri müəyyən edir. Burada söhbət yalnız texnologiya ilə ayaqlaşmaqdan yox, həm də texnologiyaları yaradan, formalaşdıran və ixrac edə bilən bir ölkəyə çevrilmək iddiasından gedir.

Strategiyanın əsas prioritetlərindən biri ölkədə süni intellektin inkişafı üçün zəruri olan texnoloji və institusional infrastrukturun yaradılmasıdır. Buraya yüksək hesablama gücü olan serverlər, məlumat mərkəzləri, milli bulud sistemləri, açıq məlumat bazaları və digər texnoloji dayaqlar daxildir. Süni intellekt məlumatlar üzərində qurulan bir texnologiya olduğu üçün bu sahədə məlumatların toplanması, saxlanması, emalı və istifadəsi üzrə şəffaf, çevik və səmərəli sistemlərin qurulması hədəflənir.

Süni intellekt təkcə maşınların işi deyil – bu sahənin arxasında yüzlərlə, minlərlə yüksəkixtisaslı mütəxəssisin zəhməti dayanır. Strategiyada Azərbaycanda süni intellekt sahəsində kadr potensialının yaradılması prioritetlərdən biri hesab edilir. Akademik və peşəkar kadr potensialının artırılması, Süni İntellekt Akademiyasının yaradılması, dövlət qulluqçuları və mütəxəssislər üçün təlim proqramlarının təşkili strategiyanın mühüm istiqamətlərindəndir. Eyni zamanda, müvafiq xarici universitetlərlə əməkdaşlıq, beynəlxalq təcrübə mübadiləsi və startap ekosistemində ixtisaslaşma proqramları da təşviq edilir.

Ən mühüm istiqamətlərdən biri də süni intellektin dövlət idarəçiliyinə inteqrasiyasıdır. Buraya elektron dövlət sistemlərinin daha da təkmilləşdirilməsi, xidmətlərin proqnozlaşdırma və avtomatlaşdırma əsaslı təşkil olunması, vətəndaş müraciətlərinin emalında süni intellekt alqoritmlərinin istifadəsi və inzibati qərarların dəstəklənməsi daxildir. Belə bir şəraitdə dövlət orqanlarının qərarvermə mexanizmləri daha çevik, şəffaf və məlumat əsaslı olacaqdır.

Strategiyanın önəmli bir xətti süni intellekt sahəsində startapların təşviqinə yönəlib. Dövlət süni intellekt əsaslı startapların formalaşması üçün texnoparklar, inkubatorlar və fondlar vasitəsilə dəstək verəcəkdir. Belə təşəbbüslər təkcə yerli bazarda deyil, həm də beynəlxalq bazarlarda rəqabət aparacaq məhsulların meydana çıxmasına zəmin yaradır. Burada məqsəd Azərbaycanı təkcə istifadəçiyə yox, həm də texnologiya istehsalçısına çevirməkdir.

Azərbaycan iqtisadiyyatının rəqəmsal transformasiyası və "ağıllı" iqtisadiyyat modelinə keçidi də strategiyanın əsas hədəflərindən biridir. Kənd təsərrüfatından sənayeyə, ticarətdən xidmət sahələrinə qədər hər sahədə süni intellektin tətbiqi məhsuldarlığı artırmaqla yanaşı, rəqabət qabiliyyətini də yüksəldir.

Süni intellektin inkişafı ilə bağlı ən həssas məsələlərdən biri onun etik və hüquqi aspektləridir. Strategiya bu sahədə də qabaqlayıcı addımlar atmağı nəzərdə tutur. Buraya süni intellektin qərarvermə proseslərində şəffaflıq, izah edilə bilənlik, ayrı-seçkiliyin edilməməsi kimi meyarların tətbiqi daxildir. Eyni zamanda, hüquqi tənzimləmələrin təkmilləşdirilməsi və süni intellekt sahəsində beynəlxalq standartlarla harmonizasiya da nəzərdə tutulur.

Bunlardan başqa, strategiyada süni intellekt sənayesinin formalaşdırılması və beynəlxalq rəqabətə çıxarılması, ölkəmizin regional süni intellekt mərkəzinə çevrilməsi və beynəlxalq indekslərdə mövqeyinin yüksəldilməsi, Azərbaycan dilində süni intellekt həllərinin hazırlanması və ölkənin bu sahədə rəqəmsal suverenliyinin gücləndirilməsi kimi hədəflər də var.

**– Sizcə, bu strategiyanın uğurla həyata keçirilməsinin dövlət idarəetməsində, milli təhlükəsizlik sahəsində, iqtisadiyyatda, sosial sferada hansı nəticələri olacaq?**

– Süni intellekt strategiyasının uğurla həyata keçirilməsi dövlətin idarəetmə sistemində növbəti inkişaf mərhələsi ola bilər. Müvafiq texnologiyaları, ilk növbədə, idarəetmədə çevikliyi və şəffaflığı artıracaq, vətəndaşların dövlət orqanları ilə münasibətində yeni keyfiyyət mərhələsi yaradacaq. Vətəndaşların ehtiyaclarına daha uyğun, fərdiləşdirilmiş xidmətlər təqdim ediləcək. Süni intellekt vasitəsilə aparılan analitik təhlillər, məlumatların analizi və qərarların optimallaşdırılması dövlət orqanlarının fəaliyyətində səmərəliliyi əhəmiyyətli dərəcədə artıracaq. İdarəetmədə obyektivlik və daha əsaslı yanaşma güclənməsi korrupsiya risklərini azaldacaq və idarəetmədə etimadı artıracaq.

Milli təhlükəsizlik sahəsində isə süni intellektin tətbiqi kiberhücumların qarşısının alınmasında, təhdidlərin əvvəlcədən proqnozlaşdırılmasında və milli informasiya infrastrukturunun qorunmasında mühüm rol oynayacaq. Məlumatların real vaxt rejimində təhlili və süni intellektin risk analizi alətləri təhlükəsizlik xidmətlərinin çevik və məqsədyönlü fəaliyyətini təmin edə bilər. Həmçinin dezinformasiya və saxta kontentlə mübarizə güclənəcək. "Deepfake", saxta məlumat və sosial manipulyasiyaları süni intellekt vasitəsilə daha effektiv təhlil etməkvə neytrallaşdırmaq mümkün olacaq.

İqtisadiyyatda süni intellekt məhsuldarlığı artırmaqla yanaşı, rəqəmsal innovasiyalara əsaslanan yeni bazar seqmentlərinin formalaşmasına şərait yaradacaq. Xüsusilə kənd təsərrüfatı, sənaye, nəqliyyat və enerji kimi sahələrdə proseslərin avtomatlaşdırılması və optimallaşdırılması investisiya mühitinə də müsbət təsir edəcək. Eyni zamanda, biznes proseslərinin avtomatlaşdırılması və təkmilləşdirilməsi nəticəsində istehsal və xidmət sahələrində daha yüksək effektivlik təmin oluna bilər. İndi bir çoxları süni intellektin bir çox fəaliyyət sahələrinə geniş tətbiqi nəticəsində iş yerlərinin itirilməsindən narahatdırlar. Lakin süni intellekt texnologiyaları bir çox peşələri aradan qaldırsa da, yeni peşə sahələri formalaşdıracaq və bu da intellektual insan kapitalının inkişafını stimullaşdıracaq.

Sosial sahədə isə təhsil və səhiyyə xidmətlərinin fərdiləşdirilmiş şəkildə təqdimatı, əhalinin sosial ehtiyaclarının daha dəqiq müəyyənləşdirilməsi və ünvanlı sosial dəstək sistemlərinin təkmilləşdirilməsi gözlənilir. Süni intellekt həm də regionlararası inkişaf fərqlərinin azaldılmasında, bərabər imkanların təmin olunmasında mühüm rol oynaya bilər. Səhiyyə sahəsində də süni intellekt böyük keyfiyyət dəyişiklikləri vəd edir. Diaqnostika, müalicə və xəstəliklərin proqnozlaşdırılması da süni intellektin tətbiqi nəticəsində daha dəqiq, sürətli və etibarlı olacaq.

Nəticə etibarilə, bu təşəbbüs elmi-texnoloji ekosistemin sağlamlaşdırılması, tədqiqat institutlarının gücləndirilməsi və süni intellekt sahəsində dayanıqlı inkişafın təmin olunması baxımından strateji əhəmiyyətə malikdir.

**– Bu strategiyada əsas məqsədlərdən biri də süni intellekt sahəsində yüksək səviyyəli kadrların hazırlanmasıdır. Azərbaycanının mövcud elm və təhsil potensialı bu sahədə keyfiyyətli kadrların hazırlanması üçün yetərlidirmi?**

– Süni intellekt sahəsində yüksəksəviyyəli kadrların hazırlanması, şübhəsiz, hər bir ölkənin rəqəmsal transformasiya prosesinin təməl daşlarından biridir. Azərbaycanda bu məqsədin reallaşdırılması üçün böyük potensial mövcuddur. Lakin bu potensialın daha da gücləndirilməsi üçün bəzi strateji addımlar da atılmalıdır.

Hazırda Azərbaycanın elm və təhsil sistemində texnologiyalar sahəsində bir sıra inkişaf prosesləri müşahidə olunur. Bir çox ali təhsil müəssisələri, xüsusən, texnoloji profilli universitetlər, süni intellekt və data elmləri üzrə müvafiq ixtisaslı kadrlar hazırlayır və bu sahədə təhsil alan tələbələrin sayı ilbəil artır. Lakin bu istiqamətdə keyfiyyətli kadrların hazırlanması yalnız müasir tədris proqramlarının tətbiqi ilə kifayətlənməməlidir. Burada, həmçinin praktik təcrübə, beynəlxalq əməkdaşlıq və sənaye ilə inteqrasiya vacib amillərdir.

Azərbaycanın elm və təhsil potensialı süni intellekt sahəsində keyfiyyətli kadrların hazırlanması üçün minimal şərtləri ödəyir, lakin bu sahədə əlavə resursların, təcrübəli mütəxəssislərin cəlb edilməsi və beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsi çox vacibdir. Hazırda bir çox xarici universitetlər və tədqiqat mərkəzləri ilə tərəfdaşlıq əlaqələrinin qurulması, eləcə də, yerli elmi müəssisələrin beynəlxalq elmi dairələrə inteqrasiyası bu prosesin sürətlənməsinə kömək edə bilər.

Digər tərəfdən, burada təhsilin yalnız akademik aspekti deyil, həm də praktiki tərəfi mühüm rol oynayır. Süni intellekt sahəsində çalışan mütəxəssislər və tədqiqatçılar qarşılarına qoyulan məsələlərin həlli yollarını tapmaq üçün təcrübə qazanmalıdırlar. Bu məqsədlə müasir laboratoriyalar, startap inkubatorları, elmi-texniki parklar və sənaye tərəfdaşlıqları yaradılmalıdır ki, tələbələr və mütəxəssislər burada praktiki təcrübə qazana bilsinlər.

Eyni zamanda, bu sahədə yetişdirilən kadrların əmək bazarına çıxışını asanlaşdıracaq çevik mexanizmlərin olması da mühüm əhəmiyyət kəsb edir. Dövlət tərəfindən təklif edilən stimullaşdırıcı tədbirlər, beynəlxalq təcrübənin tətbiqi və gələcəkdəki tələblərə uyğun tədris proqramlarının tərtib edilməsi ölkənin süni intellekt sahəsində yüksək səviyyəli kadrlarla təminatına zəmin yaradacaq.




**– Strategiyada yüksək texnologiyalar sahəsində çalışan alim və mütəxəssislərin əməyinin stimullaşdırılması da nəzərdə tutulub. Siz də bu sahədə çalışan bir mütəxəssis kimi necə düşünürsünüz, bu cür maddi stimullaşdırma tədbirləri müvafiq tədqiqatların kəmiyyətini və keyfiyyətini artıra biləcəkmi?**

– Əlbəttə, yüksək texnologiyalar sahəsində çalışan alim və mütəxəssislərin əməyinin stimullaşdırılması strategiyanın uğurla icra olunmasının ən vacib şərtlərindən biridir. Çünki süni intellekt kimi mürəkkəb və dinamik sahədə inkişafın əsas aparıcı qüvvəsi məhz intellektual insan kapitalıdır.

Lakin maddi stimullar yalnız əmək haqqının artırılması ilə məhdudlaşmamalıdır. Burada məqsəd, eyni zamanda, araşdırma mühitinin sabit və davamlı inkişafını təmin etməkdir. Məsələn, tədqiqat qrantlarının verilməsi, beynəlxalq layihələrə çıxış imkanlarının genişləndirilməsi, elmi nəticələrin kommersiyalaşdırılmasında dövlət dəstəyi mexanizmlərinin yaradılması həm tədqiqatların kəmiyyətini, həm də keyfiyyətini əhəmiyyətli dərəcədə yüksəldə bilər.

Bu gün ölkəmizdə çox sayda potensiallı gənc alim və mütəxəssis var ki, onlar kifayət qədər yaradıcı ideyalara malikdirlər, lakin bu ideyaların reallaşdırılması üçün praktik dəstəyə ehtiyac duyurlar. Əgər dövlət bu sahədə çalışanları həm maddi, həm də institusional baxımdan dəstəkləyərsə, bu, beynəlxalq səviyyədə rəqabət apara biləcək elmi məktəblərin yaranmasına təkan verər.

Daha bir vacib məqam isə odur ki, belə stimullaşdırma tədbirləri bu sahədə "beyin axını"nın qarşısını ala bilər. Yəni, mütəxəssislər xaricə getmək əvəzinə öz ölkəsində qalaraq həm milli innovasiya sisteminə töhfə verər, həm də yeni nəsil alimlərin yetişməsinə kömək edə bilər.

*Müsahibəni apardı:*
***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Cənubi Koreya "Tramp tarifləri"ndən qorunmağa çalışır

**Cənubi Koreya yarımkeçirici sənayesinə 23,2 milyard dollar dəstək verəcək. Ölkənin əsas biznes sahələrindən birinin maliyyələşdirmə səviyyəsini artırmaq qərarı, digər məsələlərlə yanaşı, ABŞ prezidenti Donald Trampın tarifləri tətbiq etməsi ilə bağlıdır. Lakin "Samsung" korporasiyasnın problemləri təkcə yüksək tariflərlə bağlı deyil. Məlumata görə, şirkətin ABŞ istehsalı olan məhsullarına müştəri tapmaq da getdikcə çətinləşir.**

Seulun yeni planlarına əsasən, hökumət dəstəyi əvvəlcədən planlaşdırılan məbləğdən 5,3 milyard dollar çox olacaq. Bunun 2 milyard dolları 2027-ci ilə qədər aşağı faizli güzəştli kreditlərin maliyyələşdirilməsinə yönəldiləcək. NBC xəbər verir ki, planlaşdırılan tədbirlər çərçivəsində Cənubi Koreya hökuməti yarımkeçirici klasterlər üçün yeraltı elektrik xətlərinin tikintisinə subsidiya verəcək. Həmçinin bütövlükdə, qabaqcıl sənaye komplekslərində infrastrukturun maliyyələşdirilməsinin payının 30 faizdən 50 faizə yüksələcəyi bildirilir.

Cənubi Koreya Tayvanla birlikdə dünyanın əsas yarımkeçirici istehsalçısı olaraq qalır. Eyni zamanda, Amerikanın "Intel" şirkəti xüsusilə çip istehsalı sahəsində ciddi böhran yaşayır – şirkət istehsal gücünü azaldır və yeni fabriklər tikmək planlarını təxirə salır. Düzdür, bu, ilk növbədə Avropa və Malayziyaya təsir edir, ABŞ-da isə "Intel" öz mövqeyini qoruyub saxlamağa çalışır. Cənubi Koreyanın "Samsung" şirkəti isə Çin də daxil olmaqla çip ixracını artırmağa davam edir.

"The Financial Times" qəzetinin yazdığına görə, Cənubi Koreya nəhəngi ABŞ-la əməkdaşlıqda çətinliklər fonunda süni intellektin inkişafı üçün çiplərə tələbatın artdığı Çinlə əlaqələri genişləndirir. Paradoksal olsa da, Prezident Trampın tətbiq etdiyi tariflər Çinin mövqeyini və Pekinin Cənubi Koreya ilə əlaqələrini gücləndirə bilər.



Xatırladaq ki, Qərbin Çinlə qarşıdurmasında mühüm istiqamətlərindən biri də budur ki, Pekin müstəqil olaraq qabaqcıl çiplər istehsal edə bilməsin. İndiyədək ABŞ bu vəzifənin öhdəsindən çip hazırlanmasında istifadə edilən litoqrafiya avadanlığının istehsalında liderliyini qorumaqla gəlir. Amerikalılardan başqa, litoqrafiya avadanlıqları Hollandiyada (ASML) və Yaponiyada istehsal olunur. Hər iki ölkə Çində hər hansı bir rəqibin yaranmasının qarşısını almaq üçün amerikalılarla əməkdaşlıq edir. "Samsung" şirkəti Ağ evin təzyiqi altında keçən ilin noyabrında Çinə 7 nanometrlik çiplərin tədarükünü dayandırmışdı. Eyni addımı onlardan əvvəl Tayvanın TSMC şirkəti də atmışdı.

Ancaq indi vəziyyət dəyişməyə başlayır. FT yazır ki, "Samsung" şirkəti istehsal müəssisələrini Texasda yerləşdirsə də, ABŞ-da müştərilər tapmaqda çətinlik çəkir. Yeri gəlmişkən, bu problem yeni rüsumlarla bağlı deyil, çünki yeni tariflər ABŞ istehsalı olan mallara şamil edilmir. Ancaq mütəxəssislər deyirlər ki, Çində Cənubi Koreya şirkətlərinin kifayət qədər müştərisi var.

Bununla belə, Çinin özü də irəliyə doğru addımlar atır: "Huawei" şirkəti artıq 7 nanometrlik çiplər istehsal edir və yaxın gələcəkdə texnoloji cəhətdən daha inkişaf etmiş 5 nanometrlik çipləri istehsal edəcəyi istisna edilmir.

***SE LAY***
***XQ***

Nəriman Nərimanov – 155

# Bəşəri ideallar uğrunda mübariz

**Görkəmli ictimai-siyasi xadim, yazıçı, publisist, həkim Nəriman Nərimanov maarifpərvər qələm sahibi kimi hörmətlə anılan tarixi şəxsiyyətdir. Bu mövzuda məqalələri, hər biri ədəbiyyatımızda xüsusi yer tutan “Nadanlıq”, “Şamdan bəy”, “Nadir şah” kimi əsərləri məşhurdur.**



Ulu öndər Heydər Əliyev onun fəaliyyətini yüksək qiymətləndirib: “Nəriman Nərimanovun əməkçi kütlələri maarifləndirmək əzmi, insanlara xidmət etmək kimi nəcib bir arzusu, hadisələri dərindən başa düşməsi, istedad və bacarığı onu Azərbaycan demokratik və ictimai-siyasi fikir nümayəndələrinin ön cərgəsinə çıxartdı... Nəriman Nərimanov öz dövrünün, yaşadığı mühitin çərçivəsində böyümüş görkəmli simadır, böyük siyasi xadimdir”.

Nəriman Nərimanovun qələmindən çıxan pyeslər Azərbaycan dramaturgiyasının inkişafı və zənginləşməsinə mühüm töhfələr verib. “Bahadır və Sona” romanı, “Pir” povesti, “Bir kəndin sərgüzəşti”, “İdil kənarında”, “Şeytan bazarda” kimi hekayələri Azərbaycan bədii nəsrinin inkişafına istiqamət verən əsərlər olaraq əhəmiyyət qazanıb.

Akademik İsa Həbibbəyli yazır: “XIX əsrin 70–90-cı illərini Azərbaycan ədəbiyyatının “yetimlik dövrü” adlandırırlar. Heç bir müəllimi, ustadı, canlı sələfi olmayan C.Məmmədquluzadə, N.Nərimanov, S.Qənizadə, M.Ə.Sabir kimi yazıçı və şairlər XIX əsrin 80-90-cı illərində yazdıqları əsərlərlə ədəbiyyatı yetimlik dövründən xilas etdilər. Dərinləşməkdə olan ədəbi böhranın və ya uçurumun aradan qaldırılmasında 1894-cü ildə yazılmış iki əsərin – Cəlil Məmmədquluzadənin “Danabaş kəndinin əhvalatları” povestinin və Nəriman Nərimanovun “Nadanlıq” dramının xüsusi yeri var idi... “Nadir şah” dramında ədəbiyyatda ilk dəfə olaraq xalq hakimiyyəti ideyası irəli sürülmüşdür. “Nadir şah” Azərbaycan ədəbiyyatında birinci milli-tarixi dram əsəri idi”.

Həmin əsərin sonunda sui-qəsd törədilməklə öldürülən, arxadan vurulan Nadir şah deyir: “Pərvərdigara! Günahım çoxdur! Yaman dərdlə ölürəm, nahaq yerə. Heç kəsə pislik etməmişəm. Hər kəsə də yaxşılıq etmişəm. Ümumi xeyri nəzərdə tutmuşam. Vətən salamat qalsın fikrində olarkən canımı Vətənin və millətin yolunda sərf etmişəm. Pərvərdigara! Özün kömək et bu başsız millətə!” – Bu son monoloq artıq həyatını itirən zaman öz yolunu, fəaliyyətini saf-çürük edərək günahı və savabını vicdan tərəzisində ölçən Nəriman Nərimanovun son məktubları və məqalələrindəki fikirləri ilə necə də oxşar və eynidir! Axı o, Moskvaya çox inanırdı və mərkəzə aparılaraq elə oradaca müəmmalı şəkildə öldürüldü.

Ədibin əsərləri Azərbaycan ədəbi düşüncəsi və yaradıcılıq ənənələrinin üzərində meydana gələn və Azərbaycan tolerantlığı, multikultural düşüncəsini nümayiş etdirən, ictimai-siyasi görüşlərini ortaya qoyub. O, özünün çoxsaylı publisist yazılarında xalqının və ölkəsinin qayğılarını dilə gətirməyə, problemlərinə çözüm tapmağa çalışıb. Təkcə “Dilin bəlası, yaxud Şamdan bəy” əsəri bu baxımdan əsl dəstəvuz ola bilər. Bu dramında o, milli düşüncədə istiqlal ideyalarının pərvazlanmağa başladığı bir zamanda yaramaz və fürsətgir burjua nümayəndələrinin millətin başına gətirdiyi bəlalardan cəsarətlə bəhs edib.

Nəriman Nərimanov ədəbi tərcüməçilik fəaliyyəti ilə də məşğul olub. Onun Nikolay Qoqolun “Müfəttiş” və Qriqori Genin “Edam” əsərlərini ustalıqla dilimizə çevirdiyi məlumdur. Orijinal mətnə zərgər dəqiqliyi ilə yanaşması, hər sözü məhz lazım olan məna çalarında ifadə etməsi “Doktor Nəriman”ın tərcümə sənətinə mühüm töhfəsi sayılır.

Siyasi və dövlət xadimi, diplomat, tarix elmləri doktoru Həsən Həsənov “Nəriman Nərimanovun milli dövlətçilik baxışları və fəaliyyəti” adlı sanballı monoqrafiyasında onu milli ruh və siyasi təfəkkürün vəhdətində xarakterizə edib. Nərimanov irsinin tanınmış tədqiqatçısı Teymur Əhmədov yazırdı: “Azərbaycan xalqının xoşbəxtliyi və səadəti uğrunda ömrü boyu inamla mübarizə aparan Nəriman Nərimanovun ədəbi irsi bu gün də öz aktuallığı ilə diqqəti cəlb edir. Onun əsərləri ölkəmizdə milli müstəqilliyin, dövlətçiliyin möhkəmlənməsi və ərazi bütövlüyümüz uğrunda mübarizə aparan hər bir azərbaycanlı üçün qiymətli və əzizdir”.

Ölümündən azca qabaq Nəriman Nərimanovun oğlu Nəcəfə yazdığı məktubu yada düşür: “Mənim həyatım daim qayğılarla dolu olmuşdur: mən 20 yaşımdan qardaş və bacılarımın ailəsinə baxmış, bu 30 ildə 11 adam tərbiyə etmişəm. Onlardan 8 qızı ərə vermiş, qardaşımın 3 oğlunu öz maaşımla böyütmüşəm. Bütün bunların hamısını icra etdikdən sonra mən yenə də təhsil almağa başladım. 30 yaşında universitetə daxil oldum, onu bitirdikdən sonra bütün qüvvəmlə qardaşım Salmanın uşaqlarının tərbiyəsi ilə məşğul oldum. Bütün bu işlərdən mən yalnız indi, qardaşımın sonuncu qızı Xanımı 1924-cü ildə ərə verdikdən sonra azad olmuşam. Mən bunu bir il keçəndən sonra, yəni 1925-ci ildə yazıram. Bütün bunları ona görə yazıram ki, sən məni bəşəriyyət üçün az iş gördüyümə görə məzəmmət etməyəsən”...

Aldadılaraq Moskvaya aparılan və orada dostu Lenindən bir il sonra həyatını itirən Nərimanov son illərində Türkiyədəki Qurtuluş Savaşına yardımından sonra böyük Mustafa Kamal Atatürkə “Paşam, Türk millətində bir ənənə var, qardaş qardaşa borc verməz, qardaş hər durumda qardaşının əlindən tutar” sözləri ilə də xatırlanır.

***Ə.DOSTƏLİ***
***XQ***

Sərgi salonlarında

**Masallı Dövlət Rəsm Qalereyasında Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə “Müxtəlifliyə qucaq açaq” adlı səyyar rəsm və foto sərgisi açılıb. Prezident İlham Əliyevin sərəncamı ilə bu il ölkəmizdə elan edilmiş “Konstitusiya və Suverenlik İli”nə həsr olunan layihənin məqsədi Azərbaycandakı etnik müxtəlifliyi və multikulturalizm dəyərlərinə sadiqliyi nümayiş etdirmək, etnik qruplar arasında dialoqu təşviq etmək və cəmiyyətdə tolerantlığı gücləndirməkdir.**



# Rənglərin müxtəliflik çağırışı

Sərginin adı müxtəlif etnik qrupların və mədəniyyətlərin vətəni olan Azərbaycanda birgəyaşayış və harmoniyanı, həmçinin bu müxtəlifliyin dəyərləndirilməsini və qorunmasını simvolizə edir.

Açılış mərasimində mədəniyyət nazirinin müavini Murad Hüseynov, Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov, mədəniyyət və ictimaiyyət nümayəndələri iştirak ediblər. Əvvəlcə Heydər Əliyev parkındakı sərgidə Azərbaycanın mədəni müxtəlifliyini əks etdirən, müxtəlif xalqların dilində yazılmış və onların folkloruna, tarixinə işıq tutan kitablarla tanışlıq olub. Ardınca Onbirillik Uşaq İncəsənət Məktəbində azsaylı xalqların folklor kollektivlərinin ifasında konsert proqramı təqdim olunub. Orada Xalq artisti Murad Hüseynovun rəhbərliyi ilə ustad dərsləri də keçirilib.

Daha sonra tədbir iştirakçıları Masallı Dövlət Rəsm Qalereyasında Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda yer alan rəngkarlıq və qrafika əsərləri, eləcə də Azərbaycan Fotoqraflar Birliyinin kolleksiyasına aid fotolarından ibarət yer aldığı sərgiyə baxış keçiriblər.

Aprelin sonunadək davam edəcək layihə çərçivəsində, həmçinin “Genetik kod ağacı” adlı interaktiv sərgi də təşkil olunacaq. Sərgi iştirakçıları ağac təsviri olan kətan üzərinə barmaq izləri ilə yarpaqlar çəkəcəklər. Ağacın kökləri irsimizi, budaqları isə gələcəyimizi ehtiva edir.

Bundan əlavə, sərgi çərçivəsində “Əks-səda” adlı instalyasiya da nümayiş etdiriləcək. Güzgülərdən ibarət instalyasiyada neon boyalarla müxtəlif xalqların dillərində yazılar nümayiş olunacaq. Güzgü izləyicinin özünü multikultural Azərbaycanın bir hissəsi olduğunu, şəffaf dairə mədəni müxtəlifliyin açıq və sərhədsizliyini, neon boya ilə yazılmış yazılar isə fərqli dillərin və mədəniyyətlərin real və möhkəm bağlarla bir yerdə cəmləşməsini nümayiş etdirir.

***Ə.ƏLİYEV***
***XQ***

# Gəncədən böyük ekrana körpü

**Mədəniyyət Nazirliyinin dəstəyi ilə Gəncədə “Region gənclərinin kinematoqrafiya akademiyası” layihəsi üzrə “Gələcəyə körpü” Gənclər İctimai Birliyinin təqdimatında təlim keçirilib. Layihədə məqsəd kinematoqrafiya sahəsinə marağı olan region gənclərinin yaradıcılıq potensialını üzə çıxarmaq və onların peşəkar səviyyədə təcrübələrini artırmaqdır.**




Layihə çərçivəsində təlimçi, kinorejissor Rəhman Fürqətoğlu iki gün ərzində gənclərlə “ssenaristlik”, “rejissorluq”, “aktyorluq” ixtisasları üzrə peşəkar bilik və təcrübəsini bölüşüb. Bugünlərdə iştirakçılarla qısametrajlı film çəkilişi üçün vahid bir ssenari üzərində işlənilib, rejissor quruluşu verilib, eləcə də ilkin aktyorluq məşqləri keçirilib.

Təqdim olunan ssenari gənc yazar Vaqif Əmiraslanın “Cəhənnəmlər arasında” qısametrajlı filminə məxsus idi. İlk baxışda məqsəd aydınlığı tam olmasa da, maraqla dinlənildi. Ümumi fikir bu oldu ki, ssenari bu istiqamətdə ilk cəhd kimi diqqət çəkir. Müəllif əlil arabasında oturmağa məhkum olan Cahidin həyatını və sıxıntılara baxmayaraq, təkbaşına mübarizə əzmini qələmə alıb. Həm fiziki, həm də psixoloji əziyyət çəkən Cahidin çabaları ruhsal bir mübarizədir. Əlil arabası onun daxili azadlığını, həyatda qalma gücünü və mübarizə əzmini simvollaşdırır. Anası ilə telefon danışığı, yalqızlıq, sevgisizlik, eyni zamanda, əyilməzlik hissləri təsirli şəkildə təqdim olunur. Görünür ki, Cahid çətinliklərinə qarşı mübarizəni davam etdirməkdə qərarlıdır.

Sonrakı ardıcıl hadisələrin cərəyan etdiyi səhnələr Cahidin bibisi oğlu Dövranın köməyindən yararlanmaqla mübarizə əzminin nə qədər güclü olduğunu bir daha göstərir. Müəllif yanaşmasına görə, Dövranın köməyi daxili gücü, məqsədinə çatmaq üçün motivasiyanı artıran mühüm amillərdən biridir. Yəni birgə mübarizə, həm fiziki, həm də mənəvi olaraq insanları daha dayanıqlı edir.

Beləliklə, Vaqif Əmiraslan “Cəhənnəmlər arasında” çırpınan fiziki məhdudiyyətli insanların bəzən cəmiyyətin stereotiplərinə görə, yalnız məhdudiyyətləri ilə xarakterizə edilməsini tənqid hədəfinə alır. Həmçinin qeyd etməliyəm ki, qısametrajlı film üçün nəzərdə tutulan bu ssenaridə müəllif fiziki məhdudiyyətli insanların cəmiyyətə fəal inteqrasiyasının vacibliyini önə çəkir.

Nəticə etibarı ilə 2 gün davam edən “Region gənclərinin kinematoqrafiya akademiyası” layihəsinin həyata keçirildiyi bir məkanda “Cəhənnəmlər arasında” qısametrajlı film ssenarisinin maraqla qarşılanaraq yeni gənc kadr potensialının inkişafı üçün uğurlu olacağına əminik.

***Anar Ərtoğrul BURCƏLİYEV,***
***teatrşünas-tənqidçi***

“Ulduz”lu görüşlər

**Azərbaycan Yazıçılar Birliyinin “Ulduz” jurnalı ilə “Xalq qəzeti”nin xüsusi layihəsi olan “Ulduz”lu görüşlər”in növbəti qonağı “Ədəbiyyat qəzeti”nin baş redaktoru – tənqidçi, publisist, filologiya üzrə fəlsəfə doktoru Azər Turan olub.**

# Gəncliyin söz sevgisi



AYB-nin Natəvan klubunda keçirilən görüşdə Azərbaycan Universitetinin tələbələri iştirak ediblər. “Ulduz” jurnalının baş redaktoru Qulu Ağsəs görüşü açaraq türk məfkurəsini öz həyat amalına çevirən Azər Turanın həyat və yaradıcılığının əsas məqamlarına nəzər salıb. Dərginin şöbə redaktoru Taleh Mansur dəyərli kitablar müəllifi olan Azər Turanla görüşün tələbələr üçün əhəmiyyətli olduğunu vurğulayıb.

Sonra qonaq zəngin milli düşüncə tariximizə nəzər salaraq, ədəbiyyatımızda geniş yer tutan türk təfəkkürü, özünüdərk, Vətən və millət mövzuları ətrafında fikirlərini bölüşüb. Nizami Gəncəvi, Əhməd Cavad, Hüseyn Cavid, Məhəmməd Hadi, Əli bəy Hüseynzadə kimi dühaların yaradıcılığının öyrənilməsinin önəmini qeyd edib. Sözügedən mövzularda tələbələri maraqlandıran suallar cavablandırılıb, onlara Azər Turanın imzalı kitabları hədiyyə edilib.

Xatırladaq ki, bundan əvvəlki “Ulduz”lu görüşlər” Azərbaycan Dövlət Pedoqoji Universitetinin professor-müəllim və tələbə heyəti, Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Maliyyə-İqtisad Kollecinin kollektivi, Azərbaycan Universitetinin tələbələri ilə keçirilib. Görüşlərdə ADPU-nun prorektoru, professor Mahirə Nağıqızı, “Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşov, Xalq artisti Eldost Bayram, şairlər Səlim Babullaoğlu, Dayandur Sevgin, Taleh Mansur və Xəyal Rza, yazıçılar Təranə Vahid, Varis, Əyyub Qiyas və başqaları ilə maraqlı, yaddaqalan söhbətlər olub.

Layihənin növbəti qonağı şair Baba Vəziroğlu olacaq.

***XQ***

# Ədəbiyyat Muzeyində tələbələr üçün seminar

**Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin filologiya (Türk dili və ədəbiyyatı) və regionşünaslıq (İran) ixtisasları üzrə IV kurs tələbələri üçün elmi seminarlar təşkil olunur. Növbəti praktik dərsin mövzusu klassik türk və Azərbaycan musiqisinin dahi bilicisi Əbdülqadir Marağayiyə (1353-1434) həsr edilib.**

Seminarı təqdim edən “Doktorantura və elmi inkişaf” şöbəsinin elmi işçisi Rəhilə Sadıqova öz çıxışında Əbdülqadir Marağayinin həyat və yaradıcılığı, zəngin irsi, yaşadığı dövr və onu əhatə edən elmi mühit barəsində geniş məlumat verib. Məruzəçi bildirib ki, XIV–XV əsrlərin qovşağında yaşamış bu fenomenal şəxsiyyət görkəmli musiqişünas olmaqla yanaşı, həm də hafiz, mahir xəttat, istedadlı şair, xoşavazlı xanəndə və bacarıqlı ud ifaçısı idi. Əsərləri dünyanın bir çox mötəbər kitabxanalarında qorunub saxlanan Əbdülqadir müasirləri tərəfindən “musiqi bilicilərinin şeyxi” adlandırılmışdır.



Seminarda Əbdülqadir Marağayinin Azərbaycan, fars və ərəb dillərində şeirlər yazdığı qeyd olunub və müəllifin poeziyasına məxsus farsca şeirlərindən müxtəlif fraqmentlər tələbələrlə birgə təhlil edilib.

Sonda tələbələr dahi musiqişünas Əbdülqadir Marağayinin repertuarından müasir iranlı xanəndə Humayun Şəcəriyanın ifasında 500 ildən çox yaşı olan “Amede nəsime sobhe dəm” kompozisiyasını dinləyiblər.

***Qabil YUSİFOĞLU***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 75 (30769) 17 aprel 2025-ci il, cümə axşamı

# Sumqayıt Tibb Mərkəzində oftalmoloji aksiya

**Sumqayıt Tibb Mərkəzi görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın anım gününə həsr olunmuş oftalmoloji aksiya keçirib. Məqsəd əhaliyə yerindəcə xidmət göstərmək, görmə patologiyasının erkən diaqnostikasını aşkarlayaraq həll olunmasına kömək etmək, profilaktik müalicə prosedurları həyata keçirməkdir.**



Hacı Zeynalabdin Tağıyev qəsəbəsində 2 nömrəli şəhər xəstəxanasının oftalmoloqları və endokrinoloqu sakinləri müayinə ediblər. Gözlərində problem müşahidə olunan şəxslərə müvafiq müalicə yazılıb, əməliyyata ehtiyacı olanlar oftalmoloji tibb müəssisəsinə yönləndirilib.

Qeyd edək ki, aksiya zamanı 120-yə yaxın sakin müayinə edilib.

*Qəzənfər QASIMOV*
*XQ*

SAĞLAMLIQ

# Sağlam mədə – düşmə dərdə

**Mədə xorası üçün qızardılmış kartofla yanaşı, pomidor da təhlükəlidir. Bunu qastroenteroloq Rüstəm Sadıqov deyib və qızardılmış kartofdan daha təhlükəli 5 məhsulun da adını çəkib.**



Həkim bildirib ki, mədəyə zərərli qidalar dedikdə, ilk ağıla gələn hamburger, kartof qızartması və soda olur. Əslində, selikli qişaya daha çox zərər verən başqa qidalar da var. Onun sözlərinə görə, təzə bişmiş məhsullar həddindən artıq fermentasiyaya səbəb olur ki, bu da şişkinlik və ağırlıq yaradır. Nəticədə, selikli qişa davamlı qıcıqlanır.

Həkim deyib ki, duz, konservantlar və kimyəvi əlavələr səbəbindən hisə verilmiş və konservləşdirilmiş qidaları yemək məsləhət deyil.

Hətta yüksək turşuluğu olan pomidorlar da mədə yanmasına və iltihaba səbəb ola bilər. Buraya sitrus meyvələri, ananas, zoğal, nar da daxildir. Ədviyyatlı və isti yeməklərə də diqqət edilməlidir. Sarımsaq, çili bibəri, isti xörək və bəzi ədviyyatlar mədə divarlarını qıcıqlandırır, qastrit və ya xoraya səbəb olur.

O, əlavə edib ki, alkoqol və qəhvə mədə şirəsini çoxaldır. Bu da mədədə yanma hissinə, ağrıya və selikli qişanın zədələnməsinə səbəb olur. Acqarına qəhvə içmək isə, ümumiyyətlə, olmaz.

*Z.HÜSEYNLİ*
*XQ*

İnsan və təbiət

# Bir də belə yağma, yağış...

## *Külək, leysan və selin törətdiyi fəsadlar aradan qaldırılır*

**Bir neçə gün əvvəl sinoptiklər ölkə ərazisində havaların kəskin dəyişəcəyi, aramsız yağış və leysanların yağacağı, bölgələrdə bir çox çayların dolub-daşacağı barədə xəbərdarlıq etmişdilər. Hətta bildirmişdilər ki, bu dəfə yağıntılar son onilliklər ərzində analoqu olmayan dərəcədə güclü ola bilər.**





Digər bir xəbərdarlıq isə yağıntıların yüksək sürətli küləklə müşahidə olunacağı ilə bağlı idi. Bu isə öz növbəsində əlavə çətinliklərin yaranacağı ehtimalını daha da artırırdı. Etiraf edək ki, bəlkə də bir çoxumuz bu xəbərdarlığı o qədər də ciddiyə almaq istəmirdik. Amma, srağagün, xüsusilə dünən gün ərzində görüb müşahidə etdiklərimiz bir daha sübut etdi ki, meteoroloqlar öz proqnozlarında haqlı imişlər.

Beləliklə, aprelin 14-dən 15-nə keçən gecədən başlayaraq ölkə ərazisində, eləcə də paytaxtda müşahidə olunan qeyri-sabit və yağıntılı hava şəraiti bir sıra fəsadlara yol açıb, bəzi əraziləri isə su basıb. Bakı şəhəri Heydər Əliyev prospektində yerləşən "Bağırov" tunelinə yağış sularının yığılması səbəbindən burada nəqliyyat vasitələrinin hərəkətinə bir müddət məhdudiyyət qoyulub. Tuneldə aparılan suçəkmə əməliyyatı başa çatdırıldıqdan sonra nəqliyyatın tam hərəkəti bərpa edilib. Paytaxtın Sabunçu tunelində də subasma ilə bağlı eyni problemlər yaşanıb.

Fövqəladə Hallar Nazirliyindən (FHN) mediaya verilən xəbərlərə görə, Bakı şəhəri Nəsimi rayonu ərazisindəki çoxmərtəbəli yaşayış binalarının birində mənzilin eyvan hissələrinin qoparaq asılı vəziyyətdə qalması nəticəsində vətəndaşlar üçün yaranmış təhlükəli vəziyyət nazirliyin xilasedicilər tərəfindən operativ olaraq aradan qaldırılıb. Görülən tədbirlər nəticəsində su basmış yerlərdə köməksiz vəziyyətdə qalmış 10-u uşaq olmaqla, ümumilikdə, 31 nəfər vətəndaş təxliyə olunub.



Dünən güclü külək nəticəsində Abşeron rayonu ərazisində 21 ağac aşıb, qəzalı vəziyyətdə olan və aşmış ağaclar Ekologiya və Təbii Sərvətlər Nazirliyinin aidiyyəti qurumlarının əməkdaşlarının iştirakı ilə ərazidən götürülüb. İntensiv yağıntılar ilə əlaqədar olaraq əksər daxili çaylarda sululuq artıb. Ən çox artım Böyük Qafqaz ərazisindən axan çaylarda qeydə alınıb. Belə ki, Böyük Qafqaz ərazisindən axan Əyriçayda 52, Qarasuçayda 33, Kiçik Qafqaz ərazisindən axan Əsrikçay və Qabbırı-Kəsəməndə 5, Qarabağ və Şərqi Zəngəzur bölgəsindən axan Bərgüşadçayda 38, Köndələnçayda 11, Quruçayda 7, Lənkəran–Astara bölgəsindən axan Lənkərançayda 5 santimetr artım qeydə alınıb.

Dünən Şabran rayonundan olan yazıçı-jurnalist Aydın Tağıyev redaksiyaya zəng vuraraq dedi ki, bütün sutka ərzində rayon mərkəzinə aramsız yağış yağıb və Şabrançaya güclü sel gəlib. Yaşı 75-i haqlamış Aydın müəllim bildirdi ki, o, şəxsən ömründə Şabrançayı belə "hirsli" və "qəzəbli" görməyib.

Ölkəmizin qərb bölgəsinin yaşayış məntəqələrinin sakinləri də güclü yağıntı ilə əlaqədar aprelin 16-da bir çox çətinliklərlə üzləşiblər. Xüsusilə Gəncənin Məhsəti qəsəbəsində 15-ə yaxın fərdi yaşayış evinə yağış sularının dolması narahatlıqlar doğurub. FHN-in Gəncə Regional Mərkəzinin əməkdaşları və xüsusi avadanlıqları əraziyə cəlb olunub. Xüsusi avadanlıqlar vasitəsilə həyətlərə və evlərə dolan suların çəkilməsi işləri həyata keçirilib. Eyni zamanda, yağış sularının istiqamətinin dəyişdirilməsi üçün ərazidə qazıntı işləri aparılıb.

Qeyd edək ki, ölkə ərazisində kəskin hava şəraiti, demək olar ki, bütün regionlarda elektrik təsərrüfatında lokal xarakterli qəza hallarının yaranmasına səbəb olub. Leysan xarakterli intensiv yağış və güclü külək nəticəsində aşan ağac və kənar əşyaların elektrik xətlərini zədələməsi bəzi ərazilərdə elektrik enerjisinin verilişində məhdudiyyətlərin yaranmasına səbəb olub.

Bir çox hallarda isə külək və sel suları elektrik təsərrüfatına daha böyük həcmdə ziyan vurmasın deyə qabaqlayıcı tədbir kimi xətlərə enerjinin ötürülməsində planlı fasilə verilib. Buna görə bir sıra bölgələrdə enerjinin verilməsində məhdudiyyətlər yaranıb. "Azərişığ"ın qəza xidmətinin əməkdaşları ərazilərdə fəsadların aradan qaldırılması istiqamətində 24 saat fasiləsiz çalışıblar.

Təəssüf ki, təbiətin budəfəki şıltaqlıqları itkisiz ötüşməyib. Belə ki, dünən Ağsunun Kalva kəndinin ərazisində sel ekskavatoru aşırıb. Hadisə nəticəsində 1 nəfər ölüb, 3 nəfər yaralanıb. İlkin məlumatlara görə, ərazidə yol-təmir işləri ilə məşğul olan işçilər yağışın başlamasını müşahidə edərək təhlükəsizlik məqsədilə ekskavatorun içərisinə yerləşiblər. Lakin bir qədər sonra çaya sel gəlib və güclü axının təsirindən ekskavator aşıb.

Əraziyə dərhal Fövqəladə Hallar Nazirliyinin xilasediciləri cəlb olunublar. Yaralılar ekskavatorun içindən çıxarılaraq Şamaxı Rayon Mərkəzi Xəstəxanasına təxliyə ediliblər. Faktla bağlı aidiyyəti qurumlar tərəfindən təhqiqat aparılır.





Göründüyü kimi, təbiət öyrəşdiyimiz və ümid etdiyimiz kimi, həmişə mülayim və rəhmli olmur, bəzən insanlara sərt üzünü göstərir, sanki bizi sınağa çəkir. Nə etmək olar, sadəcə bu sürprizlərə hazır olmalıyıq...

*Qabil YUSİFOĞLU,*
*Məsaim HACIXANOĞLU,*
*XQ*

HAVA

# Külək, leysan, qar və duman

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, aprelin 17-də Bakıda və Abşeron yarımadasında arabir leysan xarakterli yağış yağacağı, səhər tədricən kəsiləcəyi gözlənilir. Güclü şimal-qərb küləyi əsəcək, axşam mülayimləşəcək. Gecə 6-9°, gündüz 12-16° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 768 mm civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 50-55 faiz olacaq.**

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, şimşək çaxacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var.

Səhər qərb rayonlarından başlayaraq tədricən kəsiləcək. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq.



Qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturu gecə 5-9°, gündüz 13-18° isti, dağlarda gecə 3-8° şaxta, gündüz 0-5° isti olacaq.

*QQ ASIMOV*
*XQ*

"Azərbaycan Hava Yolları"
Qapalı Səhmdar Cəmiyyəti

*Palo Alto avadanlıq və lisenziyaların satın alınması üçün*

AÇIQ TENDER ELAN EDİR

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin orqtexnika avadanlıqlarının satın alınması üçün açıq tenderində iştirakçılar arzu.qasimli@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 2025-ci il 28 aprel saat 17.00-dəkdir.

**Prosedur üzrə əlaqələndirici şəxs – Arzu Qasımlı, mütəxəssis, arzu.qasimli@azal.az, əlaqə mömrəsi – (+99412) 497-26-00 daxili 6989.**

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3392
SİFARİŞ 745
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI
Çapa imzalanmışdır 00:00